Journal of Baku Engineering University

ISSN 2521-6333

PHILOLOGY *and* PEDAGOGY

Volume 7
Number 1
2023

Journal is published twice a year
Number-1. June, Number-2. December

An International Journal

http://journal.beu.edu.az

Founder

Havar Mammadov

Editor-in-chief

Akif Huseynli

Co - Editors

Kanan Bashirov

Editorial board

Aida Gasimova (Azerbaijan, Baku State University)
Atraba Gul (Azerbaijan, Baku Engineering University
Casarat Valehov (Ministry of Education of the Republic of Azerbaijan)
Elman Guliyev (Azerbaijan, Azerbaijan State Pedagogical University)
Emin Agayev (Azerbaijan, Baku Engineering University)
Islam Huseynov (Academy of the State Customs Committee)
M.Bahaddin Acat (Turkey, Kirikkale University)
Minakhanim Tekleli (Azerbaijan, Azerbaijan State Pedagogical University)
Maharram Gasimli (Azerbaijan, National Academy of Science)
Niyammaddin Hashimov (Azerbaijan, Baku Engineering University)
Seyran Gayibov (Azerbaijan, Baku Engineering University)
Ruslan Abdullayev (Azerbaijan, National Academy of Science)
Tarana Haciyeva (Azerbaijan, Baku Engineering University)

International Advisory board

Abdul Aziz Abdul Hafis El Khouli (Egupt, Cairo University)
Dogan Kaya (Turkey, Cumhuriyet University)
Gholam Reza Sabri Tabrizi (London, Edinburg Uni. King College)
Isa Habibbeyli (Azerbaijan, National Academy of Science)
Nazan Bekiroglu (Turkey, Karadeniz Technical University)
Nazim Hikmet Polat (Turkey, Gazi University)
Nizami Cafarov (Azerbaijan, Baku State University)
Sheref Boyraz (Turkey, Cumhuriyet University)
Yavuz Akpinar (Turkey, Ege University)
Celil Nagiyev (Azerbaijan, Baku State University)

Executive Editors

Shafag Alizade

Design

Ilham Aliyev

Contact address

Journal of Baku Engineering University
AZ0102, Khirdalan city, Hasan Aliyev str. 120, Absheron, Baku, Azerbaijan
Tel: *00 994 12 - 349 99 95* ***Fax:*** *00 994 12 349-99-90/91*

e-mail: *jr-philo.ped@beu.edu.az*
web: *http://journal.beu.edu.az*
facebook: *Journal Of Baku Engineering University*

Copyright © Baku Engineering University

ISSN 2521-6333

ISSN 2521-6333

Journal of Baku Engineering University

Philology and Pedagogy

Baku - AZERBAIJAN

Journal of Baku Engineering University

Philology and Pedagogy

2023. Volume 7, Number 1

CONTENTS

ABBASİLƏR DÖVRÜNDƏ QADIN POEZİYASI: ULİYYƏ BİNT ƏL-MEHDİ
Aida Qasımova 3

NƏSİMİ ŞEİRİNDƏ "TÜRK" (TATAR) ADI İLƏ NƏQŞ OLUNAN BƏDİİ LÖVHƏLƏR
Minaxanım Nuriyeva Təkləli 12

QARABAĞ SAVAŞI VƏ BÖYÜK QƏLƏBƏNİN TARİXİ AZƏRBAYCAN MƏTBUATINDA ("Xalq qəzeti"nin materialları əsasında)
Namiq Əhmədov 18

ƏRƏB QRAFİKALI ƏSKİ AZƏRBAYCAN YAZISINDA ƏSL AZƏRBAYCAN SÖZLƏRİNİN ORFOQRAFİYASI VƏ ORFOEPİYASI ("RƏHBƏR" JURNALININ MATERİALLARI ƏSASINDA)
Kənan Bəşirov 33

"AZƏRBAYCAN DİLİNİN QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR DİALEKTOLOJİ ATLASI"NIN STRATEJİ ƏHƏMİYYƏTİ VƏ ANA DİLİMİZ TARİXİN İZİNDƏ
Zabitə M.Teymurlu 40

KOMMUNİKASİYANIN LİNQVİSTİK VƏ EKSTRALİNQVİSTİK XÜSUSİYYƏTLƏRİ
Təranə İmamverdi qızı Hacıyeva 47

TEACHING READING IN A FUNNY WAY
Chinara Narimanova 55

BANQLİŞ DİLİNİN LİNQVİSTİK SİSTEMİNDƏ DİL VAHİDLƏRİNİN TƏHLİLİNƏ DAİR
Aysel Soltanova 62

"BİRMA GÜNLƏRİ" ROMANINDA İMPERİALİZMƏ BƏDİİ BAXIŞ VƏ PSİXOLOGİZM
Xanım Cəfərli 69

THE ROLE OF WRITING TASKS IN FORMATIVE ASSESSMENT IN TEACHING A FOREIGN LANGUAGE
Günel Bayramova Mehdiyeva 77

THE PROBLEM OF LEXİCAL COMPATIBILITY İN E.HEMİNGWAY'S WORKS TRANSLATED INTO THE AZERBAİJANİ LANGUAGE
Kamala Ahmadli 83

BRAINSTORMING INTERACTIVE TECHNOLOGY IN ONLINE LEARNING IN THE DISCIPLINE "SOLVING CHEMISTRY PROBLEMS"
Ayten Asgarova, Khammed Asadov 93

ŞAGİRDLƏRİN MƏNƏVİ-ESTETİK İNKİŞAFINDA ESTETİK ZÖVQÜN FORMALAŞMASI PROBLEMİNİN ANALİTİK TƏHLİLİ
Ağayeva E.A 101

ŞƏRQ ƏDƏBİYYATININ "SULTANUL-AŞİQİN"İ İBNÜL-FARİZ VƏ BƏRDƏLİ İBRAHİM GÜLŞƏNİNİN "TAİYYƏ" QƏSİDƏLƏRİNİN MÜQAYİSƏSİ
Fəridə Seyidova 110

2023. Volume 7, Number 1 *Pages 3-11*

UOT: 821(091)

ABBASİLƏR DÖVRÜNDƏ QADIN POEZİYASI: ULİYYƏ BİNT ƏL-MEHDİ

Aida QASIMOVA
Bakı Dövlət Universiteti
aidagasimova@bsu.edu.az

XÜLASƏ

Abbasilər ədəbiyyatının özəl cəhətlərindən biri qadınların ictimai-siyasi həyatda fəallaşması, cəmiyyətin mədəni həyatında iştiraka can atmaları idi. Bir tərəfdən biz onları saray intriqalarının mərkəzində görür, digər yandan isə elit qadınların musiqi və poeziya məclisləri düzənləməsinin şahidi oluruq.

Bu məqalədən məqsəd Abbasi xilafətinin birinci dövründə yaşamış görkəmli şairə Uliyyə ibn Mehdinin həyatı və poeziyası barədə məlumat verməkdir. Uliyyənin həyatı, ədəbi şəxsiyyəti və poeziyası öz dövrünün ictimai-siyasi və dini-ideoloji durumu ilə sıx bağlı olub. Məqalədə ilk növbədə həmin dövrün ümumi mənzərəsi canlanır. Belə ki, Abbasilərin tarix səhnəsində Əməviləri əvəz etməsi ilə xilafətin ictimai-siyasi və əqli-mənəvi həyatında böyük dəyişikliklər baş vermiş, xilafətin siyasi orientasiyası və mərkəzi farsyönümlü istiqamətdə dəyişmişdi. Abbasi cəmiyyəti etnik mənsubiyyəti arxa plana keçirib müsəlmanların ümumi din və həyat tərzinə əsaslanan kosmopolitan bir cəmiyyət idi. Bu toplumda başqa konfessiyaların nümayəndələri də az deyildi.

Bu dövrdə urbanizasıya nəticəsində poeziya səhraları və bədəvi xeymələrini tərk edib məscid, bazar və yarmarkalara, saraylarda düzənlənən ədəbi məclislərə yol açır. Uliyyə bint Mehdi bu məclislərin daimi iştirakçılarından idi. Onun həyat və fəaliyyəti sübut edir ki, Abbasi cəmiyyətində qadın yalnız sevgi obyekti, ilham pərisi deyil, həm də şair, müğənni, rəqqasə kimi şeir və musiqi məclislərinin fəal iştirakçısı idi.

Uliyyə bint Mehdinin həyat və yaradıcılığı əfsanələrə qərq olub. Orta əsr mənbələri onun ilk növbədə istedadlı bir şairə olduğunu qeyd edir. Qeyd edək ki, Uliyyə öz muzasını qadın adları ilə adlandırır, şeirlərində əks cinsə olan sevgisini üstüörtülü şəkildə ifadə edirdi. Halbuki təxminən iki əsr öncə üzri qəzəl şairələri utanıb-çəkinmədən sevgililərinə qəzəllər (müzəkkər qəzəl) həsr edirdilər. Abbasi saray mühitində isə, görünür, qadınlar bu məsələdə çox da sərbəst deyildilər. Bəlkə də Uliyyənin "sevilib öpülərək" qətl edilməsinin səbəblərindən biri də bu cür şeirləri idi. Hər halda onun yaradıcılığının sonralar şəhrəşub şeirlərinə təsir etdiyini düşünmək olar.

Açar sözlər: Uliyyə bint Mehdi, Abbasə uxt ər-Rəşid, Abbasilər sülaləsi, qəzəl, mucun, zindiqlik

ULİYYA BİNT AL-MAHDİ – HER MİLİEU, BİOGRAPHY, PERSONALİTY, AND POETRY

ABSTRACT

The aim of this article is to give a brief account on Uliyya bint al-Mahdi. She was one of the prominent figures of Arab poetry during the first period of Abbasid literature.

First we will draw a picture of sosial-political and religious life in Abbasid caliphat.

Thus, with the replacement of the Umayyads by the Abbasids on the stage of history, great changes took place in the social-political and intellectual-spiritual life of the caliphate, and the political orientation and center of the caliphate changed and became Persian-oriented. Abbasid society was a cosmopolitan society based on a common religion of muslims, not on their ethnicity and background. There were also representatives of other denominations.

As a result of urbanization, poetry left the deserts and Bedouin tents and opened its way to mosques, bazaars and fairs, literary gatherings organized in palaces. Uliya bint al-Mahdi was one of the regular participants of these meetings. Her life and activities prove that in the Abbasid society, women were not only objects of love and muse, but also active participants gatherings devoted to the poetry and music, they acted as poets, singers, and dancers.

It should be noted that Uliyya called her male muse by female names and implicitly expressed her love for the opposite sex in the poems. However, about two centuries ago, uzri ghazal poetess used openly to dedicate ghazals (mudhakkar ghazal) to their lovers without embarrasing. In the Abbasid court milieu, apparently, women were not that free in this issue. Perhaps one of the reasons why Uliya was killed by the "lovely kiss" of Mamun was her poetry. In

any case, it can be assumed that her poetry influenced *shahrashub* poems later.

Key words: Uliyya bint a-Mahdi, Abbasa ukht al-Rashid, Abbasid dinasty, ghazal, mujun, zindiqism

УЛИЙЯ БИНТ АЛЬ-МАХДИ – ЕЕ СРЕДА, БИОГРАФИЯ, ТВОРЧЕСКАЯ ЛИЧНОСТЬ И ПОЭЗИЯ

РЕЗЮМЕ

Цель данной статьи — краткое описание жизни и биографии Улиййи бинт аль-Махди. Она была одним из видных деятелей арабской поэзии на начальном этапе Аббасидской власти. Ее жизнь и личность были окутаны легендами. Сначала прольем свет на общественно-политическую и религиозную жизнь Аббасидского халифата.

Необходимо отметить, что со сменой Омейядов Аббасидами на исторической сцене произошли большие изменения в общественно-политической и интеллектуально-духовной жизни халифата, политическая ориентация и центр халифата изменились и стали ориентированы на персов. Аббасидское общество было космополитическим обществом, основанным на общей религии мусульман, а не на их этнической принадлежности и происхождении. Были и представители других конфессий. В результате урбанизации поэзия покинула пустыни и бедуинские палатки и открыла свой путь в мечети, базары и ярмарки, устраиваемые во дворцах литературные вечеринки. Улийя бинт аль-Махди была одной из постоянных участниц этих вечеринок.

Ее жизнь и деятельность доказывают, что в аббасидском обществе женщины были не только объектами любви и муз, но и активными участницами вечеринок, посвященных поэзии и музыке, выступали как поэтессы, певицы и танцовщицы. Следует отметить, что свою музу (мужчину) Улийя называла женскими именами и скрыто выражала свою любовь к противоположному полу. Однако около двух столетий назад поэтессы узри-газель не смущаясь открыто посвящали газели (музаккар газели) своим возлюбленным. В аббасидской придворной среде, по-видимому, женщины были не столь свободны в этом вопросе. Возможно, одной из причин, по которой Улийя была убита "поцелуем" Мамуном, были ее стихи. В любом случае можно предположить, что ее поэзия позже оказала влияние на стихи шахрашуба.

Ключевые слова: Улийя бинт а-Махди, Аббаса Ухт ар-Рашид, династия Аббасидов, газель, муджун, зиндикизм

Dövrün ümumi mənzərəsi

Uliyyə bint Mehdi ərəb mədəniyyəti tarixində dərin iz buraxmış sənətkarlardandır. Onun yaşayıb-yaratdığı dövr Abbasi hakimiyyətinin birinci mərhələsinə təsadüf edir. Bu, Əməvi xanədanının xarabalıqları üzərində qurulmuş yeni, fərqli bir imperiya idi.

Əməvilər əleyhinə illər boyu formalaşmış güclü müqavimət hərəkatı, onların siyasətinə müxalif olan qüvvələrin qiyam və üsyanları sonda bu sülalənin tarix səhnəsindən silinməsi ilə nəticələndi. VIII əsrin ortalarına doğru Əməvilər əleyhinə olan iki böyük qüvvənin – şiə tərəfdarlarının və Əməvilərin ərəb təəssübkeşliyi siyasətindən narazı olan əcəm xalqlarının, xüsusilə farsların vahid bir cəbhədə çıxış etməsinin şahidi oluruq. Xalq kütlələrinin Əhl-i beytə məhəbbətindən faydalanan Abbasilər xalqın qisas yanğısını söndürmək üçün Əməvilərin beşikdəki körpələrini belə qılıncdan keçirdilər, dəfn edilmiş xəlifələrini belə qəbirdən çıxarıb həqarətlərə məruz qoydular. Abbasi üsyanı əslində bir ərəb sülaləsinin -- 661-ci ildə hakimiyyəti Bənu Haşimdən almış Bənu Uməyyənin hakimiyyətinin yenidən Bənu Haşimə qaytarılması olmayıb, İslam sivilizasiyasında, din, siyasət və intellektual inkişafda yeni bir istiqamətin başlanğıcından xəbər verirdi (1) Əbu Muslim əl-Xorasani üsyanını farslar və digər millətlərdən olan məvalilər, İraqda və İranda güclənmiş şiələr, farslarla tarix boyu sıx əlaqələrə malik bir çox Yəmən qəbilələri dəstəkləyirdi. Bu üsyanda şiələrin tapdanmış haqqı uğrunda çıxışları ilə meydana atılan Abbasilər qələbədən öz sülalərinin mənafeyi üçün bacarıqla istifadə edib şiələri hakimiyyətə yaxın buraxmadılar.

Abbasilərin tarix səhnəsində Əməviləri əvəz etməsi ilə xilafətin ictimai-siyasi və əqli-mənəvi həyatında böyük dəyişikliklər baş verdi. İlk növbədə xilafətin siyasi orientasiyası və mərkəzi dəyişdi. Şiələrə arxalanan Əbu l-Abbas əs-Səffah əvvəl Kufə yaxınlığında saldığı kiçik şəhər olan Haşimiyyəni, sonra isə Ənbarı özünə paytaxt seçdi. Xəlifə Əbu Cəfər əl-Mənsur isə qədim Sasani xanədanının Ktesifondakı (Mədain) qalıqları üzərində Bağdad şəhərini salır. Bununla da xilafətin siyasi həyatında farsların mühüm rolu bir növ təsbit olunur.

Xəlifə Mənsurun dövründə əyalət hakimlərinin, demək olar ki, yarısı fars və türk mənşəli idi (4, 1985, 263).

Abbasi xəlifəsi əl-Mənsur ilk dəfə məvaliləri, eləcə də öz qulam və kölələlərini yüksək hərbi və inzibati vəzifələrə çəkmiş, sonrakı Abbasi xəlifələri bu işdə onun ardınca getmişlər. Bu səbəbdən Abbasilər dövründə ərəblər öz hegemonluqlarını itirmiş olur (bax 1).

Fars dövlətçilik ənənəsinin dirçəldilməsi özünü həm də vəzirlik təsisatının yaranmasında göstərdi. Bu mənsəbi əvvəllər Bərməki sülaləsi tutur. Amma Bərməkilərin daim artan nüfuzundan əndişələnən Harun ər-Rəşid onları siyasət meydanından uzaqlaşdırdı. Cəfər əl-Bərməkinin yerinə vəzir təyin olunan Fəzl ibn Səhl (فضل بن سهل) də əslən fars məvalisi idi. O, hakimiyyətdaxili savaşda Məmunu dəstəkləyib onun öz qardaşı əl-Əmin üzərində qələbə çalmasına kömək etmişdi.

Fars təsiri özünü insanların həyat tərzində, məişətində də göstərir. Bir zamanlar səhranın ağır şəraitində "dəhr"lə çarpışan ərəb indi naz-nemət içərisində yaşayırdı; möhtəşəm saraylar, ziyafətlər və kef məclisləri, musiqi və müğənnilər, gözqamaşdırıcı zinət əşyaları, hətta ayaqlarına belə bilərzik taxan qadınlar, meyxanə və şərab məclisləri, imperiyanın müxtəlif əyalətlərindən gətirilən kənizlər, xədim-kölələr Abbası həyatının tipik mənzərəsi idi.

Abbasi xəlifələrinin hədsiz despotizmi, hakimiyyət uğrunda bir-birləri ilə ölüm-dirim savaşına girişməsi bəzən ananı oğula, qardaşı qardaşa düşmən edirdi. Qanı bir, canı bir yaxın adamlarını öldürmək, şikəst etmək xəlifə ailəsində adi bir hal idi. Xəlifə Hadi öz oğlunu Qur'an-i Kərimi düzgün oxumadığı üçün qətlə yetirdir. Onun anası -- vaxtilə əri xəlifə Mehdini öldürməsi söylənilən Xeyzuran öz oğlunu – xəlifə Hadini kənizlərin köməyi ilə gecə yuxudaykən yastıqla boğub öldürür ki, taxt-taca digər oğlu Harun ər-Rəşid otursun. Harun ər-Rəşidin oğlu Məmun qardaşı Əmini camaatın gözü qarşısında təhqiramiz bir şəkildə qətlə yetirdir. Məşhur ərəb şairi, Abbasilər nəslindən olan İbn əl-Mu'təzz cəmi bir gün xəlifəlik edir; onu hakimiyyətdən salan əmisi oğlanları şairi tikə-tikə doğratdırıb bir kisəyə yığdırır və ailəsinə göndərirlər. İlk baxışda həyat qaynayan saraylar qətl və sui-qəsd məkanı idi.

Abbasi xəlifələrinin möhtəşəm sarayları, dəbdəbəli həyatı müqabilində Əməvi xəlifələri öz həyat tərzi ilə qəbilə şeyxləri təsiri bağışlayırdılar. Mustafa Şəka bu dəyişiklikləri urbanlaşma ilə izah edir. O, Abbasilərin hakimiyyəti dövründə kənd həyatını şəhər həyatının əvəz etdiyini bildirir (9, 171). Həqiqətən də, Abbasilər dövründə bir sıra şəhərlər salınır, vaxtilə hərbi qarnizon kimi yaranmış şəhərlər elm və mədəniyyət mərkəzlərinə çevrilirdi. Abbasilərin paytaxtı Bağdadda həyat qaynayırdı. Ərəb tarixçisi Yəqubi İraqı dünyanın mərkəzi, Bağdadı isə İraqın göbəyi sayır, burada möhtəşəm sarayların, gur sulu kanalların olmasını qeyd edirdi. Fərat və Dəclə çayları ilə əhatə olunan şəhərdə həm dəniz,

həm də karvan ticarəti inkişaf edirdi. Ticarət mərkəzi olan Bağdada dünyanın hər yerindən mallar gətirilirdi (bax 5, 65).

Mədəni inkişaf baxımından, Abbasilərin hakimiyyətə gəlməsi yalnız sülalələrin bir-birini əvəz etməsi kimi deyil, daha mühüm dəyişikliklər mərhələsi kimi izah edilir. Abbasilər Əməvilərin ərəb təəssübkeşliyi siyasətindən uzaq olduqlarından bu dövrdə başqa xalqların nümayəndələrinin müsəlman imperiyasının ictimai-siyasi və mədəni həyatında rolu artır. Buna görə də M. Mahmudov Abbasilərin hakimiyyətə gəlməsi ilə ərəb mədəniyyətinin öz yerini ümummüsəlman mədəniyyətinə verdiyini xüsusi vurğulayır (2, 79). Keçən əsrin 60-cı illərindən şərqşünaslıqda bu dövrün mədəniyyət və ədəbiyyatını müsəlman deyil, islamikeyt (İslamicate) adlandırmaq daha məqbul sayıldı. Marşal Hodsonun gündəmə gətirdiyi bu anlamla İslamın yayıldığı ərazidə yaranmış multikultural mədəniyyət və ədəbiyyat dəyərləndirilir.

Abbasi cəmiyyəti etnik mənsubiyyəti arxa plana keçirib ümumi dinə və həyat tərzinə əsaslanan kosmopolitan bir cəmiyyət idi. Məvalilərin dövlətdə mühüm vəzifələr tutması adi hal idi. Xəlifə əl-Məmun dövründə mötəzililiyin rəsmi dini ideologiyaya çevrilməsi dini diskussiyalara geniş meydan açdı. Yunan fəlsəfi əsərlərinin tərcüməsi İslam fəlsəfəsinin inkişafına təkan verdi.

Abbasilər cəmiyyətinin özünəxas təsvirini verərkən, adətən, aşağıdakı məsələlər ön plana çəkilir:

Bunlardan biri **dini ayin və ehkamlara etinasızlıqdır**. Abbasilər cəmiyyətində dini etiqad məsələlərində bir sərbəstlik nəzərə çarpırdı. Əməvilər xilafətindəki Ziyad ibn Əbihi, Həccac ibn Yusif kimi valilərin inkvizisiya aparatı bu dövrdə bir qədər zəifləmişdi. Yunan fəlsəfi əsərlərinin ərəb dilinə tərcüməsi dini diskussiyalara meydan açır, bidətçilik hərəkatı güclənirdi. Məscidlərdə, bazarlarda intellektual həyat qaynayır, əhalinin etnik tərkibindəki rəngarənglik əqli həyata öz təsirini hiss etdirirdi. Xəlifə sarayları intellektual həyatın mərkəzi olmaqda məscid və bazarlardan geri qalmırdı. Başları saraydaxili intriqalara və kef məclislərinə qarışmış xəlifələr bəzən dində çox da möhkəm olmayan şair və ədibləri himayə edirdilər. Bu dövrdə xüsusilə ***zindiqlər*** fəallaşır. Dini ehkamlara etinasızlıq əxlaq normalarını da zəiflədir. İnsanların əxlaq normalarına əməl etməməsi (***mucun***) adi hala çevrilir. Şərab məclislərindəki saqilərə və digər yeniyetmə oğlanlara meyil və onlara şeirlər qoşulması (*müzəkkər qəzəl* və ya *qılmaniyyə*) geniş yayılır (bax 3, 320-330).

Bu dövrdə **şüubilik** hərəkatının genişlənməsi mədəni həyata güclü təsir göstərir. Hərəkatın əsası Əməvilər dövründə qoyulsa da, qol-budaq atması Abbasilər dövrünə təsadüf edir. Çünki Abbasilərin siyasəti nəticəsində məvalilər Əməvilər dövründəkindən fərqli olaraq böyük nüfuz sahibi idilər. Vəzirlik mənsəbini illər boyu əllərində saxlayıb böyük güc və sərvət toplamış Bərməkilərin belə kökü məvalilərə bağlanır.

Əhalinin bir qismi gününü əyləncələrlə keçirdiyi bir vaxtda başqa bir təbəqə dini mübahisələrə, qeyblə bağlı olub çözülmək bilməyən mübahisə və düşüncələrə, mistik yönümlü təcrübələrə meyil göstərirdi. Hədislərin toplanıb yazıya alınması görünməmiş vüsət alır. Sünnəyə əməl insanları qatı möminliyə sövq edirdi. Mövcud durum qarşısında çarəsizlik mistikaya rəvac verirdi. Təsadüfi deyil ki, məhz bu dövrdə ərəb **sufizm**i bir hərəkat kimi yaranıb inkişaf edir.

Bütün bu deyilənlər Abbasilər cəmiyyətinin rəngarəngliyindən xəbər verir. Bu rəngarənglik yalnız etnik və dini mənsubiyyətin çoxçalarlığı ilə deyil, həm də mədəniyyətlərarası dialoqun güclənməsi, fars, hind, yunan dilində yaranmış abidələrin ərəb oxucusuna çatması nəticəsində düşüncələrdə yaranmış plyuralizmlə əlaqəli idi.

Qeyd etdiyimiz kimi, Abbasilərin hakimiyyətə gəlməsi heç də sadəcə olaraq bir sülalənin digərini əvəz etməsi olmayıb, həm də ictimai-siyasi və mədəni həyatda köklü dəyişiklərin başlanğıcı idi. Fars təsiri yalnız siyasi həyatla kifayətlənməyib insanların mənəvi həyatında da özünü büruzə verirdi. Bunun ardınca fars təsirini zəiflətmək məqsədi güdən ərəb təəssübkeşliyi hərəkatı başlandı. Fütuhat nəticəsində işğal olunmuş ərazilərdə yaşayan xalqların artıq ərəb dilini mənimsəyib ədəbi yaradıcılığa qoşulması da mühüm amil idi.

Abbasilərin birinci dövrünün ədəbiyyatı **yeniləşmə dövrü ədəbiyyatı** adlanır. Bu dövr şairlərinə isə yenilikçi şairlər – *mucəddidun* (المجددون) deyilir. Yeniləşmə dövrü ədəbiyyatını özündən əvvəlki ədəbiyyatdan fərqləndirən bir sıra cəhətlər var. İlk növbədə, bu, cəmiyyətdə baş verən dəyişikliklərin ədəbiyyata təsirindən doğurdu. Birinci dövrdə ədəbi proseslərin şəhərlərdə cəmləndiyi qeyd edilməlidir. Ədəbiyyatın səhraları və bədəvi xeymələrini tərk edib məscid, bazar və yarmarkalara, ədəbi məclislərə yol açması prosesi daha da güclənir. Bəsrə, Kufə, Bağdad kimi şəhərlər poeziya mərkəzi olur.

Yeniləşmə meyillərinə baxmayaraq, ənənələrdən qurtulmaq o qədər də asan deyildi; ədəbiyyatda ənənəvi bədəvi obrazları, təqlidçilik hələ də özünü göstərirdi. Amma artıq səhralardan kənarda yaşayan, müxtəlif etnik qrupların əhatəsində olan, xüsusilə fars təsiri altında olan və ya əslən fars və başqa xalqlardan olan şairlər yavaş-yavaş ənənəvi obrazlardan və formalardan uzaqlaşırlar. Qəsidə forması ilə yanaşı kiçik həcmli şeirlər də geniş yayılır. Bir sıra janrların (xəmriyyə, tardiyyə, zuhdiyyə) qəsidənin tərkibindən çıxıb müstəqillik qazanması nəzərə çarpır. İndiyədək Əmr ibn Kulsum, əl-Ə'şə, əl-Əxtal və b. şairlərin yaradıcılığında özünü göstərən xəmriyyə janrı olduqca geniş yayılır. Bağdad ətrafındakı monastrlara gedib gününü şərab məclislərində keçirən şairlər bu janrı inkişaf etdirib qəsidədən ayırır. Əbu Nuvasın ayrıca xəmriyyə divanı yazdığını görürük.

Şərab məclislərinin vəsfi adi hal almaqla yanaşı bəzən İslama laqeyd münasibət də özünü göstərir. Zindiqlik bir həyat tərzi kimi ədəbiyyatda da əks olunur. Məsələn, Əbu Nuvas deyirdi: "Mən bir badə şərab içəndə bir Qur'an ayəsi oxuyuram ki, birinin savabı o birinin günahını yusun". Din xadimlərinin tənqidi poeziyaya yol açır (Əbu Nuvasın "Fitva fəqih" əsəri). Bəzən ədəbiyyatda zərdüştliklə bağlı motivlər əks olunur və dualizm ideyasını təbliğ edən şeirlər yazılır. Bu özünü, xüsusilə Əbu l-'Atəhiyə yaradıcılığında göstərir.

Həyatın bir tərəfi kef və eyş-işrətlə bağlı idisə, digər tərəfi zahidliyin, tərki-dünya fikirlərin əsarətində idi. Tərki-dünya həyatı tərənnüm edən zuhdiyyələr də yeni inkişaf mərhələsinə qədəm qoyur. Cahiliyyət dövrünün "dəhr" mövzulu şeirlərinə həyatın faniliyi barədə İslam elementləri daxil olur. Məzarlıq, qəbir, kəfən poeziyanın əsas təsvir və düşüncə obyekti olur.

Bu dövrdə ov səhnələrini əks etdirən *tardiyyələr* də geniş yayılır. Xəlifələri ov zamanı müşayiət edən şairlər bu janrın gözəl nümunələrini yaradır. *Tardiyyələr* də qəsidənin tərkibindən çıxıb müstəqil şeir kimi formalaşır.

Artıq Əməvilər dövründə müstəqil şəkildə inkişaf etmiş qəzəl janrı, xüsusilə onun hadari qəzəl forması yeni həyat qazanmışdı. Abbasilər dövründə qəzəldə açıq-saçıq

mövzular yer alır. Qadınlara olan məhəbbəti tərənnüm edən qəzəllə yanaşı oğlan uşaqlarına həsr olunan qılmanıyyə şeiri, müzəkkər qəzəl də yaranır. Bu axırıncı növün əsas təsvir obyekti meyxanə və monastrlardakı saqilər idi.

Bu dövrdə şairlər əruzun yüngül bəhrlərinə müraciət edirlər. Ənənəvi motivlərdən çəkinib ədəbiyyata real həyatı əks etdirən obrazlar gətirirlər. Şairlər tərk edilmiş oba qalıqlarının təsvirindən daha çox şərab və musiqi məclislərinin təsvirinə meyil edir. Meyy, Leyla, Suad kimi ənənəvi bədəvi gözəlləri arxa planda qalır; poeziyada saqi, kəniz, müğənni obrazları əsas yeri tutur.

Digər tərəfdən, yenilikçi şairlər arasında əslən fars olanlar arasında şüubilik motivləri güclənir. Şüubilik müsəlman dünyasında ərəb təəssübkeşliyinə qarşı yönəlmiş bir hərəkat idi. Şüubi şairlər ərəblərin keçmişini, bədəvi adətlərini əla salır, qədim Sasani, hətta bəzən Roma mədəniyyəti ilə öyünürdülər. Bu tənqid yalnız bədəvi ərəbin özünə qarşı deyil, bəzən hətta ənənəvi poeziyaya qarşı yönəlirdi. Yenilikçilər qədim şairlərin oba qaşısında göz yaşları axıtmasına istehza edirdilər.

Yenilikçi şairlərin yaradıcılığında Orta əsr ərəb filoloqları tərəfindən xüsusi vurğulanan bir cəhət də onların bədii təsvir və ifadə vasitələrinə - bədi (البديع) sənətinə hədsiz meyil etmələri idi. *Bədi* sənəti ərəblərə Cahiliyyət dövründən məlum olsa da, yeniləşmə dövründə bu daha da inkişaf edir. Bu səbəbdən ibn əl-Mu'təzz kimi filoloqlar bədi sənətini yeniləşmə poeziyasının əsas xüsusiyyəti sayırlar.

Haqqında bəhs edəcəyimiz Uliyyə bint Mehdi məhz belə bir dövrdə, belə bir mühitdə yaşamışdır.

Uliyyə bint əl-Mehdi

Uliyyə bint Mehdinin həyat və yaradıcılığı həmin dövrün siyasi çaxnaşmaları və ideoloji durumu ilə sıx bağlı idi. Məlumdur ki, Abbasi xilafətində Sasanilərin dövlət quruculuq prinsiplərindən faydalanmaqla yeni vəzir mənsəbi təsis olunur. Qur'anda Musa peyğəmbərin qardaşı Harunun "vəzir" adlanması bu vəzifəyə xüsusi status verir; vəzirlər xəlifənin ən yaxın adamı, onların sağ əli idi. İlk mərhələdə xilafətdə fars əsilli Bərməki sülaləsi vəzirlik mənsəbini tutmaqla böyük nüfuz qazanır. Əslən Xorasandan olan Bərməki sülaləsinin kökü Bəlxin buddist məbədgahına gedib çıxır. Onlar Bəlxdə böyük ərazilərə sahib idilər. İslamdan sonra Bərməki nəsli ərəblərin Bənu Əzd (بنو ازد)qəbiləsinin məvalisi olur. Əl-Xorasani üsyanında fəal iştirak bu ailəni hakimiyyətin yüksək eşalonuna daxil edir. Vəzirlik mənsəbini tutan Bərməkilərin sarayları öz cah-cəlalı ilə heç də xəlifə sarayından geri qalmırdı. Əbu Muslim əl-Xorasani üsyanının nəticələrindən bəhrələnərək Abbasilərin dövlət strukturunda mühüm vəzirlik mənsəbini ələ keçirən bu sülalə xilafət həyatında mühüm rol oynayırdı. Xalid Bərməki xəlifə Mənsurun sağ əli sayılırdı. Onun oğlu Cəfər Bərməki Xilafətin dövlət idarəçilik sisteminin formalaşmasında böyük rol oynadı. Bərməkilərin daim artan sərvət və şöhrəti Abbasiləri narahat edir. Bu arada Harun ər-Rəşidin vəziri Cəfər Bərməkinin xəlifənin bacısı Abbasə (ona bəzən Uliyyə də deyirdilər) ilə olan eşq macərası dillərdə dolaşır. Böyük sərvət və siyasi güc sahibi olan bərməkilərin ağalığına xəlifə Harun ər-Rəşid(هارون الرشيد) dövründə, 803-cü ildə son qoyulur. Ərəb mənbələri bunu Harun ər-Rəşidin bacısı Uliyyə (Abbasə) ilə Cəfər əl-Bərməki arasındakı eşq macərası ilə izah etsələr də, səbəblər daha dərin olub xilafətdə güc sahibliyini tənzimləmək, olduqca güclənmiş fars Bərməki ailəsinin nüfuzunu azaltmaq və onların iqtisadi resurslarını ələ keçirmək məqsədi

güdürdü. Digər tərəfdən, mənbələrin özündə Uliyyənin həyatı və şəxsiyyəti ilə bağlı qaranlıq məqamlar çoxdur.

İlk öncə qeyd edək ki, Abbasilər dövründə qadınların cəmiyyət həyatında rolu nəzərə çarpacaq dərəcədə artmışdı. Ədəbi mühitdə qadın yalnız sevgi obyekti, ilham pərisi deyil, həm də şair, müğənni, rəqqasə kimi şeir və musiqi məclislərinin fəal iştirakçısı idi. Abbasilər dövrünün qızıl əsrində Uliyyə bint əl-Mehdinin (v. 825) adı tez-tez çəkilirdi. Onun barəsində Əbu l-Fərəc əl-İsfəhaninin və Əbu Bəkr əs-Sulinin əsərlərində maraqlı məlumatlar hifz olunub. Bəzi mənbələrdə adı Abbasə bint əl-Mehdi kimi verildiyindən, iki fərqli tale ilə bağlı xəbərlərə rast gəlirik. Onun adını Uliyyə kimi verən Əbu l-Fərəc əl-İsfəhani və Əbu Bəkr əs-Sulidən fərqli olaraq, ibn Cərir ət-Təbəri onu Abbasə bint əl-Mehdi adlandırıb haqqında tam fərqli xəbərlər söyləyir. Ona görə də, ola bilsin ki, Uliyyə və Abbasə eyni qadın deyil. Görünür, xəlifə əl-Mehdinin iki qızı olub, amma Orta əsr müəlliflərinin əsərlərini oxunaqlı etmək üçün bəzən fantaziyaya meyl etmələrini də unuda bilmərik.

Uliyyə hicrətin 160-cı (m. 777) ilində anadan olub 210-cu (m. 826) ilində 50 yaşında vəfat etmişdir. Əbu Bəkr Suli göstərir ki, Abbasi xəlifələrinin qızları içərisində Uliyyə qədər istedadlısı olmayıb. O, həm poeziyada, həm də mahnı sənətində mahir idi. Eləcə də ağıllı və mömin biri idi. Qur'an qiraətini və mehrab önündə ibadəti çox sevərdi (7, 55).

Uliyyə barədə daha geniş məlumata Əbu l-Fərəc əl-İsfəhaninin "Kitab əl-əğani"sində rast gəlirik (6, cild 10, 129-148). Təxminən 20 səhifəlik bir oçerkdə əl-İsfəhani Uliyyədən, onun poeziyasından, bəstələdiyi mahnılardan bəhs edir. Uliyyə bint Mehdinin anası bir müğənni kəniz olub. Məknunə adlı bu qadını xəlifə əl-Mehdi Mədinədən yüz min dirhəmə almışdı. Həm gözəl, həm də istedadlı idi. Görünür, qızının şeir sənətinə və musiqiyə həvəsi də buradan gəlir. Çox gözəl olan Uliyyənin bir eybi var idi: alnı çox böyük idi. Bunu gizlətmək üçün alnını ləl-cəvahirlə bəzəyirdi (6, cild10, 129-148.

Ümumiyyətlə, mənbələrdə Abbasilər dövrünün saray həyatı, buradakı eyş-işrət məclisləri barədə oxuduqda insan özünə belə suallar verir: Əcəba, bu insanlar müsəlmanmı olub? Bu insanlar şərab məclislərini Qur'anla, İslamla necə uyğunlaşdırıblar? Xəlifələrdən biri Qur'anı düz oxumadığı üçün oğlunu qətlə yetirirsə, şərab məclisləri, xəmriyyət şeiri, eyş-işrət və mucun bu həyata necə sirayət edirdi? Məsələn, Əbu Bəkr əs-Suli Uliyyə barəsində qəribə bir xəbər söyləyir: Uliyyə Harun ər-Rəşidin dövründə həcc ziyarətinə yollanır. Amma o, yolunu dəyişib Tayzənabada gedir. Tayzənabad o dövrdə şərab istesalı ilə məşğul olan monastrları ilə tanınrdı. Şairlər, müğənnilər bu monastrlarda tez-tez məclislər qurur, eyş-işrətlə məşğul olur, bəzən günlərlə buranı tərk etmirdilər. Onun Tayzənabada getdiyini eşidən Harun ər-Rəşid çox qəzəblənir, Uliyyəni çağırıb danlayır. Bu zaman Uliyyə aşağıdakı şeiri söyləyir (7, 59):

Mən nə günah işlətdim? Rəbbimdən qorxmasaydım, hansı günahı işlədərdim?

Cəmi bircə gün və bir gecə şərab içmədən Tayzənabadda qalmağım günahmı?

Səhərisi günümü isə sərin bir şərabla açdım. Elə bir şərab ki, hətta yaşlı bir zahidi belə məftun edərək yeniyetmə oğlana döndərər.

Elə saf və təmiz bir içki ki, yaşlı qadının belə bütün dərdlərini azaldır.

Uliyyənin dini, imanı barədə mənbələrdə insanı heyrətə salan məlumatlar var. Məs. Əbu l-Fərəc əl-İsfəhani göstərir ki, o şərab içərdisə, namaz qılmazdı, ancaq qüsl edib təmizlən-dikdən sonra namaza başlardı. Onun ən böyük həvəsi şeirə, musiqiyə idi (6, cild 10, 129)

Orta əsrlərdə şairələrin şeir deməsinin bəzi çətinlikləri var idi, xüsusilə zadəgan xanımlar öz sevgilərini gizlətmək məcburiyyətində idilər. Deyilənə görə, Uliyyə bu səbəbdən Raşə adlı bir qulama olan eşqini gizlədir, ona həsr etdiyi qəzəllərdə sevgilisini "Zeynəb" adlandırırdı. Halbuki bir qadının başqa bir qadına qəzəllər yazmasının da müxtəlif yozumları meydana çıxırdı. Bir şeirində o bu halını belə ifadə edir:

Kölələrimdən birini sevdim, amma adını gizli saxladım. Eşqimi də qəlbimdə gizlədim.

Əgər mən şəhərin gözəl geyimli əyanlarından birini sevsəydim, yəqin ki, adını uca səslə qışqırardım.

Eyni mövzuda Uliyyə deyir:

Ey eşqini gizli tutduğum! Mən sənin adını gizli saxlamağı qorxudan etmirəm.

Sevdiyim adam belə mənim halımı anlamır, onun ucbatından nələr çəkdiyimi bilmir.

Onun Harun ər-Rəşidin Tall adlı bir köləsini də çox sevdiyi, ona şeirlər qoşduğu bildirilir. Harun ər-Rəşid onun bu şeirlərindən, Talla maraq göstərməsindən xoşlanmazdı. Xəlifə Uliyyəyə Tallın adını belə çəkməyi qadağan edir. "Tall" sözü hərfi mənada "şeh" deməkdir. Bir dəfə Qur'an oxuyarkən əl-Baqara surəsinin 265-ci ayəsinə çatarkən (فإن لم يصبها وابل فطل) Uliyyə "tall" sözündə dayanır, onun əvəzinə "xəlifənin qadağan etdiyi şey" söyləyir. Bunu eşidən Harun ər-Rəşid bacısının alnından öpür və "mən Tallı sənə bağışladım"-deyir (6, cild 10, 130).

Uliyyə qardaşı Harun ər-Rəşidin vəfatından sonra uzun müddət özünə gəlməmişdir. Xəlifə Əmin ona xüsusi qayğı ilə yanaşır, dərdini ovutmağa çalışırdı. Əbu Bəkr əs-Sulinin məlumatında onu Məmunun öldürdüyü aydınlaşır. Burada məşhur "Qladiator" filmindəki bir ölüm səhnəsinə bənzər hadisə təsvir olunur; Filmdə Commodus qoca atası Marcusu qucaqlayıb elə bərk ağuşuna sıxır ki, Markusun nəfəsi tıxanıb ölür. Deyilənə görə, Məmun Uliyyəni qucaqlayıb bağrına basmış, üzünü-gözünü öpmüş, nəfəs yollarını tıxamış və bu yolla qətlə yetirmişdir (7, 82). Bu xəbərin nə dərəcədə düzgün olduğunu bilmirik, amma Uliyyənin Harun ər-Rəşidin digər oğlu Əminlə münasibəti yaxşı olub. Əmini Məmun taxtdan salıb öldürmüşdür. Bəlkə də Əminlə yaxınlığı səbəbindən Məmun Uliyyəni də öldürüb.

Circi Zeydanın "Abbasə uxt ər-Rəşid" romanında xəlifə əl-Mehdinin Abbasə adlanan bir qızından söhbət gedir və onunla Harun ər-Rəşidin vəziri, fars əsilli Cəfər əl-Bərməki arasında eşq macərası olması bildirilir. Circi Zeydan bu epizodu çox güman ki, ət-Təbərinin "Tarix"indən götürmüşdür. Ət-Təbəri bildirir ki, Harun ər-Rəşid dostu və vəziri Cəfər əl-Bərməki və bacısı Abbasə ilə bir məclisdə olmağı çox sevirdi. Bu iki naməhrəmi bir araya gətirmək üçün Harun ər-Rəşid onlar arasında kəbin kəsdirir, amma bu formal bir kəbin olmalı idi. Cəfər əl-Bərməkini sevən Abbasə gecələr kəniz geyimində onun yanına gedir və Cəfərdən əkiz uşaq doğur. Bundan xəbər tutan Harun ər-Rəşid Cəfər əl-Bərməkinin qətlnə fərman verir və Bərməki sülaləsinə divan tutur.

Gördüyümüz kimi, bəzən Uliyyə ilə eyniləşdirilən Abbasənin fərqli bir taleyi olub. Nə əl-İsfəhani, nə də Əbu Bəkr əs-Suli Uliyyənin Cəfər əl-Bərməki ilə eşq macərasından bəhs etmir. Çox güman ki, Abbasə xəlifə Mehdinin başqa bir qızı olub.

Uliyyənin poeziyası oynaq və qısa parçalardan ibarətdir. Onun iri həcmli qəsidələrinə rast gəlmirik. Bütün şeirləri 2-3 beytlik, yüngül bəhrlərdə deyilmiş qitələrdir, çünki bu şeirlər nəğmə üstə söylənmişdir. Onun çoxsaylı (təximinən 50 və ya 80) nəğməsi olması bildirirlir. Nəğmələrini, adətən, saray müğənniləri oxuyurdu. Şeirlərində eşq, məhəbbət və şərab motivləri vəhdətdə verilir:

Onun ətri əlimdə qalıb, yanımda olanda da, olmayanda da mən bu qoxunu duyuram.
Sanki sərin bir şərabla içizdirilən, ənbər qatılmış reyhandır.
Ey dost, bu bir bitkinin kökündən çəkilib digərinin şirəsi ilə qarışdırılmış ətirli bir şərabdır.
O mənim qəlbimin sevdiyidir. Dərdimin təbibi yalnız odur.

Qeyd etdiyimiz kimi, Uliyyə bəzən sevdiyi gəncləri qız adları ilə adlandırırdı. Saray məclislərində oxunan nəğmələrdə, təbii ki,sevgi obyektinin qız olması daha münasib idi. Aşağıdakı şeirdə Zeynəb (qısaca Zeyb) kimi verilən sevgili əslində cavan oğlandır.

Qəlbim Zeybin müştaqıdır.Ya rəbbim, bunda bir eyibmi var?
Qəlbim əsir edib və ağlamaqdan başqa çarəm qalmayıb, ey qeybdən xəbərdar olan!
Sanki nəyi isə cibimdə gizlədirmiş kimi onun adını belə şeirimdə gizlin tutdum.

Başqa bir şeir-nəğmədə deyir:

Ey səhrada ocaq qalayan! Ocağın atəşini sənin üçün həyəcan keçirən qəlbimdən götür!
Sənin yandırdığın ocaq yandığı kimi də sönüb gedər. Qəlbimin odu isə heç vaxt sönməz.

Təxminən iki əsr öncə üzri qəzəl şairələri utanıb-çəkinmədən sevgililərinə qəzəllər (müzəkkər qəzəl) həsr edirdilər Leyla əl-Əxyəliyyə Taubəyə, Leyli adlandırdığımız digər Leyla Qeysə, Buseynə Cəmilə olan eşqini gizlətmirdi. Onlar bu yolun şəhidləri idilər. Abbasi saray mühitində isə, görünür, qadınlar bu məsələdə çox da sərbəst deyildilər. Bəlkə də Uliyyənin "sevilərək" qətl edilməsinin səbəblərindən biri də bu cür şeirləri idi. Hər halda onun yaradıcılığının sonralar şəhrəşub şeirlərinə təsir etdiyini düşünmək olar.

ƏDƏBİYYAT

1. Bosworth, C. E. "ʿAbbasid Caliphate," *Encyclopædia Iranica (online)* https://iranicaonline.org/articles/abbasid-caliphate (10.02. 23)
2. Qasımova, A. *Ərəb ədəbiyyatı, v-xıı əslər*. Bakı, 2019.
3. Mahmudov, M. *Klassik ərəb ədəbiyyatı*. Bakı, 2001.
4. Фильштинский, И. М. *История арабской литературы*, Москва, Наука, 1985.
5. Шидфар, Б. Я. *Абу Нувас.* Москва, Наука, 1978
6. ابو الفرج اصفهاني، *كتاب الاغاني*، تحقيق احسان عباس، I-XXV ، بيروت، دار صادر، الطبعة الثالثة، 2008
7. ابو بكر محمد ابن يحيى الصولي، *اشعار اولاد الخلفاء واخبارهم من كتاب الاوراق*. مصر، 1936
8. ابو عبد الله ياقوت بن عبد الله الروي الحموي، *معجم الادباء او ارشاد الاريب الى معرفة الاديب*. بيروت، دار الكتب العلمية 1991
9. مصطفى شكعة، *الشعر والشعراء في العصر العباسي الاول*، بيروت، دار العلم

UOT: 82:81-26;82:81`38

ORCİD 0000-0002-4985-8134

NƏSİMİ ŞEİRİNDƏ "TÜRK" (TATAR) ADI İLƏ NƏQŞ OLUNAN BƏDİİ LÖVHƏLƏR

Minaxanım NURİYEVA TƏKLƏLİ
Azərbaycan Dövlət Pedaqoji Universiteti
proftomris@gmail.com

XÜLASƏ

Şair Nəsimi dövrümüzə qədər Şərq ədəbiyyatında, eləcə də Azərbaycan poeziyasında poetik dilin ifadə çalarları sırasında yeri olan və əsrlər boyunca bədiiləşən, simvollaşan türk-tatar adlarını bir daha məharətlə işlədə bilmiş, bu sözlərə - adi etnos adlarına hüdudsuz lirik vüsət verə bilmişdir. Məqalədə dilin obrazlılıq imkanlarının sonsuzluğu qeyd olunmaqla bu dilin öz ümumişlək sözləri olaraq türk (tatar) kimi xalq, millət adlarının da Azərbaycan türkcəsinin bədiilik imkanlarını nümayiş etdirə bilməsi göstərilir. Nəsiminin uğurlu bildiyimiz təşbehləri, ümumən məcazları xalq dilinə xas olan dadı, şirinliyi, səmimiliyi ilə yadda qalır. Poetik obrazlılığın türk, tatar adlarında da nümunəsini verən şair İmadəddin Nəsimi türk xalqları, soyları, uruqları adını öz şeiriyyətində sıx-sıx işlətməklə həm bu şeiriyyətin bədii keyfiyyətini yüksəldən, həm də yaşadığı tarixi dövrün türk mühitini – müsəlman dünyasının türk regionunu işıqlandıran cəhətləri dəyərləndirmişdir.

Açar sözlər: Nəsimi, şeir, türk, tatar, poeziya, bədii, obrazlılıq

ХУДОЖЕСТВЕННЫЕ ПЕЙЗАЖИ, ИЗОБРАЖЕННЫЕ ПОД НАЗВАНИЕМ "ТЮРК" (ТАТАРИН) В ПОЭЗИИ НАСИМИ.

РЕЗЮМЕ

Поэт Насими вновь искусно использовал турецко-татарские имена, являющиеся одними из оттенков выразительности поэтического языка восточной литературы, а также азербайджанской поэзии, и стал на протяжении веков художественно-символическим, и смог дать безграничные лирические смысл этих слов - обычные названия этносов. В статье упоминаются безграничные возможности образности языка и показывается, что названия народов и наций, таких как тюркский (татарский), а также общеупотребительные слова этого языка могут демонстрировать художественные возможности азербайджанского тюркского языка. Удачные эпитеты и метафоры Насими в целом запоминаются своим народным вкусом, сладостью и искренностью. Имадеддин Насими, подав пример поэтической образности тюркских и татарских имен, часто употребляя в своей поэзии названия тюркских народов, родов и племен, оценил те стороны, которые одновременно повысили художественное качество этой поэзии и осветили Турецкая среда того исторического периода, в котором он жил, - тюркский регион мусульманского мира.

Ключевые слова: Насими, тюркский язык, поэзия, искусство, образность.

ARTİSTİC LANDSCAPES DEPİCTED UNDER THE NAME "TURK" (TATAR) İN NASİMİ'S POETRY.

ABSTRACT

The poet Nasimi again skillfully used Turkish-Tatar names, which are one of the shades of expressiveness of the poetic language of Eastern literature, as well as Azerbaijani poetry, and became artistic and symbolic over the centuries, and was able to give unlimited lyrical meanings to these words - the usual names of ethnic groups.The article mentions the limitless possibilities of the imagery of the language and shows that the names of peoples and nations, such as Turkic (Tatar), as well as commonly used words of this language, can demonstrate the artistic possibilities of the Azerbaijani Turkic language. Successful epithets and metaphors of Nasimi are generally remembered for their folk taste, sweetness and sincerity. The poet Imadedin Nasimi, setting an example of the poetic figurativeness of Turkic and Tatar names, often using the names of Turkic peoples, clans and tribes in his poetry, appreciated those aspects that at the same time increased the artistic quality of this poetry and illuminated the Turkish environment of the historical period in which he lived, - Turkic region of the Muslim world.

Key words: Nasimi, Turk, Tatar, poetry, art, figurativeness.

Milli dövrə qədər və milli dövrdən sonra türk ədəbi dillərinin problemləri də lazımı dərəcədə öyrənilməmişdir.Türk xalqlarının milli ədəbiyyatlarının formalaşması və inkişafı məsələləri də ümumtürk ədəbi prosesləri kontekstində özünün həllini tapa bilər. Bu arada türk-müsəlman ədəbi-mədəni faktorunun təsiriylə yaranmış divan-klassik ədəbiyyatının bir çox problemləri – poetik sistemi, strukturu, fəlsəfi əsasları müqayisəli-tipolojii prinsipə dayanaraq incələnməlidir. Biz XIII əsrin şairi Həsənoğlunu, cəmi bir-iki şeri qorunmuş olsa da, bu cəhətə görə qiymətləndiririk, bilirik ki, onun bir-iki şeri yox, dilimizin inkişaf xüsusiyyətlərini yayan, mühafizə edib gələcəyə aparan bir yaradıcılığı var imiş. Biz Nəsimini ona görə qiymətləndiririk ki, yazılı ədəbi dilin bütün imkan və gerçəkliklərini şeirlərində əbədiləşdirmişdir. (5,s.16)/ Eyni zamanda qiymətləndirməliyik ki, şair türk xalqları, soyları, uruqları adını öz şeiriyyətində sıx-sıx işlətməklə həm bu şeiriyyətin bədii keyfiyyətini yüksəldən, həm də yaşadığı tarixi dövrün türk mühitini – müsəlman dünyasının türk regionunu işıqlandıran cəhətləri dəyərləndirmişdir. Bilirik ki, klassik poeziyamızın obrazlı təsvir vasitələri sırasında olan Türk adı metaforik funksiya daşımasına görə müəyyən üstünlüyə malik olduğu görünməkdədir. Belə ki, bütöv xalqa, soya, nəsilə aid olan mənəvi və fiziki keyfiyyətlər bədii məqamlarda təsirli mövqe nümayiş etdirirlər. Bu özü soy, xalq adının səciyyəvi milli- mənəvi xüsusiyyətlərinin ümumiləşdirilməsilə bağlıdır. Nəsimiyə qədərki ədəbi-bədii dil örnəklərində də var olan bu ənənəvi detallar milli şeirimizin xarüqə örnəklərini yaradan və "dili başdan-başa metafora olan"(7, s.222) Nəsimidə daha çox rast gəlinməklə və müfəssəl təşbeh şəklində olmaqla özünün tarixi informasiya imkanları dairəsində yeni-yeni bədii çalarlar, fərqli emosiyalar qazana bilmişdir. Nəsiminin uğurlu bildiyimiz təşbehləri, ümumən məcazları (obrazlı təfəkkürün çox incə, eyhamlı olan bədii ifadə vasitələri məcazlarla üzə çıxır) xalq dilinə xas olan dadı, şirinliyi, səmimiliyi ilə yadda qalır. Bu mənada Nəsiminin bədii dili özünün lirizmi ilə, canlılığı ilə seçilir və bunlar bir-birini yox etmir. Əksinə, burada dilin canlılığı lirizmi təmin edir, lirizm isə canlılığın təbiilik yaratma imkanlarını daha da qabarıqlaşdırır.

Məlumdur ki, böyük filosof şair, hürufiliyin ardıcıl təbliğatçısı olan Seyid İmadəddin Nəsimi yaradıcılığı özündən əvvəlki ədəbi, fəlsəfi və ictimai ideyalardan qidalanmışsa, özündən sonrakı ədəbi-bədii, ictimai-fəlsəfi cərəyanlar üçün də uzun müddətli ideya mənbəyi olmuş və təkcə Azərbaycanda deyil, Ərəbistan sərhədlərindən tutmuş Qafqaz və Orta Asiya hüdudlarına qədər yayılmışdır .İndi budur, altı yüz ildir ki, böyük Azərbaycan şairi İmadəddin Nəsiminin (1369-1417) adı Yaxın Şərqdə mərdlik, fədakarlıq və iradə rəmzi kimi hörmətlə çəkilir. Nəsimi Azərbaycan dilində şerin ilk gözəl nümunələrini yaradan, öz mütərəqqi fikirlərini yüksək bədii dillə ifadə etməyi bacaran qüdrətli sənətkarlardan biri (2, s. 5) olmuşdur, deyə bilərik. Buna görə də insanı... həyati gözəlliklərin əsil mənbəyi kimi vəsf etmiş Nəsimi sənəti bütövlükdə insan gözəlliyinə, insan qüdrətinə heyranlıqla dolu bir himn kimi səslənir(2, s. 9) Nəsimidə gözəlin (cananın, məşuqun) saçı, çöhrəsi, kipriyi və həmçinin, xarakteri (məhz naz-qəmzələri, şıltaqlığı, qüruru, cazibəsi) çoxdan məlum olan Türk-tatar keyfiyyətləri ilə tərənnüm olunur. Bu mənada şairin məharətlə vəsf etdiyi Türk-tatar etnonimi və onlarla bağlı digər soy və uruğların adları özlərinə aid olan fiziki xüsusiyyətlər: gözün quruluşuna görə-çəkik, qıyıq gözlər: moğol və ya tatar gözlü deyə çəkilən rəsmlər göz önünə gətirildikcə bu, estetik zövqümüzün kamilləşməsinə gətirib çıxaracaqdır.

Varmıdır nisbət sana bir **Türk** dər Maçinü Çin

Çini-zülfünüz yenə əz **nafeyi-tatar** tar.

Klassik şeirimizdə heç kəsdə Nəsimidə olduğu qədər etnos adı yoxdur.(8, s.200) Bu üzdən türk xalq, tayfa adları Nəsimi şeirində güclü mənəvi keyfiyyətləri ifadə edirlər: Çox sadə gözəllikdirsə də, (Səba hərdəm gəlir mişkin saçın çinü tatarından...) fəqət bu gözəllik uğurla da bədii dona girir və fantastik dərəcələrdə artıq duyğunu gücləndirir; ilhamlara, təxəyyüllərə qanad verir:

Münəvvər əbhərin türkü evin yəğmaladı əqlin,

Moğol hər qanda varırsa düşər taracü yəğmayə.

Həm də Nəsiminin təşbehlər silsiləsinin (daxili ritmlə, zahirən də sığallı, süslü, nəvazişkar, şirinliyi, həzinliyi laylalara çatdırılan bir qüdrətlə yaratdığı təşbehlərin) dayağı və eləcə də obyekti dərk etdiyi və uğurla vəsfinə girişdiyi gözəllik türki gözəllikdir, türkanədir. Sələfi Qazi Bürhanəddindəki kimi (”Bu **türki** gözlərün yəni yetürdü yerə yasaqi). deyirdi:

Saçın buyu Məsihanın dəmidir,

Kim aydır **nafeyi-tatara** bənzər?

Poetik yüklə ağırlanmış Türk adı ilə öncədən aldadıcı sadəliyi ilə, əslində çox əsiredici, sehirkar gözəlliyi ilə, hətta bu əfsuni cəlb ilə də gerçəklikdən uzaqlaşdığını zənn etdiyində əslində yüksək, eyni zamanda adi bir gözəlliyə yaxınlaşırmışsan. Bundandır ki, Türki-tatar sözünün şairin qəzəllərində mövqeyi, bədii məqamları bəzən sənətdə labirint xarakterli “çətinliklər, zorluqlar” yaradır:

Tatarə saçın tozunu tüccar ilə göndər,

Ta kim, bilələr, **nafeyi-tatar** kimin var!

Yeridir desək ki, öz qiymətli, əla ətirləri ilə məşhur olan Tatar (Türküstan) bazarlarına şairin öydüyü bu gözəl öz saçının bircə telini (yəni bircə qırıq ətrini) göndərə, onda görələr ki, əslində nafeyi-tatar kimdədir. Və haradadır (nafə-xüsusi cinsdən olan ahunun göbəyindəki müşk vəzisi: nafeyi-tatar “türk ətri”) Nəsiminin “türki-tatar” təşbehləri çox hallarda “əmiri-dilbər”, “xubların şahı”nın saçı ilə bağlıdır. Bir qayda olaraq bu saçlar insanın zövqünü oxşayacaq bir keyfiyyətdədir: ətirlidir, müşki-tatar qoxuludur:

Boyu sərvi-çinarımdı, saçı **müşki-tatarımdı**,

Əcəb şirin nigarımdı, gülüstani baharımdı.

Yaxud,

Əbiri-mişkü ənbər tək rəyahindən çəmən doldu,

Səhərdə tən edən saçın nəsimi **mişki-tatarə**.

Nəsiminin bu misralarında isə “Ey sübhdəm yeli, nə ögərsən **tatarını,** Mişkin saçında gör ki, nə **tatarə düşmüşəm**” – birinci məqamda tatar – “ətir”, səhər nəsiminin, mehin bağlardan-bağçalardan küləyin gətirdiyi ətir, ikinci məqamda türk qızının saçının təbii qoxusudur.

Canımı ənbərin saçın seyd edəli kəməndinə,

Rumü, Xətayi dutmuşam, **Çinü Tatar** içindəyəm.

Bu saçların ətrindən bihuş olan şair (aşiq) bu rayihəni bağ-bağçalaraın ətirindən üstün tutur; türk-tatar ətirli xoş bir aləm mənzərəsi qarşısındayıq. Ən çox işlənən söz birləşməsi "*mişki-tatar*", "*nafeyi-tatar*", "*əsrük türk*" olur. Demək, Nəsiminin dilində məşuqənin saçı, gözü, qaşı, kipriyi ilə bağlı müqayisələr içində türk-tatar bənzətmələri üstünlük təşkil edir. Gözəllik yükü yalnız çöhrənin, ən çox da qaş-gözün üzərinə düşür.

Bu Türk gözəlliyidir...

Haşiyə: Bədii təfəkkür tərzimizə uyğun cizgiləri, xətləri, xarakteri ilə kamil, parlaq obrazı yaradılan Türk adına ilk dəfə miladdan öncə 1328-ci ildə Çin tarixində (Tukiu şəklində) rast gəlinmişdir. Bizanslılar türklərə Turkoi demişlər. Tarixçilər türk kəlməsinin güclü, qüvvətli mənası daşıdığını bir qayda olaraq qəbul edirlər. Türk adı ilk dönəmlərdə bəlirli bir topluluğun, qövmün ismindən ziyadə, siyasi mənsubiyyəti bildirən bir kəlmə olaraq görülməkdədir. VI yüzillikdə artıq dövlət adı olaraq ilk dəfə Göy Türk dövləti kimi tarixdə adı çıkilir. Lev Qumilyov da türk adının "güclü", "möhkəm", "səbatlı" demək olduğunu, çinlilərin də onları Tu-kyu adlandırdıqlarını göstərir. Eramızdan əvvəl II minillikdə Urmiyə gölü hövzəsində (Cənubi Azərbaycan) Türikki tayfalarının adı və siyasi hadisələrdə iştirakı yad edilir. Bu, Türk adının erkən forması olaraq qəbul edilir. Avropada eramızın 7-ci əsrində artıq Türk adının mənasının izahına cəhd edilmişsə də Rus salnamələrində bu etnonim 985-ci ildən "Dneprətrafı türklərin siyasi ittifaqı" və türk mənşəli müxtəlif adlı xalqlar üçün ümumiləşdirici ad olaraq görünməyə başlayır. Aydınlıq xatirinə qeyd edək ki, ilk vaxtlarr türk etnonimi təkcə oğuz deyil, digər türk tayfalarının adını ifadə edən ümumiləşdirici vəzifəyə xidmət edirdi. Blaqova "Rus dilində Türk-Tatar variantlı alınma" yazısında tatar adı haqqında yazır ki, qədim çağlarda tatar adı Çin tarixçilərinə təkcə moğolları bildirmirdi, o həm də türkləri, mancurları, tunqusları bildirən ümumi bir termin idi. Bunlarla yanaşı Çingiz xan yürüşlərində orduda rəhbər mövqe tutan ayrıca moğol tayfasının adını bildirməyə də xidmət edirdi (6, s. 213-214).

…Nəsimi sənəti ümumən götürüldükdə insani gözəlliyə, insana, əlbəttə kamil insana heyranlıqla dolu bir nəğməni andırır. Bu mənada "Türk" sözünün bənzətmə, obraz səviyyəsinə yüksəldilməsi(eynən, "Saçı kafir, gözü cadu, özü **türk**, Könlüm ki, şəhidünə mücahid" deyən Qazi Bürhanəddin kimi) yəni xalqa doğma və əziz olan öz adının zəngin və xoşagələn tərzdə işlədilməsi şeir dilində də təsəvvür olunmayacaq dərəcədə səmimi və qiymətli obrazlar – deyim tərzi yaratmışdır. Gözəlliyin təsvirinin uğurlu çıxması şairin gözəllik duyumunun gücü və onun dolğun təəssüratlı olmasındaymış. Bundan sonra məqsədə tez nail olunur, bu canlı təəssüratları canlı çevik dillə çatdırmaq, yəni doğma dil xəzinəsi sirlərinə malik olmaqla. Nəticədə uğurlu, qalib bir dil, bir deyiliş tərzi meydana çıxır. Nəsimidə Türk - gözəllik etalonudur:

Bu nə adətdir, ey **türki-pərizad,**

Qəmindən olmadım bir ləhzə azad.

Siyəh dil gözlərin qan tökmək içün

Çəkibdir tiğini manəndi-cəllad.

Bu bidadı mana eşqin qılıbdır,

Cahanda qılmadı Nəmrudü Şəddad...

Burada "türki-pərizad" sözünün "yavan, yalxı", əlavə sözsüz, hətta qoşmasız və s. işlədilməsi türki keyfiyyətlərininn ümumbəşəri gücə, qiymətə çatdığını göstərir. Bütün qəzəl boyu sonacan müraciət məhz bu "türki-pərizad"a ünvanlanmışdır.

Yusifim, Misrim, Əzizim, dövlətim, başım tacı,

Şəkkərü-qəndi nəbatım, **türki-tatarım** mənim.

Bu əzizləmə də belə: möhtəşəm dil vahidləri ilə sıralanan gözəlliklər hissi təsir və həyəcan içində "türkü- tatarım"la sonuclanır. Burada, bir sözlə sadə bir izahatla kifayətlənmək mümkünsə, demək lazımdır ki, şairin sevgilisi məhz Türk-tatar gözəllidir. Amma bu heç də bənzətmənin bircə yeganə cəhəti deyilmiş. Burada həmin şeirdəki yuxarıda deyilənlərdən (Yusifim, Əzizim...) başqa – həbibim, dilbərim, sevgili yarım, nigarım, səbrim, aramım, qərarım, qiymətim, fikrim, əndişəm, xəyalım, varlığım, varım... kimi daxili və xarici əlamətləri birləşdirən sözlərlə bir sırada "türki-tatarım" sözü ilə də insana əziz olan bir surətin mükəmməl portreti nəqş olunmuşdur. Sadə tərzdə deyilən "türki-tatarım" və sözün bu qaydada işlədilməsi özü bu etnonimin səciyyəvi milli-mənəvi xüsusiyyətlərinin ümumiləşdirilməsi ilə əlaqəli görünür. Demək, Nəsimidə ümumxalq danışıq dilindən nəinki sözlər, hətta deyim tərzi də götürülür (7, s. 217)Klassik bədii nümunələrimiz belə təcrübələrlə zəngindir. Bir çox başqa klassiklərimiz kimi Nəsimi yaradıcılığının, şairin bədii irsinin ölməzliyi – hər dövrdə kəsb etdiyi yeni ictimai-fəlsəfi məzmun və yüksək sənətkarlığı ilə bağlıdır (2, s.9). "Lirik-estetik semantika"ya (11, 200) dolmuş türk etnonimlərinin işlənmə alanı genişdir, bu parçalar dediklərimizi sübut edə bilir: "türki-tatar", "moğolçin"(Könül yəğma qılanımdır, məni dərdə salanımdır. Genə dərman qılanımır, əvan **türki-tatarımdır**; Nə **yağmaçi moğolçindir** bu, yarəb, Gözün sevdaləri yəğmayə düşmüş; yaxud sələfi Qazi Bürhanəddində: **Moğolçin** olduğu gözün könülə fitnələr saldı/Bu rövşəndür ki, gözlərün büti-**qıfcağü saqçindür**) konkret əlamətlə bağlıdır: könül çalanımdır, məni dərdə salanımdır, yenə dərman edənimdir. Yəni bir sözlə, türki-tatarımdır. Belə "incə bədii vasitələr Nəsimi dilinin üslubi keyfiyyətidir (9,20) və bir sıra böyük, örtülü fikirlərin, məqsədlərin təsvirində uğurlu müqayisələr. estetik vasitələr sırasında sayıla bilər (6, 186).

Nəsiminin siyasi nüfuzunun yayıldığı Azərbaycandan Anadoluya, Misirdən Hələbədək olan yerlərin "xəritəsində" Bayat, Begdili, İnallı, Gündüzlü, Harbendeli (Xırmandalı), Bozok, Üçok Afşar, Təkəli, Elbeyli, Akar, Heyran, Çandarlı, Sincan elləri doğma idi; burada türk mühiti sabit idi. Bu zamanlarda Nəsimini əhatə edən dövr Türk fatehliyinin yeri- göyü tutan şöhrəti simvollaşmağa qədər qalxa bilmişdi. Savaşa, vuruşa daim hazır olan dəli-dolu ənənəvi türk müqayisəsini uğurla şeirlərinə gətirimiş "əsrük türk" obrazı Qazi Bürhanəddində: Gözün fitnə ilə qopardı quyamət, /Çü **türk əsrük** oldı, nə qılsa rəvadur və ya; Nəsimidə: Qəmzədən misri qılınc vermişsən **əsrük türkə** kim; Çeşmi məstindən həzəran fitnə saldın könlümə/ **Türki yəğmaçi** kimi, billah yüküş qan eylədin (Xətayi); Şol ali çox ala gözün evim ağmaladı/ **Yəğmaçı türkün** adəti hər qandasa yəqma imiş; Gögərçin tək şikar etdi bəni şol nərgizi-fəttan/Yavuz gözdən Iraq olsun ki, xoş **türkanə laçindir**.(Nəsimi) Belə "səciyyəvi müqayisələrdə …dövrün bədii zövqü, estetik xarakteri təzahür edir (7,s.181). Klassik Azərbaycan şeirinin yetkin müqayisələrində sözlər arasindaki əlaqə, bənzəyən və bənzədilən arasinda keyfiyyət, əlamət – yağmaçılıq, talançılıq, bunlarla bir sırada cəsurluq, igidlik eynidir: gözün türk kimi könül qapmağı, nərgiz gözlərin türk kimi qəlbi şikar etməsi, dəli türkə qəmzələrdən misri qılınc verilməsi, ədalətsiz qan tökmək və s. hərbi təsəvvürlərə başlıcası türk zövqünə əsaslanır.

Beləcə belə bir nəticəyə gəlmək olur ki. türk, tatar adı kimi onomostik vahidlərin bədii dilə xidməti dərin tarixi ənənəyə sahibdir. Çünki xüsusi adların bədii dildə yüksək bədii-estetik vasitəyə çevrilməsi özü tarixi-ictimai inkişafın məhsulu olub öz əsas vəzifələri icrasıyla yanaşı bədiilik səviyyəsinə yüksəldilməklə yeni məzmun ilə zənginləşən vahidlərə çevrilmiş, daha ekspressiv vasitə olaraq yaddaşlara keçmişdir. Nəsimi bu vaxtacan Şərq ədəbiyyatında, eləcə də Azərbaycan poeziyasında poetik dilin ifadə çalarları sırasında yeri olan əsrlər boyunca bədiiləşən, simvollaşan türk-tatar adlarını bir daha məharətlə işlədə bilmiş, bədii təfəkkür işığında bu sözlərə - adi etnos adlarına hüdudsuz lirik vüsət verə bilmişdir.

ƏDƏBİYYAT:

1. Əzizxan Tanrıverdi. "Dədə Qorqud"un möcüzələr dünyası, Bakı, Elm və təhsil, 2015
2. Həmid Araslı, Teymur Kərimli. "Ön söz" İmadəddin Nəsimi. Seçilmiş Əsərləri, 1-ci cild kitabında səh.5- 11
3. İmadəddin Nəsimi. Seçilmiş əsərləri 2 cilddə, Bakı, Lider, 2004
4. İmadəddin Nəsimi. İraq divanı, Bakı, CBS-PP, 2018
5. Qəzənfər Kazımov. Nəsrin şeiriyyəti, Seçilmiş əsərləri 10 cilddə. 4 cild
6. Minaxanım Nuriyeva. Rus dilində türk sözləri, Bakı, Nurlar nəşriyyatı, 2006
7. Nizami Cəfərov. Türk dünyası: Xaos və kosmos, Bakı, BDU-nun nəşri, 1998
8. Nizami Xudiyev. Azərbaycan ədəbi dili tarixi, Bakı, Elm və təhsil, 2018
9. Orucəli Həsənov. Tarixilik və müasirlik, Bakı, Yazıçı, 1985
10. Tofiq Hacıyev, Kamil Vəliyev. Azərbaycan dilinin tarixi, Bakı, Maarif nəşriyyatı, 1983
11. Tofiq Hacıyev. Azərbaycan ədəbi dilinin tarixi, Bakı, Elm nəşriyyatı, 2012

UOT:002.2

ORCID 0000-0003-1970-182X

QARABAĞ SAVAŞI VƏ BÖYÜK QƏLƏBƏNİN TARİXİ AZƏRBAYCAN MƏTBUATINDA

(“Xalq qəzeti”nin materialları əsasında)

NAMİQ ƏHMƏDOV
Bakı Dövlət Universiteti
tuqay59@mail.ru

XÜLASƏ

Azərbaycan Ordusunun Ermənistanın hərbi təxribatından sonra başlatdığı və 44 gün davam edən əks-hücum əməliyyatı tariximizin şanlı səhifələrindən oldu. Azərbaycan mediasının Vətən müharibəsi günlərində fəaliyyəti ordumuzun bu hünərini informasiya cəbhəsində layiqincə tamamladı.

Təqdim olunan məqalə tarixi ənənələrə sahib olan “Xalq qəzeti”nin Vətən müharibəsi dövründəki fəaliyyətini araşdırmaya cəlb edilir. Məqalə giriş, 4 paraqraf, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

Gündəlik nəşr olunan “Xalq qəzeti” əks hücumların başlandığı gündən hər sayında baş verənlərə əhatəli yer ayrılmışdır. 44 gün ərzində cəbhədən məlumatlar, işğalçıya qarşı mübarizə, hakimiyyət və xalq birliyi ən aktiv mövzu olmuşdur.

Qəzetin dərc etdiyi materiallarda Pakistan, Ukrayna kimi ölkələrin Azərbaycan hakimiyyətinin yanında yer alması və Azərbaycana dəstəkləri, Rusiya, İran, Gürcüstan və eyni zamanda, bəzi Avropa ölkələrinin də münaqişədən narahatlığı əks olunur. Eyni zamanda baş verənlərə Türkiyənin münasibəti təkcə strateji tərəfdaşlığın yox, həm də qardaş olan dövlətin və xalqın siyasi iradəsinin ifadəsi kimi dəyərləndirilir.

Açar sözlər: Azərbaycan, Ermənistan, 44 günlük müharibə, mətbuat, “Xalq qəzeti”, Türkiyə.

ИСТОРИЯ КАРАБАХСКОЙ ВОЙНЫ И ВЕЛИКОЙ ПОБЕДЫ В АЗЕРБАЙДЖАНСКОЙ ПРЕССЕ

(по материалам газеты "Xalg gazeti")

РЕЗЮМЕ

Контр- наступательная операция, начатая азербайджанской армией после военной провокации Армении и продолжавшаяся 44 дня, стала одной из славных страниц нашей истории. На информационном фронте в дни Отечественной войны азербайджанские СМИ должным образом освещали отважное наступление нашей армии.

Представленная статья посвящена исследованию деятельности газеты «Xalg gazeti» в период Отечественной войны. Статья состоит из введения, 4 параграфов, заключения, списка использованной литературы.

В каждом номере ежедневной газеты «Xalg gazeti», обширное место отводилось освещению событий с первого дня наступлений. В течение 44 дней самыми активными темами были информация с фронта, борьба с оккупантами, единство правительства и народа.

В публикациях отмечалась, что такие страны, как Пакистан и Украина поддерживали правительство Азербайджана, и обеспокоенность конфликтом России, Ирана, Грузии и некоторых европейских стран. При этом отношение Турции к событиям оценивается не только как стратегическое партнерство, но и как выражение политической воли братского государства и народа.

Ключевые слова: Азербайджан, Армения, 44-дневная война, пресса, «Xalg gazeti».

HISTORY OF THE KARABAKH WAR AND THE GREAT VICTORY IN THE AZERBAIJANI MEDIA

(Based on news stories published in the "Khalq qazeti" newspaper)

ABSTRACT

The counter-offensive operation, which was launched by the Azerbaijani Army following the Armenian military provocation and lasted 44 days, has become yet another glorious page of our history. The whole world has witnessed the unshakable will of the President of Azerbaijan, Victorious Supreme Commander-in-Chief Ilham Aliyev, the unity of our people, the power and valour our Army. Of course, these realities were also on the agenda of the international and local media. Activity of the Azerbaijani media in the course of the Patriotic War has adequately consummated the valour of our army on the information front. Speaking about the undeniable role of the press in the great victory, experts have adequately praised the activities of the Azerbaijani media, repeatedly noting that they demonstrated high professionalism and patriotism during the Patriotic war.

The presented article examines the activities of the "Khalq qazeti" during the Patriotic war, the newspaper, which is known with its historical traditions among the local media organs. The article includes an introduction, 4 paragraphs, conclusion, and list of references.

Each issue of the daily "Khalq qazeti" newspaper published since the beginning of the counter-attacks has had a fairly comprehensive coverage of what happened and the anatomy of the occupation attempt. The newspaper published some 80 articles covering the first day of the war. Published with the slogans such as "We will gain the victory", "Azerbaijani Army will put an end to the occupation", this issue of the newspaper is entirely dedicated to the war. Information from the front, fight against the aggressor, the unity between the people and the government were the most active topic during those 44 days.

In a number of materials published by the newspaper, the immediate support of brotherly Turkey and President Recep Tayyip Erdogan's statement "We stand by Azerbaijan for its just cause" are assessed as a measure of relations between our countries. The support of countries such as Pakistan and Ukraine for the Azerbaijani government and their support for Azerbaijan in the war against the aggressor, as well as the concerns of some regional countries such as Russia, Iran, Georgia and some European countries are also reflected in the news stories. At the same time, Turkey's attitude to the events is assessed not only as a strategic partnership, but also as an expression of the political will of the brotherly state and people.

Key words: Azerbaijan, Armenia, 44-day war, press, "Khalq qazeti", Turkey.

Giriş

Ermənistanın hərbi təxribatından sonra Azərbaycan Ordusunun başlatdığı əks-hücum əməliyyatı 44 gün uğurla davam etdi. Bu müddət ərzində bütün dünya Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sarsılmaz iradəsinin, xalqımızın birliyinin, Ordumuzun qüdrətinin şahidi oldu. Azərbaycan Ordusu Qarabağ savaşı zamanı düşməni darmadağın etməklə yanaşı, bir çox nəticə və parametrlər üzrə dünya hərb tarixində yeni rekordlara da imza atdı. Eyni zamanda "Azərbaycan mediasının Vətən müharibəsi günlərində fəaliyyəti ordumuzun bu hünərini informasiya cəbhəsində layiqincə tamamladı" [2]. **"Bu da onu göstərir ki, informasiya heç də silahdan az təsir etmir insanlara. Faşist Almaniyasının təbliğat naziri Gebbels deyirdi ki, "mənə kütləvi informasiya vasitələri verin, istənilən xalqı bir sürü donuza çevirim"** [34].

Böyük qələbədə mətbuatın danılmaz rolunu dəyərləndirən professor Cahangir Məmmədli qeyd edir ki, "Mən həmin dövrdə qəzetlərin bu məsələyə necə yanaşmasını xüsusi diqqətlə nəzərdən keçriridim. Mənim üçün doğma olan bir sıra qəzetlər var ki, bunlara rəsmi "Xalq qəzeti", müstəqil "525-ci qəzet", "Şərq", və s. nəşrlər daxildir. Bu qəzetlərin səhifələri 44 günlük savaş günlərində başdan-ayağa müharibə mövzusu ilə bağlı idi. Bu vətənpərvərliyə, peşəkarlığa və döyüşkənliyə görə mən jurnalistlərimizin fəaliyyətindən çox razıyam. Azərbaycan mediası Vətən müharibəsi zamanı yüksək peşəkarlıq və vətənpərvərlik sərgilədi". Təbi ki, professorun "və s." deyərək qeyd etdiyi

sıraya "Azərbaycan", "Respublika", "Yeni Müsavat" kimi onlarca nəşrlərin və gündəlik informasiya portallarının adalrını da əlavə etmək olar. Deyilənlərə onların hər birinin hüquqi və mənəvi haqqı vardır, bu baxımdan da təqdim olunan materialların hər biri ciddi tədqiqatın mövzusu ola bilər. Amma bu material bolluğunda həm də informasiya zənginliyi baxımından daha çox diqqəti cəlb etdiyi üçün "Xalq qəzeti"nin üzərində dayanmağı məqsədəuğun hesab etdik.

Müharibə öncəsi siyasi vəziyyətin mətbuatda təqdimatı

1988-ci il fevral hadisələrindən sonra Dağlıq Qarabağ Muxtar Vilayətinin separatçı-terrorçu qruplaşmaları və Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağın ələ keçirilməsi uğrunda hərbi əməliyyatlara başladılar. SSRİ Silahlı Qüvvələrinin Ermənistan və Dağlıq Qarabağ Muxtar Vilayətində yerləşən hissələri də onlara qoşuldular. Birinci Qarabağ müharibəsi və ya ermənilər tərəfindən "Artsax Azadlıq müharibəsi" kimi təqdim olunan, 1980-ci illərin sonlarından başlayan işğalçı müharibə 1994-cü ilin mayına kimi davam etdi. Ermənistan ilə birləşmək istəyən separatçı hərəkatının tələbi 1988-ci ildə nisbətən dinc şəkildə başlasa da, SSRİ-nin dağılmasının yaxınlaşması səbəbindən, azərbaycanlılar ilə ermənilər arasında getdikcə böyüyən şiddətli münaqişəyə çevrildi və tarixi Azərbaycan torpaqları olan Dağlıq Qarabağın və ətrafındakı 7 rayonun iğşalı ilə nəticələndi. Tərəflər arasında genişmiqyaslı döyüşlər 1992-ci ilin qışında başlamış, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) kimi bir neçə təşkilat, tərəflər arasındakı münaqişənin həllinə çalışsalar da, cəhdlər uğursuz olmuşdur. Münaqişə nəticəsində Azərbaycandan 230 min erməni, Ermənistan və Qarabağdan isə 800 min azərbaycanlı məcburi köçkün olmuşdur. 1994-cü il mayın 12-si "Bişkek protokolu"nun imzalanması ilə atəşkəs rejimi elan olunmuş və münaqişə dondurulmuşdur.

Aradan keçən müddət ərzində Ermənistanın keçmiş prezidenti Levon Ter-Petrosyan Azərbaycana müəyyən əraziləri qaytarmaqla Qarabağ münaqişəsini 1997-ci ildə həll edilə bilərdi. Nəticədə sülh müqaviləsi bağlana və Dağlıq Qarabağın statusu müəyyən olunardı. Ter-Petrosyan qeyd edir ki, Qarabağ rəhbərliyinin yanaşmasında maksimalistir və "onlar daha da çox şeyin əldə etməsini düşünürdülər". Ona görə də muxtariyyət təklifləri ermənilər tərəfindən rədd edilmişdir. Hətta 1998-ci il martın 30-da prezident seçilən Robert Koçaryan münaqişənin həlli üçün müqavilə bağlama təkliflərini rədd etmiş, sonrakı zaman kəsiyində bu tendensiya İkinci Qarabağ müharibəsinə qədər davam etdirilmişdir. Nikol Paşinyanın hökumətə rəhbərliyi dövründə isə bu iddialar pik həddinə çatmışdır. Ermənistanın müdafiə naziri David Tonoyan 2019-cu ilin martında ABŞ-a səfəri zamanı erməni diasporası ilə görüşündə Ermənistanın "yeni ərazilər uğrunda yeni müharibə"dən danışmaqla yeni işğalın xəritəsini göstərmişdir. Ardınca Ermənistanın baş naziri Nikol Paşinyan bir az da irəli gedərək separatçı rejimi danışıqlar masasına oturtmaq niyyətilə sülh danışıqlarının formatını dəyişdirməyə cəhd etmişdi. Hətta həmin ilin avqust ayında işğal olunmuş Dağlıq Qarabağ ərazisinə səfəri zamanı "Qarabağ – Ermənistandır, nöqtə" tipli populist bəyənatı ilə həm beynəlxalq təşkilatların, əsasən də, ATƏT-in Minsk qrupunun təşəbbüslərinə ciddi zərbə endirmişdir. Erməni tərəfin işğal etdiyi Azərbaycan ərazilərində qanunsuz məskunlaşma aparması, livan ermənilərinin bu ərazilərə köçürülməsi və Dağlıq Qarabağla Ermənistan arasında yol infrastrukturunun yenilənməsi sülh prosesini dayandırdı. Üstəlik BMT Təhlükəsizlik Şurasının erməni qoşunlarının Dağlıq Qarabağdan qeydsiz-şərtsiz çıxarılması ilə bağlı verdiyi dörd qətnamənin icrasında moderatorlardan heç biri, eləcə də ATƏT-in

Minsk qrupuna üzv ölkələr mövqe sərgiləmək istəmədilər.Yaranmış vəziyyətdə rəsmi Bakıya danışıqları davam etdirməkdən ötrü siyasi müstəvi qalmadı, uzun sürən danışıqların heç bir nəticə vermədiyi də aydın oldu. *Ermənistanın baş naziri Nikol Paşinyanın BMT Baş Assambleyasının 75-ci sessiyasında Azərbaycan və Türkiyənin ünvanına bəyanatlar səsləndirdi* [37]. *Elə orada da bu bəyanatlar dünya ictimaiyyətini aldatmaq cəhdi kimi dəyərləndirildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında çıxışında işğalçı ölkə Ermənistan və onun hazırkı rəhbərliyinin iflasa uğrayan siyasətini aydın şəkildə və konkret faktlarla dünya ictimaiyyətinin diqqətinə çatdırdı* [19]. **Azərbaycan Respublikasının BMT-dəki Daimi Nümayəndəsinin müavini Tofiq Musayev bəyanatla çıxış edərək** vurğuladı ki, "Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan ərazilərində qurulmuş oyuncaq rejimin qanunsuz olması beynəlxalq səviyyədə dəfələrlə bəyan edilib; Ermənistanın rəhbərliyi və nəzarəti altında olan bu rejim nəticə etibarilə azərbaycanlılara qarşı irqi, etnik və dini motivlər əsasında törədilmiş təcavüz, etnik təmizləmə və digər cinayətlərin nəticəsindən başqa bir şey deyil. BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə yekdilliklə qəbul edilmiş 822, 853, 874 və 884 nömrəli qətnamələrində nəinki uydurma "Dağlıq Qarabağ xalqı" və onun "təyini-müqəddərat hüququ"nun adı çəkilməyib, həm də Azərbaycana qarşı güc tətbiq edilməsi və onun ərazilərinin işğal olunması pislənilib, Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə, onun beynəlxalq sərhədlərin toxunulmazlığına hörmət etməyin vacibliyi, Dağlıq Qarabağın Azərbaycanın tərkib hissəsi olması təsdiqlənib, işğalçı qüvvələrin Azərbaycanın işğal altında olan bütün ərazilərindən dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb edilib [11].

27 sentyabr 2020-ci il səhər saatlarında Ermənistan Silahlı Qüvvələrinin genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan ordusunun mövqelərini və yaşayış məntəqələrini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutması nəticəsində, Ermənistan ordusunun döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan ordusunun komandanlığı tərəfindən qoşunların bütün cəbhə boyu sürətli əks-hücum əməliyyatı başlaması barədə qərar verilib. Ermənistanın son təxribatları ilə bağlı İsrailin nüfuzlu "i24 NEWS" kanalına müsahibə verən Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bu barədə bildirib ki, "sentyabrın 27-dən başlayaraq ermənilərin azərbaycanlılara, xüsusən də təmas xəttinə yaxın ərazilərdə sıx yaşayan mülki vətəndaşlara qarşı hücumlar etməklə növbəti təxribata başladığını deyib. Bildirib ki, Azərbaycan öz vətəndaşlarının təhlükəsizliyini təmin etmək məqsədilə əks-hücum əməliyyatı həyata keçirmək məcburiyyətində qaldı" [24]. Qarşıdurmalar nəticəsində Ermənistanda hərbi vəziyyət və ümumi səfərbərlik, Azərbaycanda isə hərbi vəziyyət və komendant saatı, 28 sentyabrda qismən səfərbərlik elan edilmişdir. Qarşıdurmalar qısa müddətdə sürətlə alovlanmış və İkinci Qarabağ müharibəsinə çevrilmişdir [20].

Öncədən söyləmək yerinə düşər ki, gündəlik nəşr olunan "Xalq qəzeti" əks hücumların başlandığı gündən nəşr edilən hər sayında baş verənlərə və işğal cəhdinin anatomiyasına kifayət qədər əhatəli yer ayrılmışdır. Qəzetdə müharibənin ilk gününü (27 sentyabr bazar günü olduğundan qəzet 29 sentyabr 2020-ci ildə nəşr edilib) əks etdirən 80 məqalə yayımlanıb. "Biz qələbə çalacağıq", "Azərbaycan Ordusu işğala son qoyacaq" kimi sloqanlarla nəşr edilən qəzetin bu sayında təxminən 30 (otuz) min işarəlik bu yazıların ümumi çəkisi qəzetin 95 faizə qədərini əhatə edir. Bu 16 səhifəlik qəzetin 15 səhifəsi

deməkdir. Əslində bu o deməkdir ki, qəzetin bu sayı bütünlüklə müharibəyə həsr edilmişdir. 44 gün ərzində də cəbhədən məlumatlar, işğalçıya qarşı mübarizə, hakimiyyət və xalq birliyi ən aktiv mövzu olmuşdur.

Qəzetin dərc etdiyi materiallar sırasında qardaş Türkiyənin hadisəyə gecikmədən verdiyi dəstək və Prezident Rəcəb Tayyib Ərdoğanın "Haqq işində Azərbaycanın yanındayıq" kimi açıq bəyənatı münasibətlərin ölkələrimiz arasındakı ölçüsü olaraq dəyərləndirilə bilər. Pakistan, Ukrayna kimi ölkələrin Azərbaycan hakimiyyətinin yanında yer alması və işğalçıya qarşı aparılan müharibədə Azərbaycana səmimi dəstəklərini ifadə etməsi də diqqətçəkən idi. Region ölkələrindən Rusiya, İran, Gürcüstan və eyni zamanda, bəzi Avropa ölkələrinin də münaqişədən narahatlıqları mühüm amildir. Heç şübhəsiz ki, Türkiyə kimi dost-qardaş ölkənin zərrə qədər təmənna güdmədən Azərbaycanın hakimiyyətinin yanında yer alması daha ciddi dəyərdir. Eyni zamanda hec bir vaxt itkisi gözləmədən, baş verənlərə Türkiyənin münasibəti təkcə strateji tərəfdaşlığın yox, həm də qardaş olan dövlətin və onun dəstəkcisi olan xalqın siyasi iradəsinin bariz ifadəsi idi. "**Otuz ildir davam edən Dağlıq Qarabağ münaqişəsinin həlli yalnız Ermənistanın işğal etdiyi ərazilərdən geri çəkiləcəyi halda mümkün olacaq. Türkiyə ədalətli davasında hər zaman qardaş Azərbaycanın yanındadır" kimi** fikirlər təkcə Türkiyənin Müdafiə naziri Hülisi Akarın, Prezidenti Administrasiyasının İctimaiyyətlə əlaqələr idarəsinin rəhbəri Fahrettin Altunun yox, həm də bütün Türkiyənin mövqeyi olmuşdur. "Azərbaycan həm mənəvi, həm də hüquqi cəhətdən haqlıdır. Biz Bakını həm danışıqlar masası arxasında, həm də döyüş meydanında dəstəkləməyə hazırıq" [22], deyən Türkiyənin Xarici İşlər naziri M.Çavuşoğlunun bu bəyanatı **Türkiyə Prezidentinin mətbuat katibi İbrahim Kalına görə onun ölkəsinin qardaş Azərbaycana mənəvi və siyasi səciyyə daşıyan dəstəyidir. "**Dağlıq Qarabağ münaqişəsinin həlli işğal olunmuş ərazilərin azad olunması ilə mümkündür. Əgər Ermənistan sülh istəyirsə, işğal olunmuş ərazilərdən qeyri-şərtsiz çıxmalıdır" [25]. Türkiyənin qarşılaşdığı problemlərdən, o cümlədən Ermənistanın xarici güclərin təsiri ilə Qafqazda problemlər yaratmasını və bütün bu məsələlərin qətiyyətlə dəf edildiyini vurğulayan Prezident Rəcəb Tayyib Ərdoğan Böyük Qələbədən sonra cox rahat bir tərzdə deyirdi: "Azərbaycanlı qardaşlarımızla birlikdə 30 illik acıları sona çatdıran zəfərin sevincini yaşadıq" [36].

Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır...

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Azərbaycan Dövlət Televiziyası vasitəsilə yayımlanan **müraciətində** Ermənistanın Azərbaycana qarşı hərbi təxribatlarının müntəzəm xarakter almasını Ermənistanın hərbi-siyasi rəhbərliyinin yeni ərazilər uğrunda yeni işğal siyasəti adlandırdı və qeyd etdi ki, "Mülki əhaliyə və hərbçilərimizə qarşı növbəti hərbi təxribat bu gün (27 sentyabr 2020-ci il) Ermənistan tərəfindən törədildi və qeyd etdiyim kimi, bu dəfə də onlar öz cəzasını alıblar və alacaqlar. Ermənistanın baş naziri bir il bundan əvvəl işğal edilmiş torpaqlarda - Xankəndidə demişdir ki, "Qarabağ Ermənistandır və nöqtə". Birincisi bu, yalandır, Qarabağ Azərbaycandır və mən bu məsələ ilə bağlı öz fikirlərimi dəfələrlə bildirmişəm: Qarabağ Azərbaycandır və nida işarəsi. İkincisi, bu təxribat xarakterli bəyanat faktiki olaraq danışıqlar prosesinə vurulan böyük zərbə idi. Əgər Ermənistanın baş naziri deyirsə ki, "Qarabağ Ermənistandır", onda hansı danışıqlardan söhbət gedə bilər?!"[16]. Dünyanın Azərbaycanın ərazi bütövlüyünü tanıdığını, beynəlxalq təşkilatların qəbul etdiyi qərar və qətnamələri, o cümlədən BMT

Təhlükəsizlik Şurasının erməni silahlı qüvvələri dərhal, tam və qeyd-şərtsiz işğal edilmiş torpaqlardan çıxarılmalması haqqında qəbul etdiyi dörd qətnaməyə əsaslanan prezident deyirdi: "Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır. Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!" [16]. Ciddi faktdır ki, otuz ilə yaxındır ki, qətnamələr kağız üzərində qalır, Minsk qrupu çərçivəsində danışıqlar aparılır və bunun sonunda Ermənistan müntəzəm olaraq hərbi təxribatlar törətməklə danışıqlar prosesini iflic edir. Prezident həmin gün xalqa növbəti müraciətində **BMT kürsüsündə deyilənləri bir daha yada salır: "Ermənistanın baş naziri bəyan etdi ki, on minlərlə insanı birləşdirən "könüllü" hərbi birləşmələr yaradılacaqdır. Bu, nə üçün lazımdır? Bunlar kimə qarşı vuruşacaqlar? Bu, Azərbaycana qarşı bu gün törədilən təxribatın hazırlıq mərhələsi idi. Mən artıq bir neçə dəfə demişdim, o cümlədən bu yaxınlarda BMT kürsüsündən demişdim ki, Ermənistan yeni müharibəyə hazırlaşır, Ermənistan dayandırılmalıdır və dayandırılacaqdır"** [5].

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Təhlükəsizlik Şurasının həmin gün toplanmış iclasında deyirdi: "Mən Azərbaycan xalqına bu məlumatı verməklə bir daha demək istəyirəm ki, biz haqq yolundayıq, biz özümüzü müdafiə edirik. Biz heç kimin torpağına göz dikməmişik, heç kimin torpağında, Ermənistan ərazisində Azərbaycan silahlı birləşmələrinin heç bir məqsədi, hədəfi yoxdur. Ancaq biz öz torpağımızda özümüzü müdafiə edəcəyik və işğal edilmiş torpaqlarımızı işğalçılardan azad edəcəyik" [13]. Bu Azərbaycanın nizamlı, müasir silahlarla təchiz olunmuş peşəkar ordusu sayəsəsində mümkün idi. "Əgər Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərini sülh yolu ilə azad etmək istəmirsə, Azərbaycan Ordusu müharibə yolu ilə torpaqları hər an azad edə bilər" [1]. Çünki **"Ordu quruculuğu mənim fəaliyyətimdə həmişə birinci yerdədir. Hərbçilər də, Azərbaycan xalqı da bunu bilir. Həmişə demişəm ki, ordumuz üçün nə lazımdırsa, biz onu da edəcəyik. Biz güclü, iradəli ordu yaratmışıq"** [13].

Azərbaycan ordusunun komandanlığı tərəfindən qoşunların bütün cəbhə boyu sürətli əks-hücum əməliyyatı başlaması xalq tərəfindən də yekdilliklə və çoşqu ilə qarşılandı: "Torpaqlarımızı işğaldan azad etmək üçün bizim şəhidlərimiz də olacaq. Biz sülh danışıqları oyuncağa çevirmiş Ermənistanın məsuliyyətsizliyinin acısını ona yaşatmalıyıq. Bundan yaxşı fürsət yoxdur. Nəyin bahasına olur-olsun, Qarabağ itkisi ləkəsini üstümüzdən götürməliyik" [21]. Əslində bu bütün cəmiyyətin fikir və çağırışı idi. Eyni zamanda ilk gündən içtimaiyyət cəbhədən gələn xəbərlərə sevinməkdə idi. Müdafiə Nazirliyinin yaydığı məlumatda bildirilirdi: **"Azərbaycan Ordusunun bölmələri cəbhənin Tərtər-Ağdam, Füzuli-Cəbrayıl və Murovdağı istiqamətlərində Ermənistan qoşunlarının işğalı altında olan vacib yüksəkliklər uğrunda döyüşlər aparırlar.** Raket-artilleriya qoşunları və aviasiya vasitələri düşmənin komanda məntəqələrinə zərbələr endirir, manevr edən çoxlu sayda canlı qüvvəsini, döyüş texnikasını və hərbi obyektlərini məhv edirlər.Bütün cəbhə boyu şiddətli döyüşlər gedir" [12].

Az zaman kəsiyində baş verənlər mətbuatın baş mövzusu oldu. Geniş içtimaiyyətin fikir və mülahizələrinə böyük əhəmiyyət verən mətbuat bu məsələdə heç bir tərəddüdsüz müharibəni işğaldan qurtarmağın yeganə yolu kimi təqdim etdi. Cəmiyyətdə fəallığı ilə fərqlənən millət vəkili Qənirə Paşayevə sanki müharibə üçün yenidən "doğuldu". Müharibə dövründə "Xalq qəzeti" onun onlarca məqalə və müsahibələrini dərc etdi. Siyasi fəallığı və vətənpərvər çağırışları ilə seçilən xanım deputat müharibənin ilk günlərindən işğalçıya qarşı

mübarizəni Vətən müharibəsi adlandırırdı. *Ali Baş Komandana, xilaskar orduya, vətənpərvər əsgərə dərin inamdan danışdı: "Xalqımız yüksək ovqata, coşğun milli qürur hissinə sahibdir. Dövlətimiz, şəxsən dövlət başçımız xalqın istəklərinin ən parlaq ifadəçisidir. Bu ifadə tarixi həqiqətləri, günümüzün siyasi-hərbi gerçəkliklərini, qarşıda duran milli, xəlqi və bəşəri vəzifələri bütün dərinliyi ilə özündə ehtiva edir"* [28].

Akademik Rafael Hüseynova görə isə **"Prezident İlham Əliyev Azərbaycana rəhbərlik etdiyi illər boyunca çox sərəncamlar, çox fərmanlar imzalayıb, çox qərarlar verib, televiziya ekranlarından, ya kütlə qarşısına çıxaraq insanlarımıza çox müraciətlər edib.** Lakin 2020-ci il sentyabrın 27-də onun imzaladığı ölkədə hərbi vəziyyət elan edilməsi haqqında fərman da, elə həmin gün xalqa müraciəti də əvvəlkilərin hamısından ciddi şəkildə fərqlənir, müasir həyatımızın və əslində vaxt ötdükcə bəlli olacaq ki, bütöv tariximizin də ən həlledici məqamları kimi qavranılmağa layiqdir. Əslində bu qətiyyətli addımlar elə dövlət başçımızın özünün də tərcümeyi-halında həmişə ən parlaq səhifələr kimi qalacaq" [26]. Azərbaycan Silahlı Qüvvələrinin həyata keçirdiyi əks-hücum əməliyyatları və işğal altındakı ərazilərimizin düşməndən xilas edilməsi prosesini Çanaqqala zəfəri və Qafqaz İslam Ordusunun tarixi missiyası ilə müqayisə edən professor Zakir Avşar deyir: "Azərbaycan Ordusu həqiqətən də mübarək bir Ordudur. Müstəqilliyin qorunması üçün üzərinə düşən missiyanı qorumağa qadirdir" [18].

Ölkəmizdə fəaliyyət göstərən 52 siyasi partiyanın əllisi Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatlarına dair birgə bəyanat yayaraq Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevlə həmrəy olduqlarını bildiriblər. Qəzetə bu barədə danışan Milli Məclisin deputatı, Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə qeyd edir ki, "cəbhədə baş verən hadisələr cəmiyyətdə milli birliyi daha da gücləndirib. Kimliyindən və siyasi əqidəsindən asılı olmayaraq hər birmiz dövlət başçımızın ətrafında sıx birləşərək bu döyüşdən də qalib çıxmaq üçün Ali Baş Komandanın bütün çağırışlarına hazır olduğumuzu nümayiş etdirməliyik" [15].

Cəbhədə əməliyyatların başladığı ilk saatlarda Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov mətbuata açıqlamasında deyirdi: "**Hazırda Ermənistan tərəfinin çoxlu sayda canlı qüvvə itkisi var. Eyni zamanda, düşmənin döyüş texnikası və zenit-artilleriya kompleksləri məhv edilib** [30].

Tarix göstərir ki, nasizm və faşizm hansı milli zəmində formalaşmasından və inkişaf etməsindən asılı olmayaraq həmişə və hər yerdə nifrət, təcavüz və müharibə yolu seçir. 2020-ci il sentyabrın 27-də, bazar günü səhər tezdən baş verənlər gec-tez olmalı idi, çünki bu, müasir Ermənistanda illər boyu yaradılan və mövcud olan açıq-aşkar nasist rejimin mahiyyətinin qanunauyğun ifadəsidir. Bu barədə danışan Rusiyalı politoloq Oleq Kuznetsov deyib: "Azərbaycan öz ərazisində və özünün ərazi bütövlüyü uğrunda müharibə aparmağa məcbur edilib, onun müharibəsi düzgün və ədalətlidir. Ümidvaram ki, bu müharibə ölkənin ən yeni tarixinə "Azadlıq müharibəsi", hətta "Vətən müharibəsi" adı ilə düşəcək və dünya tarixində bu cür müharibələrin hamısı kimi o da zəfərlə başa çatacaq. Mən Azərbaycan xalqına qələbə, Azərbaycan ordusuna rəşadət arzu edirəm" [32].

Sentyabrın 27-dən əks-həmlə ilə başlanan və şanlı ordumuzun zəfərləri ilə davam edən və 44 gün davam edən Vətən müharibəsi işğaldan tarixi torpaqları xilas etməklə, həm də minlərlə insanın 30 ilə yaxın müddətdən sonra öz yurd-yuvalarına qovuşmasını təmin etdi, dədə-baba torpaqlarına həsrətinin bitməsi xalqın inamını qaytardı. Qəzetin əməkdaşları

Tahir Aydınoğlunun, Vaqif Bayramovun, İttifaq Mirzəbəylinin, Əliqismət Bədəlovun, Məsaim Abdullayevin, Paşa Əmircanovun, Zərifə Bəşirqızının və başqalarının imzası ilə təqdim edilən yazılarda bu tarixi gerçəkliyin təntənəsini görməkdəyik. Onu da qeyd etmək yerinə düşər ki, bu tendensiya qəzetin tərtibatında da (məsul katib Əməkdar Jurnalist İlqar Rüstəmov) özünü göstərmiş, hətta qəzeti vəqəqləyən, yaxud onu internetdə izləyən oxucu da tərtibatın təqdim etdiyi qələbə sevincini yaşamımışdır. Bir az da dəqiqləşdirsək tərtibat və məzmun vəhdətinin ortaya qoyduğu təqdimat qəzetin siyasi xəttinin, informasiya cəbhəsindəki uğurunun təsdiqi idi. Bu faktı ortaya qoyan yazılar onlarcadır, desək belə qəzetin informasiya cəbhəsindəki uğurlu fəaliyyətini tam dəyərləndirmiş olmuruq. Əslində qəzetin dərc etdiyi analitik təhlilər bir yana, həcimcə ən kiçik xəbərlər belə cəbhədə uğurun və şanlı Azərbaycan əsgərinin tarixi qələbəyə gedən yolunun aynası kimi görünür. Qeyd etmək yerinə düşər ki, bu tendensiya qəzetin baş xətti olduğundan təkcə əməkdaşların yox, siyasi xadimlərin, politoloqların, eləcə də bütün kənar müəlliflərin imzası ilə təqdim edilmiş məqalə və müsahibələrdə də görünməkdədir.

Son 30 il ərzində erməni faşistlərinin doğma torpaqlarımızda həyata keçirdiyi vəhşiliklər müzəffər ordumuz tərəfindən tutarlı cavablandırıldı və həlledici zərbəni aldılar. 2020-ci ilin sentyabrın 27-də Ermənistan Silahlı Qüvvələrinin münaqişə zonasında təmas xəttini pozaraq mövqelərimizə etdikləri hücuma cavab olaraq müzəffər, nizamlı Azərbaycan ordusu əks hücuma keçərək düşmənə ağır zərbələr endirərək, onların işğalçılıq siyasətinə son qoydu.

Prezident İlham Əliyevin müsahibələri diplomatik üstünlüyü təmin etdi

Hələ müharibənin ilk günlərində "Sky News" televiziya kanalının "Dağlıq Qarabağda fəaliyyət göstərən jurnalistlərlə bağlı sual. Sizin sözçünüz deyib ki, onlar Azərbaycan ərazilərində qanunsuz olduqlarına görə hədəf obyektləridir. Siz də belə hesab edirsiniz? kimi aqressiv suallarını cavablandıran Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev deyirdi: "Biz jurnalistlərin gəlməyində maraqlıyıq. Mən hər gün televiziyadayam, hər gün müsahibələr verirəm, çünki biz mövqeyimizi çatdırmaq istəyirik, gördüyümüz işi diqqətə çatdırmaq istəyirik. Biz təcavüzkar deyilik, biz təcavüzə məruz qalmışıq. Təcavüzkar Ermənistandır. Biz ərazilərin geri qaytarılmasını istəyirik" [7].

Prezident xarici mətbuat orqanlarına, televiziya kanallarına verdiyi müsahibələrində də bu tendensiyanı davam etdirmiş, jurnalistlərin çox aqressiv suallarını belə təmkinlə cavablandırmış, hətta ikili mövqelərinə görə onları haqlı qınaq obyektinə belə çevirmişdir: "Biz Qərb mediasını yaxından müşahidə edirik və bu qırx gün ərzində mənim bəlkə də, otuz müsahibəm olub. Onların hamısı çox aqressiv idi, sanki bu, müsahibə deyildi, sanki bir ittiham idi. Ermənistan tərəfində heç nə baş vermir. Heç kim Paşinyandan nəyə görə Gəncəyə ballistik raketlərlə zərbə endirdiyini soruşmur. Nəyə görə o, 92 nəfəri qətlə yetirib? Nəyə görə o, Tərtərdə dəfn mərasiminə hücum edib? Nəyə görə onlar 21 insanı qətlə yetirərək və 70 nəfəri yaralayaraq Bərdəyə hücum etmək üçün kassetli bombalarla "Smerç"dən istifadə ediblər? Heç kim ondan soruşmur. Heç kim ondan silahları haradan əldə etdiyini soruşmur? Yalnız bizə hücum edirlər. Beynəlxalq media yalnız Azərbaycanı ləkələyir" [10].

Açıq mövqe, haqq işimizə böyük inam Azərbaycanın haqlı mövqeyini ortaya qoyan Prezidentin bütün müsahibələrində görünür. Əgər Türkiyənin "A Haber" televiziya kanalının, NTV televiziyasının, CNN-Türk televiziyasının, "TRT Haber" televiziya kanalının, Rusiyanın TASS informasiya agentliyinin, "Pervıy Kanal" televiziyasının, "Əl-Ərəbiyə" və

"Əl-Cəzirə" televiziya kanalının müxbirlərinin suallarında oxucu və ya dinləyici bir səmimiyyət, hadisələrin sülh yoluna xidmət meyylərini görürürsə, "BBC News"in, İspaniyanın EFE informasiya agentliyinin, Almaniyanın ARD televiziya kanalının, "Sky News" televiziya kanalının, "Rossiya-1" telekanalında yayımlanan "60 dəqiqə" proqramının müxbirlərinin suallarında jurnalist səmimiyyətinin yox, tərəfli və haqsız mövqe nümayişlərinə şahidlik etməkdəyik. Bu suallarda təkidlə Türkiyənin müdaxiləsi, hətta Qarabağa suriyalı muzdluların göndərilməsi belə elə soruşulur ki, sual verənlər jurnalistdən çox təhqiqatçı xarakterində görünürlər. **Milli Məclisin Mədəniyyət Komitəsinin sədri Qənirə Paşayeva** Almaniyanın ARD televiziya kanalının müxbirinin suallarını cox haqlı olaraq "Alman dövləti və alman xalqı, elə bilirik, rəsmən faşizmdən imtina edib – bu yaxşıdır, təqdirə, alqışa layiqdir; lakin kim deyə bilər ki, ARD əməkdaşının ruhuna faşizm çökməyib? **O suallar ki, ARD əməkdaşı vermişdi,** erməni faişminə ortaq olmaqdır..." deyə dəyərləndirilir [29].

"Siz bu əsrin əvvəlindən hakimiyyətdəsiniz və bu məsələ ilə bağlı heç bir irəliləyiş yoxdur. Ermənilər günahlandırmaq asandır, lakin Siz siyasi cəhətdən bunu həll edə bilmədiyiniz üçün əsgərlərinizin indi cəbhə xəttində öldüyünə görə şəxsən öz üzərinizə məsuliyyəti götürürsünüzmü?" [7]. Baxın "Siz bu əsrin əvvəlindən hakimiyyətdəsiniz və bu məsələ ilə bağlı heç bir irəliləyiş yoxdur" sual və tələbibin daha çox beynəlxalq təşkilatlara, ATƏT-ə, Avropa Şurasına, ya da hec olmasa ATƏT-n Minsk qrupunun üzvülərinə ünvanlanması daha məqsədəuyğun olmazdımı? Üstəlik bu qrupun fəaliyyət mandatı Azərbaycan Prezidentinin 2003-cü ildən başlayan prezidentlik zamanından da coxdur, bu mandat 1992-ci ildən, kecən əsrin 90-cı illərindən başlayır. Amma prezidentin təmkinli cavabı müxbirin mövqeyini dəyişməyə məcbur edir: "Bizim əsgərlərimiz öz torpağımız uğrunda həlak olurlar. Bizim əsgərlərimiz tarixi və beynəlxalq səviyyədə tanınmış Azərbaycan torpağında həlak olurlar. Erməni əsgərlər hansı torpaqda ölürlər? Onlar Füzulidə ölürlər, Cəbrayılda ölürlər, onlar digər Azərbaycan ərazilərində ölürlər. Onların orada nə işləri var? Siz Paşinyandan soruşmalısınız onun əsgəri orada nə edir? Qondarma "Dağlıq Qarabağ ordusu"nun 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Onlar bizim torpağımızdadırlar. Xəritəyə baxmaq kifayətdir. Bizim üçün bu, Vətən Müharibəsidir. Biz özümüzü müdafiə edirik. Biz öz ərazi bütövlüyümüzü bərpa etmək istəyirik ki, bir milyon köçkünün geri qayıtmasına imkan yaradaq. Bizim etdiyimiz budur" [7].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan danışıqlarda həmişə konstruktivlik nümayiş etdirib. Vasitəçilik missiyası üçün cavabdeh olan Minsk qrupunun həmsədrləri də bunu təsdiq edə bilərlər. Üstəlik son iki ildə və bundan əvvəl də dəfələrlə bəyan etmişik ki, biz danışıqların formatına da sadiqik" [6] deyəndə, sanki deyilənlərin yeni bir mövqe kimi qarşılanması ən azı təəcüb doğurur. Yenə həmin müsahibəsində prezident bildirirdi ki, "Bazar günü baş verən hadisələrə Ermənistan artıq bir neçə ay idi ki, hazırlaşırdı. Əgər siz onların hərəkətlərinin və bəyanatlarının xronologiyasını izləsəniz aşkar görərsiniz ki, onlar bu təxribata şüurlu şəkildə gedirdilər. Bu yaxınlarda, BMT Baş Assambleyasının tribunasından çıxış edərkən mən açıq demişəm ki, Ermənistan müharibəyə hazırlaşır və onu dayandırmaq lazımdır" [6]. Təbii ki, bunlar müharibəni Ermənistan üçün sürpiriz kimi qarşılayanların tutarlı cavabıdır.

Müharibə başlayanda işğal olunmuş torpaqlarımızın azad olunması uğrunda gedən əks-hücum əməliyyatlarına kölgə salmaq, cəmiyyətdə çaşqınlıq, xaos, şübhə yaratmaq məqsədilə

yalan məlumatların qarşısının alınması üçün bəzi məhdudiyyətlər tətbiq edildi. Bu barədə "Xalq qəzet" yazırdı: "Bunu cəmiyyətdə informasiya blokadası, məlumat tələbatının qarşısının alınması kimi qiymətləndirmək olmaz. Dövlətin strateji informasiya müharibəsində əsas məqsədi düşmənin dezinformasiyalarından müdafiə, təhlükəsizliyin təmin olunmasıdır" [31]. *Bu barədə* Yaponiyanın "Nikkei" qəzetinin suallarını cavablandıran Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev deyirdi:

" - Siz söz azadlığı və interneti qeyd etdiniz. Lakin sosial şəbəkə sistemlərində bəzi məhdudiyyətlər var.

- Bunlar müvəqqəti məhdudiyyətlərdir. Bu məhdudiyyətlər toqquşmalar başladıqdan sonra tətbiq olunmuşdur. Biz xalqımıza elan etdik ki, bu, milli təhlükəsizlik məsələləridir, çünki biz belə bir vaxtda informasiya sistemimizi erməni təxribatından qorumalıyıq. Beləliklə, bu, müvəqqəti səciyyə daşıyır. Toqquşmaların aktiv fazası bitən kimi bütün bu məhdudiyyətlər aradan qaldırılacaqdır. Lakin sizə deyə bilərəm ki, internetin əhatə dairəsi çox yüksəkdir və azərbaycanlıların 80 faizdən çoxu internet istifadəçiləridir. Beləliklə, bu, yalnız müvəqqəti xarakter daşıyır" [8].

Qarabağla bağlı həqiqətlərin ardıcıl olaraq ölkəmizin birinci şəxsinin dilindən səsləndirilməsinin nə qədər vacib olduğunu əsaslandırmağa ehtiyac yoxdur. "Ali Baş Komandanın savaş günlərində müharibənin başlanması və qazanılan zəfərlərlə bağlı xalqa müraciətlərində və xarici KİV-lərə verdiyi 30-dan çox müsahibədə səsləndirilən həqiqətlər Azərbaycanın düşmən üzərində diplomatik və təbliğati üstünlüyünü təmin etdi, öz yalanları ilə illərdən bəri geniş xarici auditoriyanı aldatmış işğalçı tərəfə informasiya sferasında ciddi zərbələr vurdu" [38]. Bununla da Ali Baş Komandan və Prezident İlham Əliyev informasiya müharibəsindəki mühüm missiyanı da öhdəsinə götürdü, beynəlxalq media orqanlarına səlis məntiq və arqumentlərlə əsaslandırılmış müsahibələr verməklə beynəlxalq auditoriyanın düzgün məlumatlandırılmasına nail oldu. Prezidentin erməni yalanlarının ifşa edilməsində bir ordu qədər xidmət göstərdiyini vurğulayan *Beynəlxalq Avrasiya Mətbuat Fondunun rəhbəri, Azərbaycan Mətbuat Şurasının sədr müavini Umud Rəhimoğlu* "Xalq qəzeti"nə bildirirdi: "Azərbaycan rəhbəri İlham Əliyev dünya ictimaiyyətini məlumatlandırmaq istiqamətində də müstəsna bir çevikliklə, məqsədyönlü şəkildə zəruri işlər görür. Ali Baş Komandanın dünyanın nüfuzlu media qurumlarına bir-birinin ardınca verdiyi müsahibələr dünya ictimaiyyətində Qarabağ müharibəsinin obyektiv və əhatəli mənzərəsini yaradır. Demək olar ki, hər gün ölkə başçısının beynəlxalq media vasitələrindən hansınasa geniş açıqlaması olur. Bunlar beynəlxalq ictimai rəyə önəmli təsir göstərir. Dünya bu müsabibələri izləməklə müharibə bölgəsindəki əsl reallıqla tanış olur. Bu açıqlamalar hazırda dünya informasiya məkanında Azərbaycan--Ermənistan münaqişəsi, Qarabağ müharibəsi və s. haqqında dolğun və obyektiv informasiya mənbəyi rolunu oynayır" [4]. Məhz bu dolğun və obyektiv informasiya mənbəyi az qala dünyanın hər yerində böyük bir təbliğat sisteminin başında duran ermənilərin informasiya müharibəsindəki məğlubiyyətini də qaçılmaz etdi. Mediya mütəxəssisi Akif Rüstəmovun yazdığı kimi "Ermənistan və havadarları Azərbaycana qarşı feyk və iftiralar yaymaqla erməni cəmiyyətinə ruhdan düşməməyi məsləhət görürlər. Amma yanılırlar. İndi heç nəyi gizlətmək olmur. Müharibə meydanında uduzan Ermənistanı saxta feyk məlumatlar xilas edə bilməz" [33]. Göründüyü kimi xalqımızın işğalçı Ermənistanla bütün cəbhələrdə, eləcə də informasiya meydanında mübarizəsi uğurla davam etdirildi. İndiki zamanda bunun nə qədər vacib olduğunu

qələbəmiz də təsdiqləyir. "Xalq qəzeti"nin yazdığı kimi "Ali Baş Komandan İlham Əliyevin beynəlxalq mediaya verdiyi müsahibələr Qarabağ müharibəsinin mahiyyətinə, erməni yalan və saxtakarlıqlarına aydınlıq gətirilməsi baxımından dünya ictimai rəyinə hər şeydən artıq təsir göstərir" [4].

Dəmir Yumruq və xalqı yumruq kimi birləşdirən siyasət

İndi ölkəmiz həyatının çox əlamətdar və tarixi günlərini yaşamaqdadır. *Azərbaycanın hər yerində döyüşən orduya dəstək, milli birlik nümayiş etdirilir. Minlərlə Vətən oğulları könüllü olaraq torpaqlarımızın azad edilməsində iştirak etmək üçün müvafiq qurumlara müraciət edir. Sıravi vətəndaşdan tutmuş Ali Baş Komandanadək hamının bir arzusu, bir istəyi var – tezliklə işğal altında olan torpaqlarımız işğaldan azad edilsin* [40]. Sentyabrın 27-dən başlayan əks hücum əməliyyatları nəticəsində işğal altında olan ərazilərimizin əhəmiyyətli hissəsinin işğaldan azad olunması, Azərbaycan, Rusiya və Ermənistan siyasi rəhbərləri tərəfindən imzalanmış Birgə Bəyanatın qüvvəyə minməsi böyük qələbənin təsdiqidir. Ard-arda Füzuli, Cəbrayıl, Zəngilan rayonlarının və bir çox yaşayış məntəqələrinin düşməndən geri alınması qələbəyə gedən yolumuzu açdı. Bu duyğuların sevincini şair Ələmdar Quluzadə oxucuları ilə bu şəkildə bölüşür: "Bizi yaralı Qarabağımıza müdrik və qətiyyətli Ali Baş Komandanımızın artıq icra olunan əmri ilə mübariz Silahlı Qüvvələrimiz qovuşdurmaqdadır. Uğur olsun ümidgahımız Azərbaycan Ordusu!" [27].

30 il bütün dünya ictimayyətini həyasızcasına aldadan Ermənistan rəhbərliyi sözdə sülh tərəfdarı olduğunu, Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həllinin mümkünlüyünü bəyan edirdi. Amma əməli fəaliyyətində isə tam əksinə, Dağlıq Qarabağda, Füzulidə, Cəbrayılda, Ağdamda, Ağdərədə müdafiə istehkamları quraraq işğal etdikləri torpaqları qaytarmamaq üçün məkrli planlar qururdular. Təxribat xarakterli bəyanatları faktiki olaraq danışıqlar prosesinə vurulan böyük zərbə adlandıran *Xalq artisti, professor Tofiq Bakixanov "Xalq qəzeti"nə müsahibəsində deyirdi:* "Dağlıq Qarabağ Respublikası"ilə danışıqları Azərbaycan Ordusu aparmalıdır. Buyurun, həmin danışıqlar gedir" [14].

Bəs sonu nə oldu?! Möhtərəm prezident və Ali Baş Komandanın dediyi kimi, "nə oldu Paşinyan?". İstehkamlar dağıdıldı, düşmənin hərbi texnikası, minlərlə əsgər və zabiti məhv edildi, çox sayda hərbi texnika və silah-sursat qənimət olaraq götürüldü. Bu bizim haqq işimizin təntənəsi idi. Bu həm də Azərbaycan xalqının və Azərbaycan xalqını ətrafında yumruq kimi birləşdirən Ali Baş Komandanın tarixi qələbəsi idi. "Xalq qəzeti" yazırdı: "*Türkiyənin ölkəmizdəki sabiq səfiri Hulusi Kılıç Azərbaycan mediasına açıqlamasında bildirib ki, Ermənistanın dinc əhaliə, cəbhə bölgəsindən uzaq ünvanlarta hücumları qardaş xalqı işğal altında olan torpaqlarını azad etmək niyyətindən geri döndərə bilməyəcək. Bu gün Azərbaycanda güclü lider var və bu liderin ətrafında güclü ordu, ona güvənən, etimad edən xalq dayanıb"* [3].

Şah İsmayılın, Nadir şahın qurduğu imperiyaların süqutundan sonra torpaq itirə-itirə gələn Azərbaycan ilk dəfə idi ki, torpaqlarının mühüm və strateji bir hissəsini- Qarabağı yenidən özünə qaytarmaqla şanlı tarixinin yeni səhifəsini yazmış oldu. Bununla da Azərbaycan ilk dəfə olaraq tarixi torpaqlarını qaytarmağa nail oldu. Bu barədə müsahibəsində millət vəkili Qənirə Paşayeva deyirdi: "Azərbaycan son əsrlərin ən böyük zəfərini yaşayır. Noyabrın 8-də Şuşanın, 9-da 70-dən artıq kəndin, 1 qəsəbənin, 8 strateji yüksəkliyin azad olunması, bunun ardınca isə noyabrın 10-da Ermənistanın ağ bayraq qaldıraraq, tam kapitulyasiyası, dekabrın 1-dək Kəlbəcərin, Ağdamın və Laçının

müharibəsiz, deməli, qansız, şəhidsiz qaytarılmasını nəzərdə tutan birgə bəyanat imzalaması tariximizə Zəfər həftəsi kimi həkk olundu" [39].

Bu günlərdə hələ barıt qoxusu çəkilməyən torpaqlara cənab Prezidentin öz xanımı, Birinci vitse-prezidentlə birlikdə səfər etməsi isə yeni bir fədəkarlıq nümunəsidir. Bunu "Tarixi əhəmiyyətli səfər**" adlandıran Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü, hüquq elmləri doktoru Nizami Səfərov yazırdı: "Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın 10 noyabr Qələbəsindən cəmi 6 gün sonra işğaldan azad olunmuş yurd yerlərimizə - Füzuli və Cəbrayıl rayonlarına səfəri tarixi əhəmiyyət kəsb edir. Bu səfər Azərbaycanın hərbi-siyasi strategiyasının təntənəsinin bariz nümunəsi olaraq, Silahlı Qüvvələrin Ali Baş Komandanının rəhbərliyi altında həyata keçirilən zəfər yürüşünün məntiqi nəticəsidir"** [35].

Bundan sonra Ağdam səfəri reallaşdı. Çox riskli addımları ilə Ali Baş Komandan xalqın yanında olduğunu bir daha ortaya qoydu. İşğaldan azad edilmiş torpaqlara gedən prezident İlham Əliyev həm də bütün dünyaya yeni bir mesaj verdi: Azərbaycan xalqı tarixi torpaqlarının sahibidir və bu gün onun sahibləri bu torpaqlarda rahat və qorxuzuz gəzə bilər. Bu həm də Azərbaycan dövlətinin gücünün, haqq savaşında qalibiyyətinin təntənəsi idi. Ali Baş Komandan erməni tapdağından təzəcə qurtarmış əzəli torpaqlara getməsi ilə buraya qayıtmaq istəyən xalqın inamını və arzusunu dəfələrlə artırmış oldu. Möhtərəm Prezident bu tarixi səfərlərində erməni vandalizminin sifətini də beynəlxalq ictimaiyyətə göstərdi. Həm də bütün dünyaya böyük bir çağrış edildi: görün ermənilər necə vəhşiliklər törədiblər, bir dənə də olsun salamat tikili belə qoymayıblar, tarixi abidələri, hətta qəbristanlıqları belə "eşiblər". Bütün bu kimi vəhşilıklərə şahidlik edən, amma humanist ənənələrinə sadiq olan Azərbaycan Prezidenti İlham Əliyev işğaldan azad olunmuş ərazilərə səfəri zamanı onu da vurğuladı ki, "Azərbaycan vətəndaşları bütün xalqların, dinlərin nümayəndələri ilə normal yaşayırlar, mehribanlıq, sülh şəraitində yaşayırlar. Bizim erməni xalqı ilə işimiz yoxdur ".

Vəhşiliklərindən çəkinməyən, Kəlbəcərdən, Laçından və digər azad olunmuş ərazilərdən çıxarkən də evləri, meşələri yandırıb viran qoyan erməni xislətlilərin əməllərini dünya görür. Doğma yuvalarını tərk edəndə bir ovuc torpaq götürüb, qışın qar-çovğununda 10 saat ərzində ayaqyalın, başıaçıq canını qurtaran, azərbaycanlıları onlarla müqayisə etmək tarixi haqsızlıq olardı. Bütün bunları bilə-bilə Azərbaycan dövləti yeni bir hümanizmi ilə onlara daha 10 gün də vaxt verdi ki, murdar ayaqları müqəddəs torpaqlardan kəsilsin. Unitaslarını da, leşlərini də biryolluq aparsınlar…

Möhtərəm Prezidentin azad olunmuş torpaqlara bu tarixi səfərləri hərbi kapitulyasiyaya məruz qalan, tənəzzülə uğrayan, amma 3 rayondan çıxmamaq üçün bəhanələr axtaran və bəyanatdakı öhdəliklərinə əməl etməməyə çalışan Ermənistan üçün də ciddi bir çağırış idi: Qarabağ Azərbaycandır! Biz Azərbaycanın hər yerinə gedəcəyik. Hər qarış torpağımızı azad edəcəyik, Azərbaycanın ərazi bütövlüyünü bərpa edəcəyik. Eyni zamanda cənab Prezidentin də səsləndirdiyi kimi "Heç bir status haqqında söhbət gedə bilməz. Vahid Azərbaycan dövləti var. Çoxmillətli, çoxkonfensiyalı, mütərəqqi Azərbaycan dövləti var". Rəşadətli Ali Baş Komandan tərəfindən Azərbaycan bayrağının əzəli və əbədi torpaqlarımızda ucaldılması bir daha dövlətimizin qüdrətini, söz sahibi olmasını təsdiq edir.

Nəticə

Azərbaycan xalqı 30 illik yurd nisgilindən sonra, nəhayət ki, Qarabağda qəhrəman bir savaşla işğal dövrünə son qoydu. Müzəffər Ordumuzun sentyabrın 27-dən başlayan davamlı hərbi qələbəsi 44 gündən sonra təcavüzkar Ermənistan dövlətinn məğlubiyyətini rəsmiləşdirən 10 noyabr tarixli Rusiya-Azərbaycan-Ermənistan bəyanatını imzalamağa məcbur etdi. Azərbaycan dövləti öz iradəsi və gücü ilə BMT Təhlükəsizlik Şurasının 30 ilə yaxın müddətdə kağız üzərində qalan qətnamələrinin icrasına nail oldu.

Son iki yüz ildə qələbə, zəfər həsrətli xalqımızın bu intizarına artıq son qoyuldu. "Xalq qəzeti"nin dərc etdiyi qələbə soraqlı və müxtəlif janrlı materialları analiz etdikcə yekun qənaət kimi qələbəmizin obyektivliyini təmin edən bəzi detalların üzərində dayanmağı da vacib bildik:

-Azərbaycan BMT-nin uzun illərdir kağız üzərində qalan 4 qətnaməsini özü yerinə yetirərək ərazilərini Ermənistanın işğalından azad etdi.

-Azərbaycan Prezidenti İlham Əliyev Vətən müharibəsi dövründə ciddi beynəlxalq təzyiq və təhdidləri məhz xalqın inam və iradəsinə, birliyinə söykənərək dəf etdi,

-Ali Baş Komandanın savaş günlərində müharibənin başlanması və qazanılan zəfərlərlə bağlı xalqa müraciətlərində və xarici KİV-lərə verdiyi 30-dan çox müsahibədə səsləndirilən həqiqətlər Azərbaycanın düşmən üzərində diplomatik və təbliğati üstünlüyünü təmin etdi, öz yalanları ilə illərdən bəri geniş xarici auditoriyanı aldatmış işğalçı tərəfə informasiya sferasında ciddi zərbələr vurdu.

-Ermənistan hərbi-siyasi rəhbərliyi xilas olmağın yolunu müharibə cinayətləri törətməkdə, Azərbaycanın cəbhə bölgəsində və ondan uzaqlarda yaşayan dinc əhalisini raket-artilleriya atəşinə tutub ümumu vahimə və sarsıntı yaratmaqda gördü.

-Ermənilərin fitnəkar təxribatlarına, kütləvi vandalizminə baxmayaraq, Azərbaycanın Tərtər, Ağdam, Goranboy, Ağcabədi, Bərdə, Yevlax, Beyləqan rayonlarının, Gəncə və mingəçevir şəhərlərinin sakinləri sonadək yüksək vətənpərvərlik, iradə, əzm nümayiş etdirdilər. 44 günlük müharibə zamanı Azərbaycanda fərarilik faktı qeydə alınmadı.

-Müharibə Azərbaycan üçün məqsəd deyildi. Azərbaycan güc tətbiq etməklə Ermənistanı işğal etdiyi ərazilərdən geri çəkilməyə məcbur etdi. 44 günlük müharibə Azərbaycanın vətənpərvər və böyük xalqı olduğunu, milli birliyini, həmrəyliyini bütün dünyaya nümayiş etdirdi. Bütün dünyaya məlum oldu ki, 30 ilin torpaq həsrəti, əzabları xalqımızı iradəsini sındırmayıb, onun inam və əzmini sarsıtmayıb.

- Müharibə sübut etdi ki, Ermənistan işğalçı dövlətdir, Azərbaycan silahlı hücumlara cavab olaraq özünümüdafiə hüququndan istifadə edərək tarixi torpaqlarını işğaldan azad etdi.

- Nəhayət, Ali Baş Komandan İlham Əliyev milyonların qəlbində qurduğu əbədi mənəvi heykəli ilə bugünkü və gələcək nəsillərin yaddaşına minilliyin fatehi kimi yazıldı.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. Aleksey Şvaryov: Azərbaycanın Silahlı Qüvvələri ölkəsinin ərazi bütövlüyünü bərpa etmək üçün istənilən gücə malikdir. "Xalq qəzeti", 27 sentyabr 2020.
2. *Aydinoğlu T.* Media professoru Cahangir Məmmədli: Qarabağ savaşında jurnalistlərimiz əsgərlərimizin yanında oldular. "Xalq qəzeti", 20 noyabr 2020.
3. *Aydinoğlu T.* Türkiyədə 83 milyon ürək Azərbaycan üçün döyünür. "Xalq qəzeti",7 oktyabr 2020.
4. *Aydinoğlu T.* Söz meydanındakı uğurlarımız döyüşdəki qələbələrimizə informasiya dəstəyi qazandırır. "Xalq qəzeti", 6 noyabr 2020.
5. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev: BMT kürsüsündən də demişdim ki, yeni müharibəyə hazırlaşan Ermənistan dayandırılmalıdır və dayandırılacaq."Xalq qəzeti", 29 sentyabr 2020.
6. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Rossiya-1" telekanalının "60 dəqiqə" proqramında sualları cavablandırıb. "Xalq qəzeti", 29 sentyabr 2020.
7. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Sky News" televiziya kanalında müsahibəsi. "Xalq qəzeti", 10 oktyabr 2020.
8. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Yaponiyanın "Nikkei" qəzetinə müsahibə verib. "Xalq qəzeti", *22 oktyabr* 2020.
9. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Almaniyanın ARD televiziya kanalına müsahibə verib. "Xalq qəzeti", 28 oktyabr 2020.
10. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "BBC News"a müsahibə verib. "Xalq qəzeti", 6 noyabr 2020.
11. Azərbaycanın nümayəndə heyəti BMT Baş Assambleyasının 75-ci sessiyasında Ermənistanın baş nazirinin cəfəng bəyanatlarını qətiyyətlə rədd edib. "Xalq qəzeti", 29 sentyabr 2020.
12. Azərbaycan Ordusunun həyata keçirdiyi əks-həmlə əməliyyatı uğurla davam edir. "Xalq qəzeti", 29 sentyabr2020.
13. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev: Əminəm ki, bu əks-hücum əməliyyatının bundan sonra da uğurlu nəticələri olacaqdır. "Xalq qəzeti", 29 sentyabr2020.
14. *Bakıxanov Tofiq:* Dağlıq Qarabağ Respublikası"ilə danışıqları Azərbaycan Ordusu aparır. "Xalq qəzeti", 27 sentyabr 2020.
15. **Bədəlov Ə.** Siyasi partiyalar və ictimai təşkilatlar da Ali Baş Komandana və ordumuza dəstək nümayiş etdirirlər. "Xalq qəzeti", 2 oktyabr 2020.
16. Biz qələbə çalacağıq. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət etdi. "Xalq qəzeti", 29 sentyabr2020.
17. Bütün cəbhə boyu qoşunlarımız əks-hücum əməliyyatına başlayıb. "Xalq qəzeti", 29 sentyabr 2020.
18. Bu Qələbə Azərbaycan əsgərinin cəbhədə qazandığı möhtəşəm zəfərdir. "Xalq qəzeti", 21 noyabr 2020.
19. Ermənistan qonşu dövlətlərə olan ərazi iddialarından əl çəkməli, işğalçılıq siyasətinə son qoymalıdır. "Xalq qəzeti", 29 sentyabr 2020.
20. Ermənistan silahlı qüvvələri bütün cəbhə boyu genişmiqyaslı təxribat törədib. "Xalq qəzeti", 29 sentyabr 2020.
21. Ermənistan işğalçılıq siyasətinin acısını yaşamalıdır. "Xalq qəzeti", 29 sentyabr 2020.
22. **Əmircanov P.** Bakını həm danışıqlar masasında, həm də döyüş meydanında dəstəkləməyə hazırıq. "Xalq qəzeti", 2 oktyabr 2020.

23. Fransa beynəlxalq hüququn normalarını və özünün beynəlxalq öhdəliklərini pozur. "Xalq qəzeti", 22 noyabr 2020.
24. **Hacıyev Hikmət: Ermənistanın son təxribatları ilə bağlı İsrailin nüfuzlu "i24 NEWS" kanalına müsahibə.** "Xalq qəzeti", **2 oktyabr** 2020.
25. *Hacıxanlı M.* **Türkiyənin Azərbaycana dəstəyi mənəvi və siyasidir.** "Xalq qəzeti", **6 oktyabr** 2020.
26. **Hüseynov R. Zəfər gününün astanasında.** "Xalq qəzeti", **2 oktyabr** 2020.
27. Quluzadə Ə. Qarabağa uzanan zəfər yolumuz. "Xalq qəzeti", 2 oktyabr 2020.
28. *Paşayeva Q. Prezident qətiyyəti, lider örnəyi.* "Xalq qəzeti", *7 oktyabr* 2020.
29. *Paşayeva Q.* Prezidentin cavablarındakı qətiyyət və fəlsəfə..."Xalq qəzeti",3 noyabr 2020.
30. Polkovnik-leytenant Anar Eyvazov: Hazırda Ermənistan tərəfinin çoxlu sayda canlı qüvvə itkisi var. "Xalq qəzeti", 29 sentyabr2020.
31. *Rəşid L.* **İnformasiya müharibəsi: məqsəd və hədəflər.** "Xalq qəzeti", *25 oktyabr* 2020.
32. Rusiyalı ekspert: Bazar günü səhər tezdən baş verənlər müasir Ermənistanda mövcud olan açıq-aşkar nasist rejimin mahiyyətinin qanunauyğun ifadəsidir. "Xalq qəzeti", 29 sentyabr 2020.
33. Rüstəmov A. Diqqət feyk xəbərlər... 525-ci qəzet.19 noyabr 2020.
34. Rüstəmov A. Atəşkəssiz informasiya müharibəsi. 525-ci qəzet.19 avqust 2020.
35. **Səfərov N.** Tarixi əhəmiyyətli səfər. "Xalq qəzeti", 19 noyabr 2020.
36. **Şahtaxtı S.** Azərbaycanlı qardaşlarımızla birlikdə 30 illik acıları sona çatdıran zəfərin sevincini yaşadıq. "Xalq qəzeti", 22 noyabr 2020.
37. Türkiyə hökuməti: Paşinyanın Azərbaycan və Türkiyənin ünvanına səsləndirdiyi bəyanatlar dünya ictimaiyyətini aldatmaq cəhdidir. "Xalq qəzeti", 29 sentyabr2020.
38. **Veysov E**. Müzəffər Ordumuz möhtəşəm Qələbəsi ilə ölkəmizin ərazi bütövlüyünü bərpa etdi. "Xalq qəzeti", 27 sentyabr 2020.
39. Vətən müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrildi. "Xalq qəzeti", 15 noyabr 2020.
40. *Yusifoğlu Q.Azərbaycan xalqı qəhrəman əsgərlərimizin yanındadırş.* "Xalq qəzeti",*6 oktyabr* 2020.

UOT: 81`366

ƏRƏB QRAFİKALI ƏSKİ AZƏRBAYCAN YAZISINDA ƏSL AZƏRBAYCAN SÖZLƏRİNİN ORFOQRAFİYASI VƏ ORFOEPİYASI ("RƏHBƏR" JURNALININ MATERİALLARI ƏSASINDA)

Kənan BƏŞİROV
Bakı Mühəndislik Universiteti
kbesirov@beu.edu.az / kananbashir@gmail.com
AZƏRBAYCAN

XÜLASƏ

XIX-XX əsr ərəb qrafikalı əski Azərbaycan yazısında, tarixilik və orfoqrafiya qaydaları baxımından, əsl Azərbaycan sözlərinin yazılışında bəzi fərqli xüsusiyyətlər müşahidə edilir. Mətnlərdə əsasən müasir yazı qaydaları görülsə də, orta əsrlər yazı qaydalarının da izləri müşahidə edilir. Əsrlər keçdikçə sözlərin tələffüzü dəyişmiş, mühafizəkarlığı ilə seçilən orfoqrafiya qaydaları dəyişməməmişdir. Ümumiyyətlə, bəzi yazı qaydaları standard şəkildə tətbiq edilsə də, istisnaları çox olan yazı qaydaları da vardır.

Məqalədə 1906-1907-ci illərdə nəşr olunmuş "Rəhbər" jurnalında əsl Azərbaycan sözlərinin orfoqrafiyası və orfoepiyası ilə bağlı müəyyən məsələlər tədqiq edilmişdir. Müəlliflərin diqqətindən və həssaslığından asılı olaraq, bəzi məqalələrdə orfoqrafiya qaydalarına əməl edilmiş, bəzilərində isə tələffüzə xas olan xüsusiyyətlər yazıda əks etdirilmişdir.

Açar sözlər: əski Azərbaycan yazısı, "Rəhbər" jurnalı, orfoqrafiya, əsl Azərbaycan sözləri

ORTHOGRAPHY AND ORTHOEPY OF ORIGINAL AZERBAIJANI WORDS IN OLD AZERBAIJANI WRITING IN ARABIAN GRAPHICS (BASED ON THE MATERIALS OF THE JOURNAL "RƏHBƏR")

ABSTRACT

Some different features are observed in spelling of original Azerbaijani words in the XIX-XX century old Azerbaijani writing in Arabian graphics in terms of historicity and spelling rules. Though mainly modern writing rules are observed in the texts, the traces of the Middle Ages' writing rules are seen. The pronouncation of the words were changed as the centuries passed, but spelling rules that were distinct with their conservatism weren't changed. Though generally some spelling rules are applied in a standard way, there are spelling rules which have more exceptions.

In the article some issues related with writing and correct pronouncation of original Azerbaijani words published in the journal "*Rəhbər*" in the years 1906-1907 were studied. Depending on the authors' attention and sensitivity, spelling rules were followed in some articles, and features concerning to pronouncation were reflected in writing in some of them.

Keywords: old Azerbaijani writing, the journal "*Rəhbər*", writing, original Azerbaijani words

ОРФЕПИЯ ИСПОЛЬЗОВАННЫХ АЗЕРБАЙДЖАНСКИХ СЛОВ В СТАРОАЗЕРБАЙДЖАНСКОЙ ПИСЬМЕННОСТИ С АРАБСКОЙ ГРАФИКОЙ (ПО МАТЕРИАЛАМ ЖУРНАЛА «РЕХБЕР»)

РЕЗЮМЕ

С точки зрения историчности и правил правописания в написании настоящих азербайджанских слов староазербайджанским письмом с арабской графикой XIX- XX веков наблюдаются некоторые особенности. Хотя в текстах можно увидеть современные правила письма, можно наблюдать и следы средневековых правил письма. На протяжении веков менялось произношение слов, но не менялись консервативные правила правописания. В целом, хотя некоторые правила написания применяются стандартным образом, существуют также правила написания со многими исключениями.

В статье были изучены некоторые вопросы, связанные с правописанием и правильным чтением настоящих азербайджанских слов в журнале «Рехбер», издаваемом в 1906-1907 годах. В зависимости от внимания и чуткости авторов одни статьи следовали правилам правописания, другие отражали особенности произношения в тексте.

Ключевые слова: древнеазербайджанская письменность, журнал «Рехбер», правописание, настоящие азербайджанские слова.

Ərəb qrafikalı əski Azərbaycan yazısında əsl Azərbaycan sözlərinin yazılışı ilə əlaqədar müəyyən məsələlər var. Son əsrlərdə tələffüz dəyişsə də, bəzi sözlər orta əsrlərdəki yazılış qaydalarına uyğun yazılır. Bu baxımdan "Rəhbər" jurnalındakı əsl Azərbaycan sözlərini düzgün oxumaq üçün müəyyən orfoqrafiya qaydalarını bilmək lazımdır.

Bu qaydalardan bəzilərini aşağıdakı kimi qruplaşdırmaq olar:

Qoşa samitin yazılışı

Ərəb sözlərinin yazılışında digər köməkçi işarələr kimi, şəddə də əsasən istifadə edilmədiyi üçün bu əsl Azərbaycan sözlərinin orfoqrafiyasına də təsir etmiş, əslində cüt səsli olan sözlər tək hərflə göstərilmişdir:

دوقوز	سكز	قاقلداشه قاقلداشه	آغ سقاللاريندن
doqquz	səkkiz	qaqqıldaşa- qaqqıldaşa	ağsaqqallarından

Sağır nun

Bir zamanlar ədəbi dilimizdə mövcud olan və bu gün sadəcə bəzi dialektlərdə işlənən sağır nun (ñ) səsi əski Azərbaycan yazısında üç nöqtəli "kəf" hərfi ilə göstərilir. ڭ hərfi dilimizdə ona ən yaxın olan "n" səsi ilə tələffüz edilir.

Sağır nunlu sözlər

آڭلامارام	داڭلامه	يڭی	ديڭليوب	ياڭلدوم
anlamaram	danlama	yeni	dinləyib	yanıldım
تاڭری	ميڭ	كوڭلده	يالڭز	بڭزی
Tanrı	min	könüldə	yalnız	bənizi

Bəzi şəkilçilərdə də sağır nun hərfi işlənir:

Yiyəlik hal

Yiyəlik hal şəkilçiləri (-ın[4], -nın[4]) samitlə bitən sözlərdə sağır nun (ñ) səsini göstərən ڭ ilə, saitlə bitən sözlərdə نڭ ilə yazılır. Kəf hərfinin sonda ڭ və ك olmaqla, hər iki variantından istifadə edilir. Şəkilçinin saiti yazıda göstərilmir:

جنبشك	سويوغك	بولمه لرگ	قزجغازك
cünbüşün	soyuğun	bölmələrin	qızcığazın
قصه نك	قافيه نيڭ	كيسه نڭ	روسيا نڭ
qissənin	qafiyənin	kisənin	Rusiyanın

Yönlük hal

Mən, **sən**, **o** əvəzliklərinin yönlük halda təsrifində sağır nunu görmək olar:

مڭا (mənə), سڭا (sənə), اوڭا (ona)

Mənsubiyyət şəkilçiləri

- II şəxsin təkinin mənsubiyyət şəkilçisi (-n, -ın[4]) "sağır nun" (ñ) ilə yazılır: ڭ / ك
- II şəxsin cəminin mənsubiyyət şəkilçisi (-nız[4],-ınız[4]) "sağır nun" (ñ) ilə yazılır: ڭز

Şəxslər	Tək				Cəm			
	Samitlə bitənlərdə		Saitlə bitənlərdə		Samitlə bitənlərdə		Saitlə bitənlərdə	
II Şəxs	-ın[4] ک		-n ک		-ınız[4] کز		-nız[4] کز	
	کتابڭ	kitabın	قوزوڭ	quzun	باشڭز	başınız	آتڭز	atınız
	قلمڭ	qələmin	ننه ڭ	nənən	دردیڭز	dərdiniz	ایکڭز	ikiniz
	یولڭ	yolun	قوروڭ	quru	معلومڭز	məlumunuz	قوزوڭز	quzunuz
	گوزڭ	gözün	سوروڭ	sürün	دوتدوقڭز	dutduğunuz	اولوڭز	ölünüz

Xəbərlik şəkilçiləri

Xəbərlik şəkilçilərində 2-ci şəxsin təkində **n** işləndiyi halda, cəmdə sağır nun işlənir.

Şəxslər	Tək				Cəm			
	Samitlə bitənlərdə		Saitlə bitənlərdə		Samitlə bitənlərdə		Saitlə bitənlərdə	
II Şəxs	-san سان		-sən سن		-sınız[4] سڭز			
	مسلمانسان	müsəlmansan	فردسن	fərdsən	انسانسڭز	insansınız	مأذونسڭز	məzunsunuz

Şühudi keçmiş zaman

Şəxslər	Tək				Cəm			
II Şəxs	تاپدالادك	باتدڭ	اویاندك	اتدك	آلدڭز	ایشتدڭز	دوردڭز	کوردڭز
	tapdaladın	batdın	oyandın	etdin	aldınız	eşitdiniz	durdunuz	gördünüz

Nəqli keçmiş zaman

Nəqli keçmişdə II şəxsin cəmində həm **-sız[4]**, həm də **-sınız[4]** şəkilçiləri işlənə bilir. Sadəcə **-sınız[4]** şəkilçisində **n** samiti ڭ ilə yazılır: ویروبسڭز (veribsiniz)

İndiki zaman

İndiki zamanda II şəxsin cəminin təsrifində -**sız[4]** (سز) şəxs şəkilçisi ilə yanaşı, sağır nun hərfi ilə yazılan -**sınız[4]** (سڭز) şəkilçisindən də istifadə olunur: ایستیورسڭز (istəyirsiniz), استیورسڭزسه (istəyirsinizsə)

Qeyri-qəti gələcək zaman

2-ci şəxsin təkində **n** işləndiyi halda, cəmdə sağır nun işlənir.

Şəxslər	Tək		Cəm	
II Şəxs	اولارسان	کتوررسن	اولارسڭز	کلرسڭز
	olarsan	gətirərsən	olarsınız	gələrsiniz

Arzu şəkli

چکه سڭز (çəkəsiniz), ویره سڭز (verəsiniz),گلسه ڭز (gələsiniz)

Şərt şəkli

باخساڭ (baxsan), ویرسه ڭز (versəniz), استیورسڭسه (istəyirsinizsə)

Əmr şəkilçiləri

Əmr şəklində II şəxsin cəmində həm -**ıñ[4]** (ڭ) həm də -**ıñız[4]** (ڭز) şəkilçisi işlənir:

آسڭز (asınız), ایدڭز (ediniz),بویورڭز (buyurunuz), گورڭ (görün)

q-x məsələsi

Bu gün sözün ortasında və axrında **x** ilə tələffüz edilən və yazılan sözlərin əski Azərbaycan yazısında əsasən **q** (ق) ilə yazıldığını görürük. Ancaq eyni sözün bəzən **x** ilə də yazılması bu halın bir orfoepiya deyil, orfoqrafiya məsələsi olduğunu göstərir:

اوقومشلار (oxumuşlar), اوخومشلار (oxumuşlar), اوخومشلارك (oxumuşların), اوخومشی (oxumuşu), چخاریر (çıxarır), چقارتدی (çıxartdı), چخاردمامقمز (çıxardmamağımız), یوق (yox), یوخ (yox), یوقسا (yoxsa), یوخسه (yoxsa), ساخلاماق (saxlamaq), اوخوماقی (oxumağı), قالخماقه (qalxmağa), داریخدقلاریندە (darıxdıqlarında)

k-g / q-ğ məsələsi

Ərəb qrafikalı əski Azərbaycan yazısında sonu ک ilə bitən sözlərə saitlə başlayan şəkilçi gəldikdə گ ک -ə çevrilir. Sonu ق ilə bitən sözlərə saitlə başlayan şəkilçi qoşulduqda isə ق olduğu kimi qalır, əsasən غ -a çevrilmir.

گوردوگی	گیتدوگی	آجلقه	یاشادوقمز
gördügü	getdigi	aclığa	yaşadığımız

Jurnaldakı nümunələrdən ق hərfinin qorunmasının tələffüz deyil, bir yazı qaydası olduğu başa düşülür. Bunun əksinə, گ -li sözləri **g** səsi ilə oxumaq lazımdır.

q-x məsələsində olduğu kimi, eyni sözdə bəzən **q**, bəzən də **ğ**-nin işləndiyini görmək olar:

اوطاقنه (otağına), اوطاغنه (otağına), قباقنی (qabağını), قباغنده (qabağında), آیلغی (aylığı) və s.

Eyni zamanda, ədəbi dildə sonu **q** ilə bitən bəzi sözlər "Rəhbər"də tələffüzdə olduğu kimi, **ğ** ilə yazılmışdır:

ایاغسزلارڭ	بویاغلار	باتغلار	قولاغلارین
ayağsızların	boyağlar	batığlar	qulağların
سنغ	قارماغ	سالاغ	سویوغ
sınığ	qarmağ	sallağ	soyuğ

Ehtimal ki, ədəbi dil tam formalaşmadığı üçün dialektlərə xas bəzi başqa tələffüz formalarını da jurnalın səhifələrində görürük:

چیکلدی	اولماسون	اولسوق	باخسوق
çekildi	olmason	olsoq	baxsoq

t-d məsələsi

Əski Azərbaycan yazısında hecanın qalın, yaxud incə saitli olmasından asılı olmayaraq, **t** səsi əsasən ت hərfi ilə yazılsa da, bəzi sözlərdə orta əsrlərdəki orfoqrafiya qaydasına uyğun olaraq qalın saitli hecalarda ط hərfinin işləndiyini görürük:

اوطاق	طوغولانده	طاغارجقند	طوغری
otaq	doğulanda	dağarcıqdan	doğru

Buna baxmayaraq, az da olsa, müəyyən sözlər eyni zamanda həm **t**, həm də **d** ilə yazılır:

طوغروجه (doğruca), دوغروسنی (doğrusunu), طوغری (doğru), دوغرو (doğru), دوغرودر (doğrudur), دوغاجاقی (doğacağı), اوتاغی (otağı) və s.

Avropa dillərindən alınma sözlərdə hecanın qalın olduğunu göstərmək üçün ط hərfindən istifadə edilir ki, bu da ehtimal ki, oxucuya tanış olmayan yeni sözlərin doğru oxunmasını təmin etmək üçündür: غوبرناطور (qubernator), ایمپراطور (imperator), سنطبر (sentyabr)

"S" səsinin yazılışı

Əski Azərbaycan yazısında hecanın qalın, yaxud incə saitli olmasından asılı olmayaraq, "**s**" səsi əsasən س hərfi ilə yazılsa da, bəzi sözlərdə orta əsrlərdəki orfoqrafiya qaydasına uyğun olaraq qalın saitli hecalarda ص hərfinin işləndiyini görürük: صو ڭره کی (sonrakı)

Avropa dillərindən alınma sözlərdə isə hecanın qalın olduğunu göstərmək üçün ص hərfindən istifadə edilir: قومصیه (komissiya)

Klassik yazılış

Əhməd Cəfəroğlunun təsnifatına (Türk Dili Tarihi, İstanbul, Enderun Kitabevi, 1984, s. 52) görə Əski türkçə mərhələsindən (VI-IX əsrlər) Orta türkçə (X-XVI əsrlər) mərhələsinə keçərkən söz sonunda **-q**, **-k** kimi səslərin düşməsi nəticəsində son saiti yuvarlaqlaşan sözlər əski Azərbaycan yazısında dodaqlanan saitlə yazılır:

qapı	irəli	geri	hamı
قاپو	ایره لو	کرو	هامو

Bəzən bu sözlərdə düz saitin də yazıldığını görürük: ایره لی (irəli), کری در (geridir)

Şəkilçi səviyyəsində və bəzən müstəqil söz səviyyəsində də yuvarlaq saitlərin çox işləndiyini müşahidə edirik:

یاپوشمیالار (yapışmayalar), باغلودر (bağlıdır), دهشتلو (dəhşətli), ویرگوسیندن (vergisindən), قالدوقده (qaldıqda), یانقوسیله (yanğısıyla), آرتوقلقی له (artıqlığıyla), آغرو (ağrı), آرتوق (artuq), بیلوک (bilik), آرترسونلار (artırsınlar), ایچون (üçün), یالغوز (yalqız)

Eyni zamanda **o** əvəzliyinin yiyəlik və təsirlik halda orta əsrlərdəki orfoqrafiyaya uyğun yazılışı davam edir: آنڭ (onun), آنی (onu)

Yazıda göstərilməyən saitlər

Əsl Azərbaycan sözlərində söz kökündə **ə** səsi xaric bütün saitlər yazılsa da, **bir**, **biz**, **siz**, **beş** və s. sözlərdəki sait səs əsasən göstərilmir:

بر	بش	بزم	سزه
bir	beş	bizim	sizə

Hərflərin ixtisarı

Təkrardan qaçmaq üçün adətən sözlərdə eyni növdən olan hərflərin biri ixtisara salınır:

یر	ینه	نیه
yer	yenə	niyə
یڭی	یریوب	دیردی
yeni	yeriyib	deyərdi

Söz sonunda "a" səsi

Əsl Azərbaycan sözlərində, eləcə də əsl Azərbayan sözləri kimi yazılan Avropa dillərindən alınma sözlərdə sözün sonundakı **a** səsi ا ilə yazılsa da, bəzi nümunələrdə onu **hə** ه hərfi əvəz edir:

قارغه (qarğa), یومورته (yumurta), مارقه سز (markasız), قوجه (qoca)

Alınma sözlərin Azərbaycan dilinə uyğunlaşdırılması

Ərəb-fars dillərindən dilimizə keçən sözlər əski Azərbaycan yazısında əslinə uyğun yazılsa da, tələffüzü tamamilə dəyişmiş bəzi sözlərin orfoqrafiyasının da dəyişdiyini, əsl Azərbaycan sözlərinin yazılışına uyğunlaşdırıldığını görürük:

	Əski Azərbaycan yazısında	Əslində
sığallamağa	سغالامقه	صیقل
arvadlar	آروادلار	عورت
adamıdır	آدامیدر	ادم

Sonu ی və ه ilə bitən sözlərdən sonra şəkilçilərin ayrı yazılması

Əgər sözün sonu sait səsi ifadə edən ی və ya ه hərflərindən biri ilə bitərsə, bu hərflərin samit deyil, sait səsi ifadə etdiyini göstərmək üçün sözə qoşulan şəkilçilər ayrı yazılır, söz kökünə birləşdirilmir:

بوزمه سز	مارقه سز	کورپه لگندن	گیجه سنی
büzməsiz	markasız	körpəligindən	gecəsini
اینجیتمه میشم	دیلنچی لك	اکنچی لکده	دیشی نك
incitməmişəm	dilənçilik	əkinçilikdə	dişinin

Mürəkkəb sözlərin yazılışı

Mürəkkəb sözlər ayrı yazılır:

اوزلیلك ایکی	آغ سقاللاردان	آغ سقاللاریندن
ikiüzlülük	ağsaqqallardan	ağsaqqallarından
اوزون قولاغ	آغزی بردر	
uzunqulaq	ağzıbirdir	

"Rəhbər" jurnalı nümunəsində göründüyü kimi, Azərbaycan dilinin qədim dövrlərindəki səs xüsusiyyətlərini əks etdirən bəzi yazı formaları 20-ci əsrə qədər varlığını qorumuşdur. Belə yazı formalarını son bir neçə əsrə aid mətnlərdə bu günkü tələffüzə görə oxumaq lazımdır. Çünki, əsrlər keçdikcə ərəb qrafikalı əski Azərbaycan yazısında işlənən müəyyən sözlərin və şəkilçilərin orfoqrafiyası dəyişməsə də, tələffüzü dəyişmişdir.

ƏDƏBİYYAT

1. Aslanov, M., "Rəhbər" jurnalının tarixindən, "Azərbaycan müəllimi" qəz., Bakı: 1968, 5 may.
2. Aşırlı Akif. Azərbaycan mətbuatı tarixi (1875-1920), Elm və Təhsil, Bakı, 2009, 171 s.
3. Bayramoğlu Alxan. "Dəbistan", "Məktəb", "Rəhbər"-pedoqoji jurnalistikamız: 22 iyul Milli Mətbuat günüdür, "Azərbaycan müəllimi" qəz. Bakı: 2011, 22 iyul.
4. Eminov A. İlk pedoqoji jurnallarımız "Dəbistan" və "Rəhbər", "Azərbaycan müəllimi" qəz., Bakı, 1981, 30 dekabr.
5. Əlizadə Samət. Əski Azərbaycan yazısı. Bakı: Bakı Universiteti Nəşriyyatı, 1993, 141 s.
6. Ərəb və fars sözləri lüğəti / AMEA Nəsimi adına Dilçilik İnstitutu, Bakı: Yazıçı, 1985, 1035 s.
7. Hacıyeva Zəminə. Əski əlifba. Bakı: Elm Nəşriyyatı, 1989, 78 s.
8. Məmmədov Əflatun. "Dəbistan", "Məktəb" və "Rəhbər" jurnalları. Bakı: Maarif, 1983
9. Mərdanov Misir. Azərbaycan təhsil tarixi. 3 cilddə, I cild, 295 s. Bakı: Təhsil nəşriyyatı, 2011.
10. "Rəhbər" jurnalı, 5 nömrədə, 1-5-ci № / Mahmud bəy Mahmudbəyovun naşirliyi və redaktorluğu ilə. Bakı: "Füyuzat" və "Kaspi" qəzetinin mətbəəsi, 1906-1907, 89 s.
11. Rüstəmova Təhminə. Əski əlifba. Bakı: "Azərbaycan Ensiklopediyası" Nəşriyyat-Poliqrafiya Birliyi, 1996, 82 s.
12. Tanrıverdi Əzizxan. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı: Elm və təhsil, 2017, 538 s.
13. Develi Hayati. Osmanlı Türkçesi Kılavuzu 1. İstanbul: 3F, 2006, 443 s.
14. Develi Hayati. Osmanlı Türkçesi Kılavuzu 2. İstanbul: Kesit, 2012, 442 s.
15. Devellioğlu Ferit. Osmanlıca-Türkçe Ansiklopedik Lügat. Ankara: Aydın kitabevi yayınları, 1993, 1195 s.
16. Sami Şemseddin. Kâmus-ı Türki. İstanbul: Enderun,1989, 1074 s.
17. Kaplan Muharrem. Sovyet dönemi öncesi azerbaycan matbuati araştirmalari bibliyografyasi // Journal of Qafqaz University. Philology and Pedagogy, Bakı: 2013, C.1, № 2, s. 147-162

UOT: 81`28;81`286

"AZƏRBAYCAN DİLİNİN QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR DİALEKTOLOJİ ATLASI"NIN STRATEJİ ƏHƏMİYYƏTİ VƏ ANA DİLİMİZ TARİXİN İZİNDƏ

Zabitə M.TEYMURLU
Bakı Mühəndislik Universiteti
zteymurlu@beu.edu.az

XÜLASƏ

"Azərbaycan dilinin Qarabağ və Şərqi Zəngəzur dialektoloji atlası"Azərbaycan dilinin dialekt və şivələrinin yeni materiallar əsasında tədqiqi işində üçüncü uğurlu tədqiqatdır. Xalqın yaşatdığı dil nümunələrinin ilk dəfə xəritə təsviri 1990-ci ildə "Azərbaycan dilinin dialektoloji atlası"nın tərtibi ilə həyata keçirilib. İkinci mühüm addım 2014-ci ilin iyun-oktyabr aylarında Naxçıvan Muxtar Respublikasına çoxsaylı elmi ekspidisiyaların təşkil edilməsi ilə başa çatıb. Ekspedisiyalar zamanı Naxçıvan Muxtar Respublikasının 151 yaşayış məntəqəsindən zəngin dialektoloji material toplanmış və bu faktlar əsasında 250 xəritədən ibarət "Azərbaycan dilinin Naxçıvan dialektoloji atlası" tərtib olunmuşdur. Dil hadisələrinin yayılma ərazisi və müasir vəziyyəti baxımından dialekt və şivələrin tədqiqi istiqamətində öyrənilməsi dialektoloji atlasların tərtib edilməsində xüsusi əhəmiyyət kəsb edir. Məqalədə AMEA Nəsimi adına Dilçilik İnstitutunun Azərbaycan dialektologiyası şöbəsinin əməkdaşlarının "Azərbaycan dilinin Qarabağ və Şərqi Zəngəzur dialektoloji atlası"nın hazırlanmasında gördükləri işlərdən bəhs edilmiş, topladıqları dil materiallarının tarixi əhəmiyyəti vurğulanmışdır.Tədqiqat zamanı dialektoloji faktlar qohum dillərlə müqayisə edilmiş və ortaq xüsusiyyətlər müəyyənləşdirilmişdir.

Açar sözlər: "Azərbaycan dilinin Qarabağ və Şərqi Zəngəzur dialektoloji atlası", tərtibi prinsipi, dil materialları, tarixi faktlar

THE STRATEGIC IMPORTANCE OF THE "KARABAKH AND EASTERN ZANGEZUR DIALECTOLOGICAL ATLAS OF THE AZERBAIJANI LANGUAGE" AND OUR NATIVE LANGUAGE IN THE TRACES OF HISTORY

ABSTRACT

"Karabakh and Eastern Zangezur dialectological atlas of the Azerbaijani language" is the third successful study in the study of dialects and dialects of the Azerbaijani language based on new materials. For the first time, the map description of the language patterns spoken by local people was carried out in 1990 with the compilation of the "Dialectological atlas of the Azerbaijani language". The second important step was completed with the organization of numerous scientific expeditions to the Nakhchivan Autonomous Republic in June-October 2014. During the expeditions, rich dialectological material was collected from 151 settlements of the Nakhchivan Autonomous Republic, and based on these facts, the "Nakhchivan dialectological atlas of the Azerbaijani language" consisting of 250 maps was compiled. The study of language phenomena in the direction of the study of dialects and dialects in terms of their distribution area and modern state is of special importance in the compilation of dialectological atlases. In the article, the work done by the employees of the Azerbaijani dialectology department of the Nasimi Institute of Linguistics of ANAS in the preparation of the "Dialectological atlas of Karabakh and Eastern Zangezur of the Azerbaijani language" was discussed, and the historical significance of the language materials they collected was emphasized. In the cource of the linguistic studies comparison of dialectical facts between relative languages, gave us the opportunity to determine their common specific features.

Keywords: "Karabakh and Eastern Zangezur dialectological atlas of the Azerbaijani language", principle of compilation, language materials, historical facts

СТРАТЕГИЧЕСКОЕ ЗНАЧЕНИЕ «КАРАБАХСКОГО И ВОСТОЧНО-ЗАНГЕЗУРСКОГО ДИАЛЕКТОЛОГИЧЕСКОГО АТЛАСА АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА» И РОДНОГО ЯЗЫК В СЛЕДАХ ИСТОРИИ

РЕЗЮМЕ

«Карабахский и восточно-зангезурский диалектологический атлас азербайджанского языка» является третьим успешным исследованием по изучению диалектов и диалектов азербайджанского языка на основе

новых материалов. Впервые картографическое описание языковых образцов, бытовавших у народа, было осуществлено в 1990 году при составлении «Диалектологического атласа азербайджанского языка». Второй важный шаг был завершен организацией многочисленных научных экспедиций в Нахчыванскую Автономную Республику в июне-октябре 2014 года. В ходе экспедиций был собран богатый диалектологический материал из 151 населенных пунктов Нахчыванской Автономной Республики, и на основе этих фактов был составлен «Нахчыванский диалектологический атлас азербайджанского языка», состоящий из 250 карт. Особое значение при составлении диалектологических атласов имеет изучение языковых явлений в направлении изучения диалектов и говоров с точки зрения ареала их распространения и современного состояния. В статье рассмотрена работа, проделанная сотрудниками отдела азербайджанской диалектологии института языкознания имени Насими при НАНА по подготовке «Диалектологического атласа азербайджанского языка Карабаха и Восточного Зангезура», а также подчеркнто историческое значение собранных языковых материалов. В ходе лингвистических исследований сравнивались диалектологические факты родственных языков и определялись их общие черты.

Ключевые слова: «Карабахский и восточно-зангезурский диалектологический атлас азербайджанского языка», принцип составления, языковые материалы, исторические факты.

Bildiyimiz kimi, dilçilikdə dialektlərin tədqiqinin iki yolu mövcuddur: 1) Monoqrafik yol 2) Dilçilik coğrafiyası yolu. Monoqrafik tədqiqat fərdi və ya ekspedisiya yolu ilə aparıla bilər. Bu da konkret bir şivə və ya şivələr qrupunu əhatə edir. Dilçilik coğrafiyası isə fonetik, morfoloji, leksik dil hadisələrinin coğrafi cəhətdən yayılmasını və onların sərhədlərini xəritələrlə müəyyənləşdirir. Bu yol da dialektoloji atlasın hazırlanmasında mühüm rol oynayır. Dilçilk coğrafiyası metodu dilçilik sahəsi olduğu üçün möhkəm linqvistik əsaslara malikdir. Professor Məhərrəm Məmmədli metodun linqvistik əsaslarına dil materialının toplanması, şəbəkələrin tərtibi üçün məntəqələrin, informatorların seçilməsi, sözlüyün tərtibi prinsipləri, izoqloss metodikasının müəyyənləşdirilməsi, fonetik traskripsiyanın hazırlanması prinsipi, materialın sistemli təsviri, materialın pasportlaşdırılması, atlasın üzvlənməsi və s. daxil edir (Məmmədli, 2019:17).

Azərbaycan dilinin Qarabağ və Şərqi Zəngəzur dialektoloji atlası"nın hazırlanmasında AMEA Nəsimi adına Dilçilik İnstitutunun Azərbaycan dialektologiyası şöbəsinin əməkdaşları tərəfindən müəyyən hazırlıq işləri görülmüş, tədqiqat aparılacaq ərazinin tarixi, etnoqrafiyası və dil xüsusiyyətləri ilə tanış olunmuş, müşahidə aparılacaq yaşayış məntəqələri müəyyənləşdirmiş, yerli təşkilatlar və əhali ilə əlaqə yaradılmışdır. Bu mərhələ tamamlandıqdan sonra "Dialektoloji atlas" üçün uyğun dil materialları toplanması işi yerinə yetirilmişdir.

Məsələ burasındadır ki, tədqiqata cəlb olunan ərazi mənfur ermənilər tərəfindən 1988-1993-cü illərdə işğal edilmiş və əhalisi də öz ata-baba yurdundan didərgin salınmışdır. AMEA-nın Azərbaycan dialektologiyası şöbəsinin əməkdaşları, başqa sözlə desək, fədailəri, nə qədər çətin olsa da, 2015-ci ildən başlayaraq "Azərbaycan dilinin Qarabağ və Şərqi Zəngəzur dialektoloji atlası"nın tərtibi ilə bağlı işlərə başlamış və nəticə etibarilə 2015-2019-cu illərdə Azərbaycan Respublikasının bir çox rayonlarına ekspedisiyalar təşkil etmiş, burada məskunlaşmış əhalidən informasiya toplaya bilmişlər. İlk ekspedisiya 2015-ci ilin oktyabr-noyabr aylarında Bərdə rayonunda həyata keçirilmişdir. Sonrakı mərhələdə Ağdam, Ağcabədi, Tərtər, Füzuli rayonlarına da elmi ekspedisiyalar təşkil olunmuş, eyni zamanda Cəbrayıl, Laçın, Ağdərə, Xocavənd, Kəlbəcər, Xocalı, Xankəndi, Qubadlı və Şuşa rayonlarının sakinləri ilə respublikanın müxtəlif ərazilərində görüşlər keçirilmiş və informatorlardan eşidilənləri dəftərlərə yazmaqla və ya danışığı diktofona köçürmək yolu ilə lazımi dialektoloji materialları əldə etmişlər. Ekspedisiya zamanı dilçi-dialektoloqlar ayrı-ayrılıqda suallar əsasında tərtib etdikləri proqrama

əsaslanmış və həmin suallara uyğun xəritə mövzuları hazırlanmışdır. Proqramın fonetikaya dair suallarını dosent Kifayət İmamquliyeva, morfologiyaya (isim) aid professor Məhərrəm Məmmədli, sifət, say, əvəzlik, zərf dosent Kubra Quliyeva, feil və köməkçi nitq hissələri dosent Qüdsiyyə Qəmbərova, sintaktik cəhətlər elmi işçi Səkinə Şərifova, leksika bölməsi isə dosent Güntəkin Binnətova tərəfindən tərtib edilmişdir. İnformatorlarla görüş zamanı ona əvvəlcədən hazırlanmış variantlar təqdim edilmiş və bu variantlar nəticəsində dil faktları dəqiqləşdirilmişdir. Gərgin iş nəticəsində minə yaxın yaşayış məntəqəsindən toplanılan məlumatların 692-si kodlaşdırılmış və dil faktları "Dialektoloji atlas"da 278 xəritədə öz əksini tapmışdır. Burada fonetik hadisələrə 69, morfologiyaya 141, leksikaya 68 xəritə həsr olunmuşdur. "Dialektoloji atlas" türk, rus, ingilis dillərinə də tərcümə olunmuşdur. Dialektoloji şöbənin əməkdaşları 2015-ci ildə "Azərbaycan dilinin Naxçıvan dialektoloji atlası" nın hazırlanmasında Azərbaycan Respublikasının üçrəngli bayrağının rənglərinə uyğun olaraq fonetik xüsusiyyətlərin göy, qrammatik səciyyəviliyin qırmızı, leksik əlamətlərin isə yaşıl rəngli səhifələrdə verilməsi ənənəsini "Azərbaycan dilinin Qarabağ və Şərqi Zəngəzur dialektoloji atlası"nın tərtibində də davam etdirmişlər.

"Dialektoloji atlas"da Azərbaycan Respublikasının fiziki xəritəsi, tarixi hadisələri və qədim əraziləri əks etdirən şəkillər (Şuşada Azərbaycan bayrağı, Şuşa qalası, Azərbaycan və Türkiyə qardaşlığı, Azərbaycan və Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsinin imzalanması, Əsgəran qalası, Xudafərin körpüsü, Şuşada Novruz tonqalı, Azıx mağarası, "Marağa-150" abidəsi, Şeyx Babı Yaqut türbəsi, Qarabağ və Gəncə xanlıqlarının sərhədi, Zəfər paradı, Xarıbülbül çiçəyi, Qarabağ müharibəsi şəhidlərinin anım günü, Şahbulaq qalası, İbrahim məscidi və qəbiristanlığı, "Allah-Allah" türbəsi, Qubadlı mənzərəsi, Lələtəpə, Cocuq Mərcanlı kəndi, Tərtər çayı) və müxtəlif materiallar toplanmışdır. Yaşayış məntəqələrinin siyahısı və xəritələrdəki kodu, proqramda və xəritələrdə istifadə olunmuş şərti işarələr, atlasın tərtibi üçün proqram da atlasa əlavə olunmuşdur. Atlasda xəritə 1-69 arası fonetik xüsusiyyətlər, xəritə 70-191 arası morfoloji səciyyəvilik, xəritə 192-210 sintaksis göstəricilər, xəritə 211-278 leksik əlamətlər öz əksini tapır. Eləcə də atlasın elektron versiyası və informatorların səs yazısından ibarət kompakt disk də bura əlavə edilmişdir.

Dildə heç nə izsiz yox olub getmir. Bütün hadisə və proseslər xalq təfəkkürünün ifadəsi olan dildə yaşayır.Uzun əsrlərdən bəri ümumxalq Azərbaycan dilində işlək olan bu dil faktları ədəbi dildən fərqli olaraq şivələrimizdə qorunub saxlanmışdır. AMEA Nəsimi adına Dilçilik İnstitutunun Azərbaycan dialektologiyası şöbəsinin əməkdaşları tarixin izinə düşərək bir daha sübut etdilər ki, xalqın tarixi onun canlı xalq danışıq dilində, dialekt və şivələrindədir.

Ermənilərin iddiasında olduqları Qarabağ ərazisi tarixən Azərbaycana aid olmuş dədə-baba yurdudur. Ermənilər öz məkrli siyasətləri nəticəsində Qarabağın müəyyən hissəsini zəbt etsələr də, öz iddialarından əl çəkmirlər. İrandan Qarabağa köçürülməsinin (1828-ci il) 150 illiyi münasibətilə ermənilərin 1978-ci ildə Ağdərədə ucaltdıqları "Marağa-150" abidəsi işğalçı ermənilərin bu əraziyə gəlmə olduqlarını öz abidələri ilə isbat etmişlər. Lakin 1988-ci ildə gəlmə faktını danmaq üçün abidə ermənilər tərəfindən dağıdılmışdır. Hal-hazırda Tərtər rayonunun Şıxarx qəsəbəsi ərazisi hesab olunan bu ərazidə ucaldılan həmin abidənin dağıdılmış vəziyyətinin şəkli də "Dialektoloji atlas"da canlı fakt kimi öz əksini tapır.

"Dialektoloji atlas"da qeyd olunan dil materiallarına tarixi-müqayisəli aspektdən yanaşdıqda digər türk dilləri ilə uyğun gələn bir çox dil faktları aşkara çıxır. Bunlara dialekt leksikasında, fonetik və qrammatik strukturda təsadüf etdiyimiz dil nümunələrini misal göstərə bilərik. Qarabağ və Şərqi Zəngəzur ərazisinə xas olan fonetik, qrammatik, leksik dil materiallarının toplanması tarixi səciyyə daşıyır. Bu materiallar bir daha sübut edir ki, qeyd olunan ərazilər turk yurdu olub və olmaqdadır. Digər türk dilləri ilə ortaq xüsusiyyətlərin mövcudluğu buna əyani sübutdur. Məsələn, "Dialektoloji atlas"da qeyd olunan bir çox fonetik xüsusiyyətlər müasir türk dili ilə eynilik təşkil edir:

Xəritə 6- da qeyd olunan dilönü *ə* saitinin dilarxasına doğru meyl etməsi hadisəsi: *hayat, xabar/xavar, xamır, cuma, axrəp*; türk dilində *hayat, haber, cuma, akrep.*

Xəritə 7-də qeyd olunan açıq *ə* saitinin müqabilində dilönü qapalı *i* variantının işlənməsi: Fars mənşəli *zəncir* sözü *zincir/zincil*; türk dilində *zincir.*

Xəritə 9-da sözün birinci hecasında *o>a* səs əvəzlənməsi:*qavırma/qavurma, qavırğa/qavurğa, qavırqa/qavurqa/qaurğa, av, savırmax/savurmax, qavzamax/qauzamax*; türk dilində *kavurma, kaburga, av, savurmak, kapsamak.*

Xəritə 12-də dilönü dodaqlanan açıq *ö* saitinin digər açıq səs variantlarına meyl etməsi: fars mənşəli *cövşən>kefşən "zireh", evlat, devlet*; türk dilində *cevşen, evlat, devlet.*

Xəritə 14-də dilönü *i* saitinin dilarxasına doğru meyil etməsi:*ıldırım, ılıx, ışıx, ılan/yılan, sıçan*; türk dilində də *yıldırım, ılık, ışık, yılan, sıçan*

Xəritə 20-də dodaqlanan açıq *ö* saitinin müqabilində dodaqlanan qapalı *ü* variantının işlənməsi: *hürmət, hücət, hükümət*; türk dilində *hürmet, hüccet, hükumet*.

Xəritə 53-də anlautda dilarxası novlu *x* samitinin müqabilində udlaq *h* variantının işlənməsi:*hırman/hərmən, haşıl/haşil/həşil/həsil, horuz, hurçun, haraba, hortum, horultu, hala, hal, hamır*; türk dilində-*hırman, haşıl, horoz, hurcun, harabe, hortum, horultu, hala, hamur.*

Xəritə 60-da sözün ilk və ya son hecasında *ov* elementinin dəyişmə variantları: *davşan, avçı, yavşan*; türk dilində *-tavşan, avcı, yavşan*.

Xəritə 66-da metateza hadisəsinin baş verdiyi nümunələr qeyd olunub: *qaylan(qalyan), üysüx(üsküx/üsgüx),dəvriş(dərviş),toprax,tofrax(torpax),maydan(madyan),örgəmmək(öyrənmək),axsırmax(asqırmaq), İrbahım/İrvahım/İrbaham/İrba:m(İbrahim)* və s.Türk dilinin cənub-qərb şivələrində az da olsa təsadüf edilir:*örgän-(öğrenmek) ve ürgät-,örgät-(öğretmek)-, iräli(ileri), çılbaḳ(çıplak), mährimät(merhamet),Medín(Nedime)Hanım, dävriş(derviş), zäril(rezil)*(Korkmaz, 1994:84).

Qrammatik baxımdan da hər iki türk dillərində oxşar dil xüsusiyyətləri aşkar olunmuşdur. Məsələn: Xəritə 157-də feilin bacarıq aspektinin indiki zamanın inkarında I şəxsdə işlənməsi:*yazamme:ram/yazamme:rix,siləmme:rəm/siləmme:rix;yaza:mıram/yaza:mırix,silə:mirəm/sil-ə:mirix*.Türk dilində də feilin bacarıq forması *-ama, -eme* şəkilçisi ilə ifadə olunur: *yazamadı, göremedi, kaçamadı, yüzemedi.*

Feillərlə idarədə ismin hallarının əvəzlənməsinə də diqqət yetirmək istəyirik: Xəritə 196-da feillərlə idarədə yönlük və təsirlik halların bir-birini əvəz etməsi müşahidə edilir: *Uşağa(ı) buyur, dalınca yüyür.Gəbə/gəvə toxumağa(ı) başdadıx. Sənə(i) inandırım, heş xəbərim yoxdu.*

Buna/bına/mına(ı) başa salammıram. Şəxs əvəzliyində yönlük hal şəkilçisi əvəzinə təsirlik hal şəkilçisinin işlənməsi hallarına türk dilinin dialektlərində də təsadüf edilir. Məs.: *Beni(mənə) bi çay yap* (Brendemoen,1998:239).

Türkiyə türkcəsinin cənub-qərbi Anadolu dialektlərində, xüsusilə, Dənizli ətrafında yönlük halın yerinə təsirlik halın işlənməsi hadisəsi müşahidə edilir. Məsələn: *Bu elmaya vuranları(vuranlara) bahşiş verilir*. L.Karahan yönlük hal şəkilçisinin təsirlik hal şəkilçisinin yerinə işlənməsini halların mənaca əvəzlənməsi deyil, səs dəyişikliyi olduğunu qeyd edir: *Avı gitmiş, evi gelmiş, deri kenarını getmiş* "Ova gedib, evə gəlib, dərə kənarına gedib"(Burdur), *Seni gövü götürüyon* "Səni göyə aparıram" (Denizli), *Altın horaza biŋ lireye sa'mışla* "Qızıl xoruzu min liraya satıblar" (Denizli), *Deşime galdırma bacım* "Deşimi (su bəndi) qaldırma bacım"(İzmir), *Başını dike:sin* "Suyu başına çəkərsən"(Kütahya), *Saklasın o lokmaya* "O tikəni saxlasın" (Kütahya), *İmtihannarı gireriz* "İmtihanlara girərik" (Muğla)(Karahan,1996: 153).

Xəritə 197-də feillərlə idarədə yönlük və çıxışlıq halların bir-birini əvəz etməsi: *Ev - eşixdən muğayat ol* "Ev-eşiyə muğayat ol"; *Qolumnan yara çıxıb* "qoluma yara çıxıb"; *Erkəyi kəs, ağaşdan as, soy* "Erkəyi kəs, ağaca as, soy".Türkmən dilində hər iki varianta təsadüf edilir: *Eti agaja as! – Eti agaçdan as!* "Əti ağacdan as" (Türkmən Dilinin Grammatikası, 2000:77).

Dialektlərin leksikası qədim və zəngindir. Müasir Azərbaycan ədəbi dilində işlənməyən və ya ədəbi dil üçün arxaikləşmiş bir sıra sözlər Azərbaycan dilinin dialekt leksikasında öz işləkliyini saxlayır. Dialektoloji vahidlər xalqın dilində, bədii ədəbiyyat nümunələrində mühafizə olunur. Bunun sübutu olaraq Kübra Quliyevanın 1989-1992-ci illərdə "Azərbaycan" və "Ulduz" jurnalında çap olunan bədii əsərlərdən topladığı 2200-dən çox söz və ifadəni nümunə göstərə bilərik (Quliyeva: 2019).Ümumiyyətlə tədqiqatçıların aşkar etdikləri dialektoloji faktlar dil tarixinin öyrənilməsi baxımından əhəmiyyət kəsb edir.Tarixi kökləri ilə bir-birinə bağlı olan Azərbaycan və türk dillərində ortaq leksik vahidlərin müqayisəli şəkildə tədqiqində "Azərbaycan dilinin Qarabağ və Şərqi Zəngəzur dialektoloji atlası"nda regionun spesifik xüsusiyyətləri nəzərə alınmışdır. Məsələn:

Xəritə 211-də *aba* sözünün omonim variantları qeyd olunub: *ata, ana, baba, nənə, böyük bacı, böyük qardaş, ağsaqqal. Aba* sözünə əksər türk dili dialektlərində "yaşca böyük olan bacı", "ana", "ögey ana", "nənə", "qaynana", "yengə", "xala", "bibi", "ata" mənalarına təsadüf edilir (DS-I,1993:1,2).

Xəritə 224-də *dəbbə* sözünün omonim variantları qeyd olunub: *lovğa; sözündən qaçan; inadkar; barıt qabı, hövsələsiz, dalaşqan, faiz. Dəbbə* sözünə türk dilinin dialektlərində də qeyd olunan mənalarda təsadüf edilib: "misdən düzəldilşmiş qapaqlı və qulplu su qabı" (Girəsun, Gümüşhanə, Qars, Ərzincan, Qaziantəp, Adana, İçəl); "böyük çəllək"(Trabzon); "vedrə" (Ərzincan); "süd güyümü" (Ərzurum); "misdən düzəldilmiş yağ qabı, tas"(Girəsun, Trabzon, Hatay, Sivas, İçəl); "ağacdan düzəldilmiş yağ qabı" (Malatya) (DS-IV, 1993:1392).

Xəritə 246-da "doğuş zamanı yardım edən qadın" mənasında işlənəm sinonim variantlar verilib:*mamaça/mamaçı, əbə/əbəçi/həbəçi, hadıx/hadıxçı, göbəx nənə, göbəx kəsən, göbəxçi*. Cəlilabad, Lerik, Yardımlı, İmişli, Sabirabad, Zəngilan rayonları şivələrində *əbəçi*, Başkeçid, Borçalı şivələrində *əvəçi*, Qazax, Tovuz şivələrində *əvənçi*, Zəngilan şivəsində *həbəçi* "mama, mamaça" mənasını ifadə edir: *Əbəçi oley beysavad, doxdır olanda deyeylər mama* (Cəlilabad); *Mə:m əvəçim Fatma xaladı* (Borçalı); *Əvənçi uşağı tutor, boylum, kövəyin kəser* (Qazax) (Azərbaycan dilinin dialektoloji lüğəti, 2007:154, 166, 167, 198). Azərbaycan şifahi xalq

ədəbiyyatı nümunəsi olan atalar sözündə *əbəçi* sözünə təsadüf edilib: *Pis əbəçiyə arvad tapşıran övladsız qalar* (Azərbaycan dilinin izahlı lüğəti, 2006:53). Türk dilində *ebe* şəklində işlənib bir neçə mənanı ifadə edir: "Doğuzduran qadın; yaşlı qadın; ananın anası, nənə və uşaq oyunlarında aparıcı uşaq" (Doğan,1994:317).

Xəritə 259-da "kürəkən" mənasında işlənən omonim sözlər qeyd olunub: *kürəkən, yeznə, göy, gə:v/giyəv/gəyəv.*Türk dilində *güyev* sözünə "kürəkən" mənasında təsadüf edilir.Azərbaycan dilinin qərb dialektləri üçün səciyyəvi olan *giyev, göy* leksik vahidləri müxtəlif fonetik variantlarda digər bölgələrdə də yayılmışdır. Cəbrayıl şivəsində *gəyəv* sözü "kürəkən" mənasını ifadə edir (Azərbaycan dilinin dialektoloji lüğəti, 2007:180). Culfa, Ordubad, Şərur, Zəngilan şivələrində "kürəkən" mənasını ifadə edən söz *giyəvdir*: *Mənim giyəvimin adı Cəbrayıldır*. (Culfa) (Azərbaycan dilinin dialektoloji lüğəti, 2007:184). Quba dialektində *giyo: və giyov* sözləri, Zaqatala şivəsində isə *göyüm* sözü "kürəkən" mənasında işlənir (Azərbaycan dilinin dialektoloji lüğəti, 2007:187). *Göy* (Qazax, Tovuz, Marneuli, Dmanisi, Göyçay) "kürəkən", *gəv* (Şahbuz), *göy* (Şəki) "yeznə" mənalarını ifadə edir: *Əlinin göyü danna bizə gələcək* (Göyçay) (Əzizov, 2016:265).

Nəticə etibarilə dialekt leksikasının qohum dillərin leksik materialları ilə qarşılıqlı əlaqədə öyrənilməsi mühüm elmi nəticələrin əldə edilməsinə gətirib çıxarır.

AMEA Nəsimi adına Dilçilik İnstitutunun Azərbaycan dialektologiyası şöbəsinin əməkdaşlarının birgə fəaliyyəti nəticəsində hazırlanan "Azərbaycan dilinin Qarabağ və Şərqi Zəngəzur dialektoloji atlası" strateji əhəmiyyət kəsb edir. Məhz bu səbəbdən "Azərbaycan dilinin Qarabağ və Şərqi Zəngəzur atlası"nın tərtibi və qeyd olunan əraziyə xas dil faktlarının toplanılması təqdirəlayiqdir.Qarabağ və Zəngəzur əhalisi öz ata-baba yurdlarından didərgin düşsələr də ana dilinə daha möhkəm sarılmış, tarixin izlərini dil faktlarında yaşatmışlar. Bunun nəticəsidir ki, həmin dil materialları vasitəsilə tarixin izinə düşmək mümkün olmuşdur. Atlasda konkret nümunələr əsasında hər bir dialekt və şivə qrupuna aid səciyyəvi fonetik, leksik, qrammatik xüsusiyyətlərin dəqiq şəkildə şərh edilməsi böyük zəhmətin nəticəsi kimi qiymətlidir. Bütün türk dilləri dialekt və şivələrinin bu cür atlaslarının tərtibi ilə tarixi faktları üzə çıxardaraq qədim türk dilinin quruluşunu öyrənmək mümkündür.

ƏDƏBİYYAT SİYAHISI:

Azərbaycan dilinin dialektoloji lüğəti.(2007). Bakı: Şərq-Qərb

Azərbaycan dilinin izahlı lüğəti.(2006). 4 c., cild II, Bakı: Şərq-Qərb

Azərbaycan dilinin Naxçıvan dialektoloji atlası.(2015) Bakı, "Elm və təhsil"

Azərbaycan dilinin Naxçıvan dialektoloji atlasının proqramı.(2015). Bakı, "Elm və təhsil"

Azərbaycan dilinin Qarabağ və Şərqi Zəngəzur dialektoloji atlası.(2022). Bakı, "Elm və təhsil"

Azərbaycan dilinin Qarabağ və Şərqi Zəngəzur dialektoloji atlasının proqramı. (2022). Bakı, "Elm və təhsil"

Brendemoen B. (1998). "Turkish Dialects", The TurkicLanguages, ed. Lars Johanson- Èva Á. Csató, Routledge: London and New York, s. 236-241

Doğan D.M.(1994). Büyük Türkçe Sözlük. İstanbul: Ülke Yayın Haber Tic. LTD. ŞTİ

Qəmbərova Q.(2018). Azərbaycan dialektoqrafiyası-60. Dilçilik İnstitutunun Əsərləri. Bakı, "Elm və təhsil", s.380-387

Quliyeva K.(2019). Bədii ədəbiyyatda dialektizmlər. Bakı, "Elm və təhsil"

Əzizov E. (2016). Azərbaycan dilinin tarixi dialektologiyası (Dialekt sisteminin təşək-külü və inkişafı). Təkmilləşdirilmiş ikinci nəşr. Bakı: "Elm və Təhsil" nəşriyyatı

Karahan L. (1996). Anadolu Ağızlarının Sınıflandırılması, Ankara: TDK Yay.

Korkmaz Z.(1994). Güney-Batı Anadolu Ağızları Ses Bilgisi (Fonetik), Ankara: Türk

Dil Kurumu Yayınları

Məmmədli M.(2019). Azərbaycan dialektologiyası. Dərslik. Bakı: Zərdabi LTD

Türkiyede Halk Ağzından Derleme Sözlüğü (1993). I cilt. Ankara: Türk Dil Kurumu Yayınları.

Türkiye'de Halk Ağzından Derleme Sözlüğü (1993). IV cilt. Ankara: Türk Dil Kurumu Yayınları.

Türkmən Dilinin Grammatikası-Morfologiya (2000). (Prof.Miratgeldi Söyegovun redaksiyonu ile), Ankara: TDK armağanı

JOURNAL OF BAKU ENGINEERING UNIVERSITY- PHILOLOGY AND PEDAGOGY
2023. Volume 7, Number 1 *Pages 47-54*

UOT:81

KOMMUNİKASİYANIN LİNQVİSTİK VƏ EKSTRALİNQVİSTİK XÜSUSİYYƏTLƏRİ

Təranə İmamverdi qızı HACIYEVA
Bakı Mühəndislik Universiteti
tehaciyeva@beu.edu.az

XÜLASƏ

Kommunikasiyanın ifadə forması olan nitq ümuminin xüsusiləşməsi və tətbiqi ilə reallaşır. Ümumi səciyyə kəsb edən dildən xüsusi məqsədlərlə nitq şəklində bəhrələnmə konkret, yaradıcı və tətbiqi prosesdir. Tətbiq prosesin məzmununa uyğun olaraq, statik vəziyyətdə qalan fəaliyyət forması deyil. O, ictimai-siyasi, hüquqi, etnoqrafik, milli-mənəvi, mədəni, situativ, psixoloji və digər dilxarici amillərin təsiri ilə dinamik məzmun kəsb edir. Hərəkətdə və dəyişməkdə olan hər bir anlayışın aid olduğu sahənin aktual problemlərindən sayılması elmi qanunauyğunluqdur. Kommunikasiya da fəaliyyət növüdür, tətbiqi prosesdir. İnformasiya ötürmə və informasiya mübadiləsi zərurətindən törənən kommunikasiya özündə kompleks kommunikativ bacarıqları birləşdirən nəzəri və tətbiqi anlayışdır. Kommunikasiya ünsiyyət əsaslı proses kimi məzmun və forma zənginliyi ilə səciyyələnir. Nitq fəaliyyətinin və nitqin şifahi formasında olmasına görə müəyyən qədər də nitq aktının tərkib hissəsi olan kommunikasiya həm linqvistik, həm də sosial və psixoloji məzmuna malikdir. Bununla əlaqədar olaraq, kommunikasiya kompleks və sistemli proses kimi linqvistik və ekstralinqvistik xüsusiyyətlərə malikdir. Hər bir dilin linqvistik xüsusiyyətləri, ifadə imkanları kommunikasiyanı optimallaşdıran və stimullaşdıran, əlçatanlığı təmin edən vasitə olur. Ekstralinqvistik amillər də eyni missiya daşıyıcısı ola bilir, eyni zamanda kommunikativ baryer rolunda da çıxış edə bilir.

Açar sözlər: kommunikasiya, ünsiyyət, nitq aktı, informasiya mübadiləsi, kommunikativ bacarıqlar, kommunikativ baryer.

LİNGUİSTİC AND EXTRALİNGUİSTİC PROPERTİES OF COMMUNİCATİON

ABSTRACT

Speech, which is an expressive form of communication, is realized by the specialization and application of the general. The use of general language in the form of speech for specific purposes is a concrete, creative and applied process. Application is not a form of activity that remains in a static state according to the content of the process. It acquires a dynamic content under the influence of socio-political, legal, ethnographic, national-spiritual, cultural, situational, psychological and other foreign factors. It is a scientific regularity that every concept in motion and change is considered one of the actual problems of the field to which it belongs. Communication is also a type of activity, an applied process. Communication, arising from the need for information transfer and information exchange, is a theoretical and applied concept that combines complex communicative skills. Communication as a communication-based process is characterized by richness of content and form. Due to speech activity and speech being in an oral form, communication, which is part of the speech act to some extent, has both linguistic and social and psychological content. In this regard, communication as a complex and systematic process has linguistic and extralinguistic features. Linguistic features and expressive possibilities of each language become a tool that optimizes and stimulates communication and provides accessibility. Extralinguistic factors can be the bearer of the same mission, but can also act as a communicative barrier.

Key words: communication, connection, speech act, information exchange, communicative skills, communicative barrier.

ЛИНГВИСТИЧЕСКИЕ И ЭКСТРАЛИНГВИСТИЧЕСКИЕ СВОЙСТВА КОММУНИКАЦИИ

РЕЗЮМЕ

Речь, являющаяся выразительной формой общения, реализуется путем обособления и применения общего.Обогащение языка в форме речи , обладающей общей чертой для особых целей — процесс конкретный, творческий и прикладной.Внедрение применительно к содержанию процесса не является

формой деятельности, остающейся в статическом состоянии. Оно приобретает динамическое содержание под воздействием социально-политических, правовых, этнографических, национально-духовных, культурных, ситуативных, психологических и других внешних факторов. Научная закономерность заключается в том, что каждое понятие в движении и изменении считается одной из актуальных проблем той области, к которой она принадлежит. Общение – это тоже вид деятельности, процесс внедрения. Коммуникация, возникающая из потребности передачи и обмена информации, представляет собой теоретическое и прикладное понятие, сочетающее в себе комплекс коммуникативных навыков. Коммуникация как процесс общения характеризуется богатством содержания и формы. Благодаря речевой деятельности и нахождению речи в устной форме общения, являющееся в той или иной степени частью речевого акта, имеет как языковое, так и социально-психологическое содержание. В связи с этим коммуникация как комплексный и системный процесс имеет лингвистические и экстралингвистические особенности. Лингвистические особенности и возможности выражения каждого языка становятся инструментом, оптимизирующим и стимулирующим общение, обеспечивающим доступность. Экстралингвистические факторы могут быть носителями той же миссии, но могут выступать и в роли коммуникативного барьера.

Ключевые слова: коммуникация, общение, речевой акт, обмен информацией, коммуникативные навыки, коммуникативный барьер.

GİRİŞ

Tədqiqatın aktuallığı. Kommunikasiya informasiya ötürmə və informasiya almaqla səciyyələnən informasiya mübadiləsi prosesidir. Bu prosesin mühüm tələblərindən biri verilən informasiyanın asanlıqla qavranılması və əlçatanlığının təmin edilməsidir. Adresat və adresantın kommunikativ prosesdə linqvistik və ekstralinqvistik amilləri düzgün qiymətləndirməsi və tərəfmüqabillərin informativlik, sosial, psixoloji aspektdən uyğunlaşması kimi faktorlar prosesin effektli olmasının təminatçısı kimi çıxış edir. Sosial fəaliyyətin, gündəlik həyatımızın mühüm komponentlərindən olan kommunikasiya və onun anlaşıqlı tətbiqi problem kimi hər zaman aktuallığını qoruyub saxlayır. Kommunikasiya qarşılıqlı əlaqənin yüksək formasıdır və onun müasir tələblərə cavab verən keyfiyyət və göstəricilərinin, prioritet və dinamikliyinin linqvistik və ekstralinqvistik aspektlərdən tədqiqi də öz növbəsində dilçiliyin aktual problemlərindən sayılır.

Tədqiqatın yeniliyi. Təqdim edilən məqalədə kommunikasiya prosesində uğur və keyfiyyətə nail olmaq üçün zəruri olan müasir kompleks bacarıqlar linqvistik və ekstralinqvistik amillər nəzərə alınmaqla ətralı izah edilir. Kommunikasiya ilə əlaqəli olan ünsiyyət, nitq aktı anlayışları ilk dəfə bu tədqiqatda nəzəri və praktik cəhətdən müəyyənləşdirilir, kommunikasiyanın ehtiva etdiyi problem və məsələlər sistemli şəkildə araşdırılır.

Tədqiqatın metodu. Məqalənin tədqiqat obyektləri təsviri, müqayisəli və analitik təhlil metodlarından istifadə əsasında şərh edilib.

Tədqiqatın məqsəd və vəzifələri. Kommunikasiyanın keyfiyyətini təmin edən linqvistik və ekstralinqvistik amillərin müəyyənləşdirilməsi məqalənin məqsədini təşkil edir. Məqsədə nail olmaq üçün yaxın anlayışlar olan kommunikasiya, ünsiyyət və nitq aktının ümumi və fərqli cəhətləri izah edilir, kommunikasiyanı reallaşdıran kompetensiyalar, prosesdə baryer yaradan amillər müəyyənləşdirilir, kommunikasiyanın effektini, keyfiyyət və əlçatanlığını təmin edən ekstralinqvistik faktorlar şərh edilir.

Tədqiqatın nəticəsi. Cəmiyyət üzvlərinin fəaliyyəti üçün müstəsna əhəmiyyətə malik olan kommunikasiya həyati zərurətdir. Kommunikasiya nitq fəaliyyətinin tərkib hissəsidir və informasiya ötürmə, informasiya mübadiləsi prosesidir.

Kommunikasiya məzmun, forma və məqsədinə görə nitq aktı və ünsiyyət anlayışları ilə tam eyniyyət təşkil etmir. Nitq aktı proses kimi nitqin şifahi formasında baş tutur. Ünsiyyət işlənmə sferasından asılı olaraq, kommunikasiya səviyyəsinə qalxa bilər, lakin kommunikasiya bütün hallarda ünsiyyət funksiyasını yerinə yetirmir, ünsiyyət kommunikasiya ola bildiyi halda, kommunikasiya hər zaman ünsiyyət olmaya bilir. Cəmiyyətin dil daşıyıcısının hər biri ünsiyyətdə eyni məhsuldarlıqla iştirak edir, lakin kommunikasiya bütün dil daşıyıcılarını eyni məhsuldarlıqla əhatə etmir. Ünsiyyət məzmunca şəxsi sferanı, subyektiv təfəkkür, emosiyanı əhatə etməklə ekzistensial aspektdə, sosial məzmunda olursa, kommunikasiya siyasi, rəsmi, işgüzar və akademik istiqamətləri əhatə edir.

Kommunikasiyanın keyfiyyəti dilin ifadə imkanlarından, dilin daxili amillərindən asılı olmaqla yanaşı, həm də kommunikativ fəaliyyətdə olan fərdin dili bilmə səviyyəsindən, dilin imkanlarına bələd olma səriştəsindən, nitqinin düzgün və dəqiq olmasından asılıdır. Bu faktor kommunikasiyanın linqvistik xüsusiyyəti sayılır. Kommunikasiyanın həyata keçirildiyi sosial mühit, tərəfmüqabillərinin informativliyi, psixoloji, idraki, kulturoloji səviyyəsi və digər məzmun xətləri kommunikasiyanın dilin xaricində olan ekstralinqvistik xüsusiyyətlərinin göstəricisi kimi çıxış edir.

Kommunikativ kompetensiyalara yiyələnmək üçün nitqin düzgünlüyünü, dəqiqliyini və praqmatikliyini, məzmunun əlçatanlığını və anlaşıqlığını təmin edən konkret göstərici və tələblər mövcuddur. Kommunikasiya akademik və işgüzar fəaliyyətin əsas göstəricisi rolunda çıxış edir.

Əsas hissə. Kommunikasiyanın linqvistik və ekstralinqvistik xüsusiyyətlərinin elmi şərhi sinonim cərgə təşkil edən "kommunikasiya", "ünsiyyət", "nitq aktı" anlayışlarının ümumi və fərqli cəhətlərinin yığcam izahını tələb edir.

"Kommunikasiya", "ünsiyyət", "nitq aktı" anlayışlarının hər biri fərd və sosial qruplar arasında baş tutan nitq fəaliyyəti prosesidir və linqvistik mahiyyət kəsb etməklə bərabər, psixoloji, sosial, kultural dəyərlərə də malikdir. "Kommunikasiya", "ünsiyyət", "nitq aktı" anlayışlarını yaxınlaşdıran, bəzən isə eyniləşdirən, ümumi cəhətlərini reallaşdıran mühüm amil də budur. Lakin nitq fəaliyyətində bu anlayışların hər birinin konkret payı və özünəməxsus keyfiyyətləri mövcuddur. "Kommunikasiya", "ünsiyyət", "nitq aktı" anlayışlarını bir-birindən fərqləndirən əsas xüsusiyyət bu proseslərin tətbiq dairəsi və ədəbi dilin hansı funksional üslublarını əhatə etməsi və hansı formalara malik olmasıdır.

Kommunikasiya həm informasiya ötürmə, həm də informasiya mübadiləsi prosesidir və akademik, rəsmi, publisistik üslubları əhatə etməklə təktərəfli və çoxtərəfli olur, sosial məzmun kəsb etmir. Bu baxımdan məzmununa görə ünsiyyətin koqnitiv istiqamətini əhatə edir. Məqsəd yalnız informasiya ötürmək olduqda kommunikasiya təktərəfli proses kimi səciyyələnir. Məhz bu amil kommunikasiyanı ünsiyyət anlayışı ilə fərqləndirir. Kommunikasiyanın məqsədi informasiya mübadiləsi olduğu halda o, iki və daha artıq fərdin, sosial qrupun iştirak etdiyi iki və çoxtərəfli proses kimi baş tutur. Şifahi və yazılı formalarda olmaqla verbal və nisbətən qeyri-verbal ifadə imkanına malikdir. Kommunikasiyanın şifahi forması varsa, paralinqvistik vahidlərin orda yer alması labüddür, lakin bu vahidlərin hər biri prosesdə eyni səviyyədə işlənmə hüququna malik deyil. Kommunikasiya prosesinin tətbiq olunduğu üslublar bədən dilini əhatə edən və nitqin ifadəliliyinə xidmət edən paralinqvistik vahidlərin işlədilməsinə yol verir, lakin təsviri,

ritmik işarələr, mimikaların bədii, məişət üslublarında və digər alt üslublarda yer verilən işarəvi formalarına müraciət edilmir. Bu səbəbdən kommunikasiya verbal və şifahi nitqi müşaiyət edən paralinqvistik vahidlərin də yer aldığı formada icra olunur.

Ünsiyyət isə proses kimi minimal olaraq, iki tərəfin iştirakı ilə reallaşır (1, s.57) və qarşılıqlı münasibət əsasında qurulur. Ünsiyyət nitqin çoxşaxəli formasıdır. Klassik elmi ədəbiyyatda ünsiyyət "iki və daha çox adamın münasibətləri aydınlaşdırmaq və ümumi nəticə əldə etmək məqsədilə öz səylərini əlaqələndirməyə və birləşdirilməyə yönəldilmiş qarşılıqlı təsirinə" deyilir (2,s. 502). Məqsədi yalnız sırf elmi informasiya mübadiləsi deyil, qarşılıqlı əlaqə olduğuna görə ədəbi dilin bütün funksional üslubları üçün eyni dərəcədə keçərli deyil, daha çox dilin məişət, bədii, epistolyar üslublarını, sosial sferanı əhatə edir. Kommunikasiyadan fərqli olaraq, verbal və qeyri-verbal, paralinqvistik vahidlərin hər birinin eyni məhsuldarlıqla işlənməsi şəklində həyata keçirilir. Göstərilən məzmun fərqlərinə baxmayaraq, bəzən ünsiyyət kommunikasiya prosesini də özündə ehtiva edən anlayış kimi işlədilir. Kommunikasiya və ünsiyyətin kökündə əlaqə və münasibət dayandığına görə elmi ədəbiyyatda "akademik" təyininin həm kommunikasiya, həm də ünsiyyəti təyin etməsinin şahidi oluruq (3, s.15). Akademik ünsiyyət nitq fəaliyyətinin akademik sferada həyata keçirilən məzmun forması kimi başa düşülür və mütləq olaraq, iki və çoxtərəfli proses kimi baş tutur. Kommunikasiyanın istənilən məzmun və struktur forması ünsiyyət kimi qəbul edilə bilməz. Təktərəfli kommunikasiya ünsiyyət kimi qavranılmaq səlahiyyətinə malik deyil. Başqa sözlə desək, ünsiyyət kommunikasiya cildinə girə bilər, lakin kommunikasiya hər zaman ünsiyyət ola bilmir.

Nitq aktı kommunikasiya və ünsiyyəti müşayiət edən və özündə birləşdirən prosesdir. Nitq aktının əsas göstəricisi onun söyləm və paralinqvistik vasitələrlə ifadə edilən şifahi nitqi əhatə etməsidir. Məzmunu şifahi informasiya mübadiləsi, məqsədi nitqin funksionallığının təmin edilməsidir. "Nitq aktı" termini elmi ədəbiyyata ilk dəfə filosof Ostin tərəfindən XX əsrin 40-cı illərində gətirilsə də (4), elmi ifadə kimi populyarlığı sonradan qazanıb və 1975-ci ildən nəzəri və tətbiqi məzmunlu anlayış kimi şərh edilib. Devid Kristal nitq aktını kommunikasiyanın lokutiv, şifahi forması kimi səciyyələndirərək direktiv, komissiv, deklarativ və ekspressiv anlamlara malik olan anlayış kimi təqdim edir (5,s.446). Nitq aktı birləşməsinin əsas tərəfi olan "akt" latın dilində təsir mənasının verən "actus" sözündən törənib və "həyata keçirmək", "baş vermək" anlamlarını ifadə edir. "Elmi fəaliyyətdə istifadə olunan əsas terminlər" lüğətində də bu anlayış tətbiqi anlamda izah edilir (6). Qeyd etmək lazımdır ki, klassik və müasir elmi araşdırmaların ümumi xülasəsi nitq aktı termininin nitq fəaliyyətində olanların, danışanların ünsiyyətdəki tərəfmüqabillərini həm dil, həm də paralinqvistik vahidlərdən istifadə etməklə dinləməyə çalışmalarını reallaşdıran proses kimi anlaşılmasını diktə edir. Nitq aktı danışanın dinləyənlərin emosiyasına təsiri ilə reallaşır.

Bu məqamda bəzən nitq aktının sinonimi kimi işlənən nitq nitq fəaliyyəti anlayışı da müəyyən izahın verilməsini tələb edir. Nitq fəaliyyəti bir bütövdür, nitq aktını, kommunikasiya və ünsiyyəti özündə ehtiva edən proseslər cəmidir, həm yazılı, həm də şifahi nitq vasitəsilə həyata keçirilir. Nitq fəaliyyəti nitq mexanizmini idarə edən bütovdür, nitq aktı, kommunikasiya, ünsiyyət həmn bütövün tərkib hissələridir. Həmin tərkib hissələri özlüyündə istiqamətlərə, tərkiblərə parçalanan bacarıqlar kompleksidir. Nitq fəaliyyətinin məzmununda əksinin tapan əlaqə yaratmaq, kontakta girmək, bilik mübadiləsi, koqnitiv və psixoloji bacarıq və kompetensiyalar nitqin mühüm komponentləri və ümumi keyfiyyət

göstəriciləri kimi bütövü təşkil edən tərkib hissələrinə eyni dərəcədə paylanıb. Məhz bu faktor nitq fəaliyyəti və nitq aktı, ünsiyyət və kommunikasiya terminlərinin bir-birinin əvəzləyicisi kimi işlənməsinə səbəb olaraq, ifadə dəqiqliyinə xələl gətirməklə bərabər, kommunikasiyanın kompleks və bir-biri ilə üzvi vəhdətdə olan bacarıqlar toplusu olduğunu sübut edir.

"Kommunikasiya", "ünsiyyət", "nitq aktı" anlayışlarının izahı bu proseslərin hər birinin məqsəd və vəzifəsindən asılı olaraq, fərqli məzmun və məram xüsusiyyətlərinə malik olmasını göstərir. Qeyd edək ki, tədqiqatın məzmun xəttinin əsasını nitq fəaliyyətinin daha yüksək qatında yerləşən kommunikasiya prosesinin təhlili təşkil edir. Belə ki, ədəbi dilin rəsmi və elmi funksional üslublarında həyata keçirilən informasiya mübadiləsində, məlumatın çatdırılma və qavranılması prosesində optimallığı, əlçatanlığı təmin edən və kommunikasiyanın keyfiyyətini yüksəldən, yaxud prosesi ləngidən, keyfiyyətə mane olan və kommunikasiyanın reallaşmasında baryer rolu oynayan dildaxili (linqvistik) və dilxarici (ekstralinqvistik) amillərin şərh edilməsi kommunikativ nitqin praqmatikliyini təmin etmiş olur.

Digər həyati zəruri keyfiyyətlər kimi kommunikasiya da insan həyatının ayrılmaz, davamlı və mühüm tərkib hissəsi sayılır. Məlumdur ki,yaşamaq üçün zəruri olan hava, qida, su olmadan insan həyatını itirir. Kommunikasiya da həmin keyfiyyətlər sırasına daxildir. Ünsiyyətsiz, informasiya almayan, informasiya mübadiləsində iştirak etməyən insan mənəvi sarsıntıya düşərək həyatını itirməklə üzləşə bilər. Kommunikasiya insanın yaşaması və fəaliyyət göstərməsi üçün mühüm nemətlərdəndir. Kommunikasiya prosesdir və onun reallaşması tərəflərin ünsiyyət üçün vacib olan keyfiyyətlərin hansına nə dərəcədə yiyələnməsindən asılıdır. Bu proses nitq fəaliyyətində olan şəxslərin bacarıq, istək və həvəslərindən asılı olaraq, rəvan, davamlı və effektli olduğu kimi bunun əksi olaraq, müəyyən maneələrə tuş gələrək baş tutmayan, yaxud nəticəsiz proses kimi səciyyələnə bilər. Kommunikasiyanın reallaşmasına əngəl törədən amillər fərqli məzmunlara malik ola bilər. Elmi ədəbiyyatda kommunikativ baryer " ünsiyyət prosesində yaranan psixoloji çətinlik" kimi qiymətləndirilir (7, s.89).

Kommunikasiya sistemli bir prosesdir və bu prosesdə iştirak edən fərd və sosial qruplar kommunikativ kompetensiyaları təmin edən informativlik, ifadəlilik və praqmatiklik kimi zəruri göstəricilərə malik olmalıdır. Kommunikativ prosesi müşayiət edən göstəricilər elmi mənsubluq və məzmuna görə iki böyük istiqamətə ayrılır: linqvistik (dildaxili) və dildə

vahidi olmayan ekstralinqvistik (dilxarici) keyfiyyətlər. Bu istiqamətlərin səlahiyyətində olan məsələlər kommunikasiyanın linqvistik və ekstralinqvistik xüsusiyyətləri kimi çıxış edir.

Kommunikasiyanın linqvistik xüsusiyyətləri yazılı, yaxud şifahi nitqin tərtib prinsiplərini əhatə etməklə yanaşı, nitq fəaliyyətində olan fərdin daşıyıcısı olduğu və ya istifadə etdiyi dilin linqvistik imkanlarına nə dərəcədə bələd olması ilə şərtlənən amildir. Diskursoloji təhlillər göstərir ki, kommuntator-adresantın nitq üslubu və uzus səviyyəsndə təzahür edən ifadə tərzi kommunikasiyanın linqvistik mahiyyətini təşkil edir (8). Kommunikasiyanı optimallaşdıran, keyfiyyətini təmin edən ən mühüm linqvistik amil nitq fəaliyyətində olan fərdin söz ehtiyatının zənginliyi, qənaətbəxşliyidir. Kommunikasiyanın həm şifahi, həm də yazılı formasında nitqin düzgünlüyü, dəqiqliyi, aydınlığı və yığcam olması mühüm şərtlərdəndir. Kommunikasiyada iştirak edən fərdin sözlərin düzgün tələffüzü və yazılışına, sintaktik qrammatik və məntiqi əlaqələrin düzgünlüyünə bələd olması və məqsədəmüvafiq istifadə etmə bacarığına malik olması, şifahi nitqdə səs tempi və tembrinin yerində olması, ritmik-melidik üzvlənməyə, prosodik elementlərə riayət etməsi, dinləmə, anlama və cavablandırma, interpretasiya kompetensiyalarına malik olması, fikir təkrarlığına, dolaşıqlığa, tavtologiyaya yol verməməsi, ümumi götürdükdə kommunikatorun nitq mədəniyyəti kriteriyalarına tabe olması prosesin keyfiyyətini təmin edən, funksional əhəmiyyətini artıran linqvistik xüsusiyyətlərdir. Kommunikasiyanın qeyri-verbal linqvistik xüsusiyyətlərinə isə nitqin cazibədar olmasını reallaşdıran paralinqvistik vahidlərdən istifadə bacarığı daxildir. Kommunikatorun bədən dilindən ifrata varmayan, emosional boyalardan uzaq şəkildə, rəsmi və akademik üslublarda yol verilən tərzdə istifadəsi, resipiyenti nəzarətdə saxlaya bilmək bacarığı, onlarla əks-əlaqə yarada bilməsi kommunikasiyada motivasiyanın reallaşmasına, tərəfmüqabillərin aktivliyinə xidmət edir. Qeyd etmək lazımdır ki, kommunikasiyanın linqvistik xüsusiyyətlərinin hər biri kommunikasiya prosesinin keyfiyyət və optimallığına, əlçatanlığına eyni dərəcədə təsir göstərmir. Bu baxımdan kommunikasiyanın linqvistik xüsusiyyətlərini kommunikativ keyfiyyət göstəricisi olmaq baxımından **linqvistik mükəmməlliyi əngəlləyən və kommunikasiyada linqvistik baryer yaradan faktorlar** adları altında iki qrupa bölmək mümkündür. Kommunikasiyanın linqvistik mükəmməlliyini əngəlləyən faktorlar yazılı və şifahi nitqin səviyyəsinin yüksəlməsinə xidmət edən linqvistik xüsusiyyətlərdir, nitqdə belə xüsusiyyətlərə yer verilməsi icbari deyil, işlədilməsi gərək olandır. Kommuntatorun səs tempi və tembrinin ahəngdarlığı, nitqin xoş avazlı olması, intonemlərə, ritmik-melidik üzvlənməyə, durğu və fasiləyə, prosodik elementlərə riayət etməsi, dinləmə, anlama və cavablandırma, interpretasiya kompetensiyalarına malik olması, fikir təkrarlığına, dolaşıqlığa, tavtologiyaya yol verməməsi, bədən dilindən uğurla istifadə edə bilməsi, nitqin cazibəsini artıran, resipiyentləri aktivləşdirən paralinqvistik vasitələrdən bəhrələnməsi prosesdə baryer yaratmayan, kommunikativ keyfiyyəti yüksəldən göstəricilər kimi səciyyələnir. Kommunikasiyada reallaşması vacib olan, zərurilik mahiyyət kəsb edən söz ehtiyatına malik olmaq, nitqin düzgün, dəqiq, aydın və yığcam olması, sözlərin düzgün tələffüzü və yazılışı, sintaktik qrammatik və məntiqi əlaqələrin düzgünlüyü, məqsədəmüvafiq istifadə edilməsi kimi linqvistik xüsusiyyətlər prosesin linqvistik təməli və özəyidir. Qanunauyğun olaraq, həmin bilik və bacarıqlara bələd olmamaq kommunikativ baryer yaradan linqvistik amillər sırasına daxildir.

Kommunikasiyanın ekstralinqvistik xüsusiyyətləri prosesin gerçəkləşməsində linqvistik xüsusiyyətlər qədər tematik və semantik yükə malikdir. Kommunikasiyanın

linqvistik xüsusiyyətləri prosesin ifadə formasını, maddiləşməsini reallaşdırırsa, ekstralinqvistik amillər prosesin məzmun və effektini, motivasiyasını, psixoloji çalarlarını tənzimləyir. Məlumdur ki, kommunikasiya yalnız dil vahidlərindən bəhrələnən ifadə forması olmaqla kifayətlənmir. O, linqvistik, kultural, psixoloji, sosial, bioloji keyfiyyətlərə malik bir bütövdür və özündə zəngin kompleks dəyərləri cəmləşdirir. Bu səbəbdən kommunikasiya zəngin və inteqrativ məzmunlu ekstralinqvistik dəyərlərə malikdir. Həmin dəyərlər son nəticədə kommunikativ tamlıq prinsipinin qorunmasını reallaşdırır. Kommunikasiyanın ekstralinqvistik xüsusiyyətləri bir neçə faktordan asılı olaraq, artır, zənginləşir. Həmin faktorları ilkin olaraq, iki istiqamətə ayırmaq mümkündür:

1. **Məzmundan irəli gələn kommunikativ ekstralinqvistik xüsusiyyətlər;**
2. **Kommuntatorun fərdi keyfiyyət göstəricilərindən irəli gələn kommunikativ ekstralinqvistik xüsusiyyətlər.**

Məzmundan irəli gələn kommunikativ ekstralinqvistik xüsusiyyətlərin ön cərgəsində kommuntator və resipiyentin kommunikasiyanın məqsədini, prinsip və normalarını bilmək, məzmunla bağlı yüksək informativliyə malik olmaq, auditoriyanı maraqlandıran informasiyanın əhatəliliyi və tam şəkildə çatdırılması, biliyin düzgün və zamanında ötürülməsi, kontekstual mühit və aktuallığı düzgün dəyərləndirmək bacarıqları dayanır.

Kommuntatorun fərdi keyfiyyət göstəricilərindən irəli gələn ekstralinqvistik xüsusiyyətlər inteqrativ mahiyyət kəsb edir və nitq fəaliyyətində olan şəxsin psixoloji, fizioloji, sosioloji və kultural dəyərlərindən asılı olur. Kommunikasiyada olan fərd və ya fərdlərin pozitivliyi, çevikliyi, dəyişikliklərə adaptasiya olmaq bacarığı, konkretliyi, məntiqli və nəzakətli olması, özünəinam hissinə malik olması, sosial fəallığı, psixoloji xarakter tiplərini tanıması, psixoloji arxetiplərdən istifadə bacarığı, nitqinin rasionallığı, müsahibin maraqlarının müəyyənləşdirilməsi kimi keyfiyyətlər kommunkasiyanın effektini artıran ekstralinqvistik xüsusiyyətlərdir.

İnformasiya çatışmazlığı, diqqətsizlik, emosional gərginlik kimi faktorlar kommunikasiyada baryer yaradan ekstralinqvistik amilləri səciyyələndirir.

Kommunikasiya prosesində məzmun və mahiyyətinə görə ekstralinqvistik xüsusiyyət kimi qəbul edilən, lakin o qədər də populyar olmayan kommunikasiya mühiti, nitq fəaliyyətini qeyri-standart mühitdə davam etdirmək, sosial və etik mühiti nəzərə almaqla qərarvermə məsuliyyəti, sosial struktur, tərəfmüqabillərin demoqrafik və yaş göstəriciləri, etnoqrafik, kultural və estetik dəyərləri kimi parametrlər də kommunikativ baryer yaratmasa da, prosesin keyfiyyətinə təsir etmək imkanına malikdir.

ƏDƏBİYYAT:

1. Левченко В.В., Агрикова Е.В., Воронина М.А. Формирование навыков академической коммуникации: организация работы. // Высшее образование в России. № 4, 2017, s.58-62.
2. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı, "Çinar-Çap", 2002. 620 s.
3. İsmayılova M.A. Azərbaycan dilində akademik kommunikasiyanın aktual problemləri. Bakı, ADPU, 2022. 200 s.
4. Austin, J.L. "How to Do Things With Words". 2nd ed. Cambridge, MA: Harvard University Press, 1975. 192 s.
5. Crystal, D. "Dictionary of Linguistics and Phonetics". 6th ed. Malden, MA: Blackwell Publishing, 2008. 555 s.
6. Əliquliyev R., Kazımova S., Şükürlü S. Elmi fəaliyyətdə istifadə olunan əsas terminlər. Bakı, "İnformasiya texnologiyaları" nəşriyyatı, 2009, 201 səh.
7. Игебаева Ф.А. Деловые коммуникации и формировании коммуникативной компетентности современного специалиста агроуниверситета. Репликация культуры общества в контексте профессионального образования. Книга 2. Коллективная монография. Георгиевск. ГТИ, 2013. s.78-113.
8. Nord C. Text Analysis in Translation: Theory, Methodology, and Didactic Application of a Model for Translation-Oriented Text Analysis. Amsterdam: Rodopi, 2005. 274 s.

JOURNAL OF BAKU ENGINEERING UNIVERSITY- PHILOLOGY AND PEDAGOGY
2023. Volume 7, Number 1 *Pages 55-61*

UOT:37.02;371

TEACHING READING IN A FUNNY WAY

Chinara NARIMANOVA

Bakı Enginerring University

chquliyeva@beu.edu.az

ABSTRACT

This article is about how to teach reading in an intriguing, exciting, motivating, and funny way with the help of different activities and methods. Reading has always been considered boring, difficult, out of interest or joy because of not having enough time, lack of suitable books, not choosing correct strategies, and demands of curriculum exams. Reading skill as other four skills contribute to the understanding, comprehending of the symbols, letters, words and texts what are read. We can use a plenty of skills to help learners to acquire reading ability. Three different groups of university students and children of three different ages were taught reading skills using fun methods at home and in the classroom over a period of time, and the results are reported in this article. This paper explores that the learning habit begins at an early age and continues through other stages of life. According to the results of this study, reading ability is directly related to factors such as their vocabulary, comprehension, worldview, and more.

Key words: teaching, reading, funny, activities, strategies

OXUNUN ƏYLƏNCƏLI ŞƏKILDƏ TƏDRİSİ

XÜLASƏ

Bu məqalə müxtəlif fəaliyyət və metodların köməyi ilə oxumağı maraqlı, həyəcanlı, həvəsləndirici və gülməli şəkildə necə öyrətməkdən bəhs edir. Kifayət qədər vaxtın olmaması, uyğun kitabların azlığı, düzgün strategiyaların seçilməməsi və kurikulum imtahanlarının tələbləri səbəbindən oxumaq həmişə darıxdırıcı, çətin, maraqsız və ya sıxıcı hesab edilmişdir. Digər dörd bacarıq kimi oxuma bacarığı da oxunan simvolların, hərflərin, sözlərin və mətnlərin başa düşülməsinə, qavranılmasına kömək edir. Biz öyrənənlərə oxu bacarığına yiyələnməyə kömək etmək bir çox metodlardan istifadə edə bilərik. Üç fərqli universitet tələbələrindən ibarət qrupda və üç müxtəlif yaşlı uşaqlara evdə və sinifdə əyləncəli metodlarla oxu bacarıqları müəyyən müddət ərzində öyrədilmiş və nəticələr də bu məqalədə verilmişdir. Bu məqalə öyrənmə vərdişinin erkən yaşlarda başladığını və həyatın digər mərhələlərində də davam etdiyini araşdırır. Bu araşdırmanın nəticələrinə görə, oxuma bacarığı birbaşa onların lüğət bazası, anlama qabiliyyəti, dünyagörüşü və sair kimi faktorlarla əlaqəlidir.

Açar sözlər: tədris, oxu, əyləncə, fəaliyyət, strategiyalar

ОБУЧЕНИЕ ЧТЕНИЮ В УДОВОЛЬСТВИИ

РЕЗЮМЕ

В этой статье рассказывается о том, как обучать чтению интересным, захватывающим, мотивирующим и забавным способом, используя различные виды деятельности и методы. Чтение всегда считалось скучным, трудным, неинтересным из-за отсутствия достаточного количества времени, отсутствия подходящих книг, неспособности выбрать правильные стратегии и требований экзаменов по учебной программе. Как и остальные четыре навыка, навыки чтения помогают понимать и понимать символы, буквы, слова и тексты, которые читаются. Мы можем использовать множество методов, чтобы помочь учащимся овладеть навыками чтения. Три разные группы студентов университетов и детей трех разных возрастов обучали навыкам чтения с использованием забавных методов дома и в классе в течение определенного периода времени, и результаты представлены в этой статье. В этой статье исследуется, что привычка к обучению начинается в раннем возрасте и продолжается на других этапах жизни. Согласно результатам этого исследования, способность к чтению напрямую связана с такими факторами, как их словарный запас, понимание, мировоззрение и многое другое.

Ключевые слова: обучение, чтение, развлечение, деятельность, стратегии.

Oxumağı öyrənmək uşaqların doğuşdan öyrənməyə başladıqları dil bacarıqlarının təməli üzərində qurulur. Bu həm mürəkkəb, həm də heyrətamiz bir prosesdir. Digər vərdişlərdən fərqli olaraq oxuma vərdişi öyrənmədən, təbii yolla əldə edilə bilmir, ona görə də uşaqların oxuma qabiliyyətini artırmaq üçün evdə valideynlər və məktəbdə müəllimlər tərəfindən xüsusi tədris strategiyaları tətbiq olunur. Ev uşağın ilk məktəbi, valideyn ilk müəllimi, oxu isə ilk öyrədilən bacarıq olmalıdır. Öncə oxumağı öyrənmək, sonra isə öyrənmək üçün oxumaq lazımdır. Çünki hər şeyi öyrənə bilmək üçün oxu bir açardır. Ona görə də oxu ilə ilk tanışlıq valideynlərin uşaqlara nağıl oxumağından başlayır. Danışılanan, uşaqla ünsiyyət qurulan, ona mahnılar oxunub, nağıllar danışklan sağlam mühit oxuma vərdişində uğurlu oxucular yetişdirməkdə köməkçi amillərdən ən önəmlisidir Oxumaq insanların həyatında vacibdir, çünki təkcə təhsildə deyil, həm də həyatın bütün digər sahələrində uğura gedən yol oxumaqdan keçir. Lakin hər kəs oxumağı öyrənə bilmir və ya oxuya bilmir, oxuduqlarını eyni dəqiqliklə, səlisliklə, sürətlə, eyni vaxt aralığında başa düşə bilmir. Hər bir kəs fərqlidir, ona görə də müxtəlif tədris fəaliyyətləri uşağın yaşından, şəxsiyyətindən, dünyagörüşündən, yaşadığı cəmiyyətdən və s. asılı olaraq fərqli şəkildə istifadə olunmalıdır. Gələcəkdə oxumağa davam edə bilmək üçün uşaqlara oxumağı uşaqlıqdan sevdirmək vacibdir , bunu da onları əyləncəli şəkildə dəstəkləyərək etmək olar. Yaxşı oxuya bilməyən insan digər məsələləri həll edə bilməz.

Oxumağı öyrətməyə başlayarkən bir neçə nüansa fikir vermək lazımdır. İlk öncə öyrənmə prosesi səslərdən başlamalıdır. Uşaq mahnıları , nazlama və oxşamalar sadəcə əyləncə üçün deyil. Onlardakı qafiyə və ritm uşaqlara sözlərdəki səsləri və hecaları eşitməyə kömək edir, bu da onlarda oxumağı öyrənməyə həvəs yaradır. Akademik performansdan əlavə erkən yaşda oxumağa başlayan uşaq zamanla hər şeyi oxuya bilir və ona görə də oxumaqdan zövq alaraq kimdənsə asılı olmur və bu onda özgüvən yaradır. Bu da öz növbəsində uşağın asudə vaxtını da səmərəli keçirməyinə imkan verir . Bundan əlavə ətraf yazılarla, işarələrlə, etiketlərlə zəngin olduğundan oxumağı bacaran onların mənasını da anlayanda ətrafda nə baş verdiyinə daha yaxından bələd olur.

Oxumağı öyrənməkdə ən vacib bacarıqlardan biri də fonemik şüurdur, hansı ki bu sözlərdə müxtəlif səsləri eşitmək və manipulyasiya etmək bacarığıdır. Fonemik şüurun formalaşması üçün ən yaxsı yol birlikdə ritmik şəkildə əl çalmaq və mahnıları bir ağızdan oxumaqdır. Bu əyləncəli oyun öyrənən və öyrədici arasında sıx əlaqə yaratmaqla yanaşı uşaqlarda oxumada uğur qazanmağa imkan verəcək bacarıqların dolayı yolla inkişaf etdirmək üçün fantastik bir yoldur. Bir sözü yaradan ayrı ayrı səsləri, həmin səslərin yerini dəyişməklə və ya bir biri ilə əvəz etməklə müxtəlif sözlər yarada biləcəyini uşaq öyrənməlidir. Bundan əlavə nə öyrədilməsindən asılı olmayaraq söz, cümlə və ya hekayə belə olsa onu öyrədərkən uşaqların maraq dairəsini nəzərə almalı, öyrətmə prosesində zor tətbiq edib oxumanı neqativ hadisəyə çevirməməliyik. Uşaqlar ən gözəl şəkildə əylənərək öyrənirlər .Bu zaman yəni öyrənmə prosesində öyrədənlə öyrənən arasında sevgi bağının olması da əhəmiyyətlidir. Öyrənmə prosesinə uşaqların istəyindən asılı olaraq mümkün qədər az zaman ayırmaq lazımdır. Gün ərzində üç dəqiqə kifayətdir ki, uşaq oxumaqdan, öyrənməkdən bezməsin. Əgər ehtiyac olarsa ara vermək də olar. Erkən vaxtlarda sadəcə körpəylə danışmaq ona nə isə öyrədirsə sonradan ona kitab oxumaq mərhələsinə keçiddə şəkil göstərmək,şəkilləri izah etmək, şəkillə sözlər arasında əlaqə yaratmaq uşağa kitabı anlamağı və ondan zövq almağı öyrədəcək. Uşaqlara kitab oxumaq valideynlərin uşaqlara oxunu öyrətmək üçün etdikləri ən önəmli fəaliyyətlərdən biridir. Bu zaman nəzərə almaq

lazımdır ki, başlanğıcda çox sözdən ibarət mətnlər oxucu üçün çətin ola bilər. Bir səhifədə çox söz olmamalı, ifadələrə, cümlələrə keçməzdən əvvəl tək sözləri səsləndirməklə oxumağa başlanılmalıdır. Kitab oxuyarkən uşağın yaşına uyğun əyləncəli üsullarla uşaqda maraq yaratmaq olar. İlk əvvəllər kitab oxuyanda onu yüksəkdən oxuyaraq, oxuduğunu izah edərək, sonrakı zaman aralığında isə ona oxunulan hekayə ilə bağlı suallar verərək oxunu əyləncəli hala çevirmək olar.

Bir çox insan uşağa oxumaq kimi sadə bir fəalliyyətin bir uşaqda nələrə kömək edəcəyinin elmi əsasını dərk etmir. Kitab oxumaq uşaqlara təkcə sözlərin necə səsləndiyini öyrətmir, eyni zamanda onların lüğət ehtiyatını artıraraq anlama bacarıqlarını inkişaf etdirir hansı ki, bu da onların gələcəkdə səlis danışmağına xidmət edir. Ən əsası, müntəzəm mütaliə uşaqda oxumaq sevgisini inkişaf etdirir. Düzgün kitab seçimi də bu prosesdə önəmli faktorlardan biridir. Belə ki, uşaqları erkən yaşlarda şəkilli, parçadan olan, yapışqanlı cırılmayan üz qabıqları olan, qalın səhifələrdən ibarət kitablarla tanış edib, onlara toxunmağı, vərəqlərini çevirməyi, ümümilikdə kitablarla oynamğı öyrədən valideyn sonrakı yaş dövrlərində az sözdən ibarət, uşağın maraq dairəsinə uyğun, heyvanlar, təbiət və ya şəhzadələr haqqında qısa hekayələr olan kitablar seçərək uşaqlar oxumanı daha əyləncəli edə bilərlər.

Oxumanı öyrətdikcə uşaqlarda bu şeyləri öyrətmək lazımdır. Diqqəti şəkillərə yönəltmək, hekayənin başlanğıcını, sonunu, növbəti səhifəyə keçəndə hekayənin sözlərinin yeni səhifədə hardan davam etdiyi yeri göstərmək, mətni oxuduqca barmağınızı sözlərin altında hərəkət etdirərək izləməyi öyrətmək önəmlidir. Uşağın bunları öyrənməsi üçün vaxt lazımdır. Təəccüblüsü budur ki, bütün bu yazılanlar yalnız ana dilində oxuya aid deyil. Öz ana dilində oxumaqdan zövq alan uşaq bunu ikinci dildə də göstərə bilər. Oxumanı öyrənərkən hər uşağın individual olduğunu nəzərə aldığımız kimi, onların bir yaşdan digər yaşa keçən müddətdə böyüdüyü üçün dərhal bir fəaliyyət növünü dayandırıb digərinə keçəcəyini də gözləmək olmaz. Belə ki, dörd yaşılı uşaq oxunulan mətni anlayıb yadda saxlayırsa o üç yaşdan dörd yaşa keçən kimi bunu bacarmalıdır deyə bir qanun yoxdur. Müəyyən yaşda uşaq müəyyən vərdişləri bacarmalı olduqları halda bacarmasalar belə yaranan problemi müəllim və ya mütəxəssislə birlikdə işləyərək aradan qaldırmaq mümkündür. Eyni zamanda bu həm də vacibdir, çünki oxuma bacarığı zəif olan uşaqlarda bu zamanla özünü onların inkişafına, özünə inam, özünə hörmət hisslərinin formalaşmasına öyrənməyə olan həvəsinə mənfi təsir edən amillərdən ola bilər [1.səh.20].

Uşaqlara kitabların ələncəli, maraqlı olduğunu göstərmək üçün evdə kitabxana yarada bilərsiniz. Bu birlikdə hazırladığınız hər hansı qutu və ya evin hər hansı bir hissəsi ola bilər.Bu zaman uşaq kitabların yerini bildiyi üçün istədiyi vaxt gedib istədiyi kitabı götürüb oxuya bilər. Uşaqlara kitab hədiyyə etməklə, uşaqlar üçün kitab satılan dükanlarda və ya kitabxanalarda vaxt keçirdərək kitaba, oxumağa maraq yarada bilərsiniz. Uşağı kitabxanaya aparmaqla onlar üçün elmə, kəşfə, fantaziyaya qapı açmış olarsınız. Bundan əlavə evdə oxu bucağı da yarada bilərsiniz. Bura uşağın da, sizin də özünüzü rahat hiss edə biləcəyiniz bir yer, yataq otağı, mətbəxt və ya sizin üçün xüsusi başqa bir məkan ola bilər. Bu da uşağın oxumağı rahat bir fəaliyyət olduğuna inandırır.

Uşaqlarda oxumaq bacarığını inkişaf etdirmək onlarda erkən savadlılıq üçün uğura yol açmaq deməkdir. Bəzən oxumaq üçün sadəcə kitaba ehtiyac yoxdur. Hər hansı qəzet, jurnal, broşura, yemək reseptləri də ən gözəl vasitə ola bilər. Bunun üçün həyata keçirilən bu

məqalədə qeyd olunmuş bir neçə sadə strategiya uşaqların yaxşı oxucu kimi formalaşmasında mühüm fərq yaradacaq [3.səh.20]. Ancaq nəzərə almaq lazımdır ki, bütün bunlardan əlavə uşağın oxu bacarıqlarını inkişaf etdirməyin ən əsas yolu oxumaq, oxumaq və daha çox oxumaqdır! Uşaqlar daha çox oxuduqca daha çox sözlə qarşılaşacaqlar, sözləri düzgün tələffüz etməyi məşq edəcəklər və səlis danışıqlarını inkişaf etdirəcəklər.

Bu məqalədə oxunu sinifdə, evdə əyləncəli öyrətmək üçün on beş oyun və fəaliyyət növündən bəhs ediləcək. Lakin bir şeyi yadda saxlamaq lazımdır ki, bunları tətbiq edəndə tələbələrə oxumağı öyrədərkən onların əylənməsi üçün mütləq öyrədən özü də əylənməli və öyrətməkdən zövq almalıdır. Əgər müəllim öz sevincini və həvəsini sinifə gətirmirsə, öyrədən zaman özü də əylənmirsə onun uşaqları əyləndirmək üçün nələr etdiyinin heç bir əhəmiyyəti qalmır.

1) Hekayə danışmaq. Bu həm evdə, həm də sinifdə istənilən sahədə istifadəsinin faydalı olduğu görülən fəaliyyət növüdür. Düzgün intonasiyadan istifadə edərək, aydın və səlis danışmaqla tam cümlələr qurmaqla uşaqların dinləmə və dili anlama bacarıqlarını gücləndirmək və düzgün danışıq tərzini modelləşdirmək mümkündür. Eyni zamanda uşaqdan da hekayə danışmasını istəmək də inkişafa çox kömək edir. Küçədə gəzərkən, alış veriş edərkən başına gələn və ya gördüyü hər hansı hadisə barədə danışmaq buna nümunə ola bilər.

2)Səsləndirmək: Əgər uşaqlarınız müəyyən bir sözü öyrənməkdə çətinlik çəkirsə, onunla mübarizə aparırsa, həmin sözü fonetik baxımdan hissələrə parçalamaq və hər bir səsi ayrı-ayrılıqda ucadan söyləmək lazımdır. Bu, onlara çətin sözləri birləşdirməyə və səslərin sözün yaranmasına qarşılıqlı necə təsir etdiyini başa düşməyə kömək edir. Bu üsul oxumağı öyrətməyin ən geniş yayılmış üsullarından biri olaraq uşaqları ucadan oxumağa, hər hərfi və ya hərf qrupunu, sözü tanıyana qədər tələffüz etməyə təşviq edən səsli üsuldur.

3) Beyin xəritəsi: Uşaqlar söz, paraqraf və ya hekayə qurmazdan əvvəl əqli hücum edərək fikirlərini təsvir etmək üçün əyləncəli fəaliyyət vasitəsilə sözləri və cümlələri planlaşdırmağı və təşkil etməyi öyrənirlər. Bu fəaliyyət növü hər səviyyəyə uyğunlaşdırıla bilər. Fəaliyyət əvvəlcə uşaqlara təcrübə vermək üçün bütöv bir qrupla, sonra isə həm kiçik qruplarda, həm də fərdi olaraq həyata keçirilə bilər.

4)Təxmin etmək: Proqnozlaşdırma gələcək hərəkətləri və ideyaların sonunu əvvəlcədən bilmək və ona hazırlaşmaqdır. Oxucular mətni oxumazdan əvvəl, oxuyarkən və oxuduqdan sonra baş verə biləcək hadisələrə dair proqnoz vermək üçün mətndəki yazılı və vizual ipuculardan, şəkil və ya hekayənin başlığından, eləcə də öz şəxsi təcrübələrindən istifadə edərək mətndə nədən bəıhs edildiyini, hekayənin nə haqqında ola biləcəyini təxmin edərək, özləri yeni hekayə qura, hekayəni tamamlaya, sonda da öz fikirlərini müzakirə edə bilərlər. Oxu zamanı bu strategiyadan istifadə uşaqlara hekayənin əsas xüsusiyyətlərini başa düşməkdə daha inamlı olmağa, yazıda ipuçlarını birləşdirməyə, daha yaradıcı düşünməyə kömək edir.

5) Hərəkətlə göstərmək: Uşağa oxuduğuna bir az həyəcan və maraq qatmağın ən asan yollarından biri birlikdə oxuduğunu canlandırmaqdır. Bu fəaliyyət növünü də həm evdə, həm də sinifdə təşkil etmək olar. Bu zaman öyrəncilərdən sevdiyi kitabı seçmələrini, öz aralarında personaj seçimi etmələrini tələb etmək, lazım olduqda isə kömək etmək olar. Sinifdə və ya evdə tamaşa quranda uşaqlardan obraz seçimi ilə bağlı fikir almaq mütləqdir.

Belə ki, onların və sizin hansı obrazı oynayacağınızı birlikdə müzakirə etmək çox gözəl nəticə verə bilər. Birlikdə obraza uyğun kostyum da seçə bilərsiniz [4.səh.20]. Ola bilsin ki, onlar hekayəyə uyğun dekorasiya da çəkmək istəyə bilərlər. Bu, tamamilə sizə bağlıdır. Əyləncəli olması üçün birlikdə bunu da edə bilərsiniz. Kitabda bir neçə personaj varsa, digər böyüklərdən və ya uşaqlardan da sizə qoşulmalarını xahiş edə bilərsiniz. İlk öncə qısa hekayə seçin və sonra hər kəsin oynaması üçün bir xarakter seçin. Məsələn bu hekayə turpun nağılı ola bilər. Burada bir çox insanın iştirakı övladınız üçün daha əyləncəli və faydalı ola bilər. Hekayəni ucadan oxuyaraq, hekayədəki personajlara uyğun səslər çıxardaraq, gülməli hərəkətlər edərək hekayəni uşağın beynində canlandırmağa, və onu təsəvvür etməyinə kömək edə bilərsiniz. Bu, onlarda hekayə ilə tamamilə yeni səviyyədə məşğul olmağa və beyinlərini işə salmağa yardımçı olacaq. Çünki uşaqlar gülməyi və zarafat etməyi sevirlər, buna görə də bir hekayəni axmaq səslərlə oxuya bilərsiniz. Yüksək tonda, ayı kimi danışaraq və ya sonra pişik kimi miyoldayaraq müxtəlif səslər çıxardaraq hekayəni daha maraqlı canlandıra bilərsiniz. Övladlarınızın bu hekayələri sözdən başqa, səslə də canlandırdığınızı görməkdən xoşu gələcək və birlikdə xoş anlar keçirməklə yanaşı onlarda oxuya həvəs də yaradacaqsınız.

6) Kitabdan kitab yaratmaq: Bir neçə kağız parçası götürərək işə başlamaq olar. Hər kağızın altına bir rəqəm məs. 1,2...6 yazıb sonra uşağın sevdiyi və tanış olduğu qısa bir kitabı götürüb uşaqla birlikdə kitabın yeni, sizə aid versiyasını yaratmaq onda oxumağa maraq yaradan oyunlardan biri ola bilər. Sizin köməyinizlə üz qabığını, kitabın içindəkilərin bir hissəsini çəkməklə, qalan səhifələrə onların hekayəsini yazaraq, yeni nələrisə də əlavə edərək öz kitabınızı yaratmış olacaqsınız. Bu kitab onlar üçün xüsusi olacaq. Bu fəaliyyət növü uşaqlarda oxuduqlarını anlama hissini inkişaf etdirərkən eyni zamanda onlara yaradıcı və bədii olmağa da imkan verir. Hekayəni kağız üzərində yenidən yaratmaq onlara oxuduqlarını xatırlatmağa və hekayə ilə daha dərindən tanış olmağa imkan verə bilər. Eyni zamanda bunu sinif otağında şagirdlərə qrup şəklində işləmələrini tapşıraraq həyata keçirmək olar.

7) Təqlid oyunu oynamaq: Təqlid oyunu heç bir əlavə materiala ehtiyac duymadan oxumağı öyrətməyin əyləncəli yollarından biridir. Bu fəaliyyət zamanı hər hansı materialı oxuyan zaman səsinizi dəyişdirin və sonra oxuduğunuz eyni cümləni bu dəfə onların sizi təqlid edərək oxumalarını xahiş edin. Cümlələrin bəzilərini pıçıltı ilə, digərlərini qışqıraraq, ən əsası da uşağın gülüşünə və diqqətinə səbəb olacaq tərzdə deyə bilərsiniz. Bu fəaliyyət zamanı yeni və ya tanış sözlərin fərqli intonasiyada, fərqli şəkildə tələffüzünü eşitmək və sonra onu eyni şəkildə təqlid etmək uşaqlara sözləri düzgün şəkildə öz lüğətlərinə inteqrasiya etməyə kömək edir. Sözlərinizi tam şəkildə necə dediyinizi təqlid etmək üçün uşaqlar oxuduğunuza xüsusi diqqət yetirməyə məcbur olurlar və bu da onlarda diqqəti artırır.

8) Ucadan oxumaq: Ucadan oxumaq uşaqları hekayəyə cəlb etmək üçün istifadə olunan starategiyalardan biridir. Sinifdə və ya evdə müntəzəm şəkildə ucadan oxumağın uşaqlara anlamanın yaxşılaşdırılması, dinləmə bacarıqlarının formalaşdırılması və onların lüğət ehtiyatının inkişafı kimi bir çox faydaları var. Ucadan oxuyan zaman heç bir tapşırıq, heç bir sual olmadığı üçün bu oxunu daha maraqlı edir və dinləyən də oxudan sadəcə zövq alır.

9) Mətnləri təkrar oxumaq : Şagirdlərə eyni mətnləri bir neçə dəfə oxumağa icazə verin. Bunu etməklə, onlar nəinki səlis danışıq qabiliyyətini formalaşdırır, həm də özünə inam

yaradırlar. Onlar oxu bacarıqlarına nə qədər çox yiyələnsələr, oxumaqdan bir o qədər həzz alacaqlar.

10) Bingo: Oxumada binqo oyunu hər bir uşağa fərdi şəkildə uyğunlaşdırılır. Mətn sinfin səviyyəsinə görə seçilir və mətndə tapılan sözlərin siyahısı tərtib edilir. Hər söz ucadan oxunur. Bu sözləri vərəqdə tapmaq üçün növbəti sözə keçməzdən əvvəl təxminən 15 saniyə vaxt verilir. Sözlər tapıldıqda, onlar qeyd olunur. Sonda kimdə daha çox söz tapılıbsa, o qalib gəlir!

11) Baş barmaq yuxarı, baş barmaq aşağı: Bu oyun tələbələri məşğul saxlamaq üçün əla seçimdir. Oxunmuş mətnə aid hər hansı bir cümlə və ya deyilən hər hansı bir fikir doğru olarsa tələbərdən baş barmağı yuxarı qaldırmaq, yalan olarsa baş barmağı aşağı salmaq istənilir. Qrammatik anlayışları qavramayıb qavramadıqlarını yoxlamaq üçün də eyni oyunu tətbiq etmək olar. Məsələn, cerund deyilən zaman tələbələr baş barmağı yuxarı qaldıra, məsdər deyilən zaman isə aşağı sala bilər.

12) Boş buraxılmıs hərfi tapmaq: Hərf və ya səsləri öyrətmək üçün bu oyun yaradıcı olmaqla yanaşı həm də əyləncəlidir. Bu oyunda obyektlərdə, adlarda, istənilən mövzuya aid sözlərdə ilk, orta və ya son hərfləri buraxa bilərsiniz və uşaqlardan düzgün sözü tapmağı xahiş edə bilərsiniz.

13) Oxu yarışları: Hər ay və ya müəyyən müddət ərzində nəzərdə tutulmuş zaman aralığında oxucuları oxumağa həvəsləndirmək, oxu vərdişlərini artırmaq üçün kitab sayı, janr növləri, dəqiqələrin sayı kriteriyaları üzrə yarışlar təşkil etmək olar.

14) Kitab hesabatları: Bu fəaliyyət növü klassik oxu fəaliyyət növü olaraq, uşağa oxuduğu haqqında tənqidi düşünməyə, tənqidi fikir söyləməyə kömək edir. Oxuyuculardan oxuduqları və həqiqətən həzz aldıqları bir kitab haqqında danışmasını istəyin. Bu zaman uşaq kitabdakı ən vacib mövzuları vurğulayaraq, kitabı təhlil edir. Kitab haqqında sualları müzakirə edir, məs: "Kitabda nəyi sevdilər?","Sevdiyi qəhrəman kim oldu?", "Kitab gülməli yoxsa ağlamalı, yəni hansı janrda idi?", "Kitabı fərqli necə tamamlaya bilərdi?", "Kitabda sevdiyi və sevmədiyi nə oldu?" və s. kimi suallarla kitaba daha çox maraq yaratmaq olar. Kitab haqqında bu cür söhbətlər uşaqları oxumağa həvəsləndirmək üçün əyləncəli bir yoldur. Şagirdlərin oxumaq təcrübələrini sinif yoldaşları ilə bölüşməyi onlarda motivasiya yarada bilər. Kitab danışıqları zamanı uşaqlar kitab haqqında qısa bir xülasə paylaşmalı, onu niyə bəyəndiklərini və ya bəyənmədiklərini təsvir etməli və sinif yoldaşlarının bunu niyə oxumalı olduğunu izah etməlidirlər. Kitab müzakirələrində oxuyucular müxtəlif çeşiddə, müxtəlif kitab adları ilə tanış olurlar. Belə ki, hər gün bir nəfər bir kitabla çıxışı edərsə, bu, bir il ərzində 180 yeni kitab deməkdir. Uşaqlar özləri oxumasa belə, bir neçə kitab haqqında məlumata sahib olurlar və bu da şübhəsiz ki, onları oxumağa həvəsləndirəcək.

Bundan əlavə bu fəaliyyəti daha da genişləndirmək məqsədilə onlardan özlərinin kitab yazmasını da istəmək olar. Bu bacarığı olan biri kitab yaza, və məsul şəxsin köməkliyi ilə onu çap etdirib auditoriyaya təqdim edə bilər. Bu da başqa uşaqlara da ilham verə bilər .

15) Hekayəni genişləndirin: Bir çox hekayələr "Və bundan sonra da xoşbəxt yaşadılar..." cümləsi ilə bitir. Bəlkə də bu cümlə doğrudur, amma biz sonra nə olduğunu bilmirik. Bəzi hekayələrdə isə sonunu oxucuların tamamlaması üçün müəllif ideyasını bitirmir, hadisələr tam yekunlaşmır. Bu uşaqlar üçün hekayəni davam etdirən, sona çatdıran zaman çoxlu fikir mübadiləsi üçün ela fürsət yaradır. Hər kəsin öz fikri var, ona görə də uşaqdan onun fikrini

bu cür suallarla soruşmaq olar. " Sonra hara gedirlər? " ,"Kimlə görüşürlər?"," Necə daha yaxşı ola bilərdi?", "Sən olsaydın necə bitirərdin və ya necə davam edərdin?" kimi suallarla hər bir uşağı danışmağa sövq edə bilərsiniz. Onların fikirlərindən asılı olmayaraq hər birini ayrı ayrılıqda dinləyin və müzakirə edin. Bu onlarda özgüvən yaradacaq.

Bu məqalədə evdə və ya sinifdə müəllimlərə və ya analara uşaqlara oxu bacarığını maraqlı şəkildə necə öyrədə bilmələri üçün faydalı olacaq, oxumağa həvəsi artırmaq üçün istifadə olunan starategiyalardan bəhs olundu. Bunlar tətbiq olunarsa mütləq ki, oxuda hansısa nöqtəyə gəlinmiş olacaq. Bu nöqtəyə qədər olan bacarıqların əksəriyyəti, öyrənən üçün oxumağı öyrənmə prosesini daha asanlaşdırmaq üçün onların ilk vaxtlarda və sonralar üzərində işləyib inkişaf etdirilə bilən bacarıqlardır. Uşaqlar güclü oxucuya çevrildikcə, daha sakit səslə oxuyurlar və gördükləri sözün daha çoxunu tanıyırlar. Bu, onları oxuda daha sürətli edir hans ki, bu da onlara oxuduqları kitablarla digərlərini qarşılaşdırmağa, o cümlədən daha mürəkkəb məqalələr oxumağa, onların mahiyyəti başa düşməyə , sonda nəticə çıxarmağa və daha çox şey edə bilməyə kömək edir. Bundan əlavə oxumaq yazı qabiliyyətinin inkişafına da təsir edir. Uşaqlar daha mürəkkəb cümlə strukturları ilə tanış olur və özlərini ifadə etmək üçün onlardan istifadə etməyə və onları öz nitqlərinə uyğunlaşdırmağa başlayırlar. Bütün bunları nəzərə alaraq demək olar ki, oxu İngilis dilindən tutmuş sosial elmlərə qədər kurrikulumun və həyatın bütün sahələrində onlara xidmət edəcək mühüm bacarıqdır.

ƏDƏBİYYAT SİYAHISI

1. Alyousef. Hesham, S. (2005). Teaching Reading Comprehension to ESL/EFL Learners. 143-154. The Reading Marix
2. McNamara., Danielle, S. (2009). The Importance of Teaching Reading Strategies. Perspectives on Language and Literacy, The International Dyslexia Association: Michigan
3. Int J Lang Commun Disord. 2004 Oct-Dec;39(4):453-68. Early literacy achievement of children with a history of speech problems. Hesketh A. Human Communication and Deafness, School of Education, University of Manchester, Manchester, UK.
4. Child Dev. 2002 Mar-Apr;73(2):445-60. Parental involvement in the development of children's reading skill: a five-year longitudinal study. Sénéchal M, LeFevre JA. Department of Psychology, Carleton University, Ottawa, ON, Canada.
5. Dickinson, David K., and Tabors, Patton O. (2001). Beginning Literacy with Language: Young Children Learning at Hom+*e and School. Baltimore, MD: Paul H. Brookes Publishing Co.
6. https://www.learnwithhomer.com/homer-blog/3754/fun-ways-to-teach-reading/

2023. Volume 7, Number 1 *Pages 62-68*

UOT: 811.1/.8

BANQLİŞ DİLİNİN LİNQVİSTİK SİSTEMİNDƏ DİL VAHİDLƏRİNİN TƏHLİLİNƏ DAİR

Aysel SOLTANOVA
Bakı Mühəndislik Universiteti
asoltanova@beu.edu.az

XÜLASƏ

Məqalə dil təması zəminində qarşılıqlı ünsiyyət prosesində iki fərqli dil ailəsinə məxsus dillərin oxşar linqvsitik xüsusiyyətlərinin təhlilini və eyni zamanda hər iki dilə məxsus linqvistik xüsusiyyətlərin vahid bir dildə təşəkkül tapması məsəsləsini araşdırır. Gündəlik ünsiyyət prosesində çoxsaylı nitq vahidlərinin dilə ötürülməsi nəticəsində ingilis və banqla dillərinin qarışımından yeni - banqliş dilinin meydana gəlməsi və ictimai – siyasi, eyni zamanda mədəni mühitdə bilinqual şəhər əhalisinin əsas ünsiyyət vasitəsinə çevrilməsi fonunda hər iki dilə məxsus cümlə strukturlarının təhlili məqalənin əsas tədqiqat obyektidir. Məqalənin tədqiqat metodu iki müxtəlif dil ailəsinə aid dillərin müqayisəli təhlilini özündə əks etdirən müqayisəli metoddur. Hər iki dilin müqayisəli təhlili zamanı oxşar və fərqli linqvistik, semantik və eyni zamanda sintaktik strukturların müqayisəsi və eyni və ya oxşar keyfiyyətlərin hibrid dildə öz əksini tapması məqalənin tədqiqat işinin müzakirəsini əhatə edir.

Açar sözlər: dil təması, nitq vahidləri, dil ötürülməsi, linqvistik xüsusiyyətlər.

ОБ АНАЛИЗЕ ЯЗЫКОВЫХ ЕДИНИЦ В ЛИНГВИСТИЧЕСКОЙ СИСТЕМЕ БЕНГЛИШСКОГО ЯЗЫКА

РЕЗЮМЕ

В статье рассматривается анализ сходства языковых особенностей языков, принадлежащих к двум разным языковым семьям, в процессе взаимного общения на основе языкового контакта, и в то же время вопрос формирования языковых особенностей обоих языков на одном языке. Основным объектом исследования статьи является анализ конструкций предложений обоих языков на фоне возникновения нового бенглишского языка из смешения английского и банглаского языков в результате переноса многочисленных речевых единиц на язык в процессе повседневного общения и становится основным средством общения двуязычного городского населения в общественно-политической и культурной среде. Метод исследования статьи – сравнительный метод, который включает в себя сравнительный анализ языков, принадлежащих к двум разным языковым семьям. При сопоставительном анализе обоих языков сравнение сходных и различных языковых, семантических и в то же время синтаксических структур и отражение одинаковых или сходных качеств в гибридном языке включает в себя обсуждение исследовательской работы статьи.

Ключевые слова: языковой контакт, речевые единицы, языковая передача, языковые особенности.

ON ANALYSIS OF LANGUAGE UNITS IN LINGUISTIC SYSTEM OF BANGLISH LANGUAGE

ABSTRACT

The article examines the analysis of similar linguistic features of languages belonging to two different language families in the process of mutual communication on the basis of language contact, and at the same time, the issue of the formation of linguistic features of both languages in a single language. The main research object of the article is the analysis of the sentence structures of both languages in the background of the emergence of a new Banglish language from the mixture of English and Bangla languages as a result of the transfer of numerous speech units into the language in the process of daily communication and becoming the main means of communication of the bilingual urban population in the socio - political and cultural environment. The research method of the article is a comparative method, which includes a comparative analysis of languages belonging to two different language families. During the comparative analysis of both languages, the comparison of similar and different linguistic, semantic and at the same time syntactic structures and the reflection of the same or similar qualities in the hybrid language includes the discussion of the research work of the article.

Key words: language contact, speech perceptions, language transmission, language features.

Hibridləşmə termininin araşdırılması son dövrlərdə Homi K. Bhabhanın adı ilə bağlıdır. 1994 – cü ildə Homi Bhabhanın *"Location of Culture"* əsərindən sonra əsas müzakirə mövzusuna çevrilən hibridləşmə post – imperiya cəmiyyətlərinin məhsuldur desək yanılmarıq. Məlum olduğu kimi Avropa cəmiyyətləri 14 – cü əsrə qədər şərqin mədəni təsirinə meyl etmiş və yalnız 19 – cu əsrdən sonra hegemonluğu ələ almışıdr. Mədəni müxtəlifliyin də genişlənməsi məhz bu dövrlərə təsadüf edir ki, bu yalnız kiçik - kiçik sənaye dövlətlərində deyil, eyni zamanda böyük, qarışıq və gecikmiş kapitalizm ölkələrində də mövcud bir vəziyyətə çevrildi. Onun araşdırmalarında bu termin eyni mühitdə bir - birindən qarşılıqlı şəkildə asılı olan koloniya əlaqələri fonunda təşəkkül taparaq ortaq subyektivlik anlayışının formalaşması kimi təqdim olunmuşdur [7]. Bu termin bir sıra alimlər tərəfindən mənfi mənada şərh olunsa (Georg Simmer, Alfred Schütz) da, Gilberto Freyre Braziliyanın koloniya cəmiyyətində baş verən mədəni hibridləşməni müsbət hadisə olaraq dəyərləndirmişdir [12: s.18]. Hibridləşmə post – imperiya şəraitidə mədəniyyətlərarası mübadilə prosesi zəminində daha intensiv şəkildə istifadə olunmağa başlayan bir termin olaraq müasir dövrdə də cəmiyyətin reallığını əks etdirməkdədir. Bu termin işləndiyi dövrlərdən etibarən hakimiyyət və imtiyaz əlaqələri arasındakı qeyri bərabərlik prinsipini daha qabarıq şəkildə nümayiş etdirdiyi üçün mənfi aspektlərdən dəyərləndirilmişdir. Həm müstəmləkəçi, həm də müstəmləkənin mədəni, siyasi, linqvistik ötürmə xüsusiyyətlərinin məqsədi müəyyən məqamlarda müəyyən mühüm fakt və dəlillərin məqsədyönlü şəkildə gizlədilməsi məqsədi daşıyırdı. Filoloji nöqteyi nəzərdən isə hibridləşmə termini daha öncəki qeydlərdə də vurğulandığı kimi ilk dəfə rus alimi Mixayıl Baxtin (1895 - 1975) tərəfindən tədqiq edimişdir. Homi Bhabha və Mikayıl Baktin iki dilin kontaktindan yaranan üçüncü dili "üçüncu sahə və yaxud hibrid sahə" adlandırmışlar. Bhabha bilidirmişdir ki, mənə görə hibridləşmə digər mövqelərin yaranmasına təkan verən "üçüncü sahə" dir [8]. İngilis postkolonyalizm tarixçi, mədəni - tənqidçi və nəzəriyyəçisi Robert J.C.Young hibridləşə və kreollaşmanın həm şüurlu, (qəsdən irqçilik toxumu səpmək məqsədilə) həm də kortəbii olaraq (əhali arasında dillərin assimilyasiyası nəticəsində) meydana gəlməsini vurğulamışdır. Şüurlu və məqsədyönlü şəkildə əhalinin üstün təbəqəsinin dominantlığı sahəsində araşdırmalar aparan dilçilər 1960 - cı illərdən etibarən belə qənaətə gəldilər ki, dil fərqi yalnız ərazi fərqi ilə məhdudlaşmır. Belə ki, onların qənaətinə əsasən buna təsir edən ən mühüm faktorlar kimi fərdlərin sosial təbəqə fərqlərini, cinsini, təhsilini, tarixi keçmişini, etnik xüsusiyyətlərini vurğulamaq mühüm əhəmiyyət kəsb edir [9: s. 28]. Bu cür qarışım hər hansı bir xüsusi əraziyə xas olmayıb cəmiyyətlərarası əlaqələrlə şərtlənir. Yəni eyni fərd mövcud deyil. Fərdlər yalnız bir - biriləri ilə qarşılıqlı əlaqə fonunda eynilik təşkil edə bilərlər. Hətta qarşılıqlı əlaqə nəticəsində dünyaya gələn bir fərd belə özünəməxsus fərqli xüsusiyyətlərə malikdir. Araşdırmalar zamanı bir çox suallar ortaya çıxmışdır. Biz hibridləşmə terminini nə üçün istifadə edirik? *"Tədqiqat apararkən bu termindən istifadə etməliyik, yoxsa bu ifadənin analizi üçün fərqli bir terminmi araşdırıb tapmalıyıq"*sualına cavab axtararkən bu qənaətə gəlindi ki, koloniya dövründən sonra bu termin istifadədən kənarda qalmış, lakin sonrakı dövrdə ölkəşünaslıq və mədəniyyətlərarası əlaqələrə "saflıq", "təmizlik" termini adı altında adı çəkilən anlayışla ona yeni ruh gətirildi. Bu, saflığın, təmizliyin mövcud olması faktını qəbul etmək deməkdir. Belə ki, bu cür alınma sözlərin dilə keçidi nəticəsində yaranan hibrid söz düzəltmə prosesi xüsusi etimoloji hibridləşmə prosesi ilə ifadə olunur. Bu kimi dil vahidlərinin hibridləşməsi və ya çarpazlaşması nəticəsində tamamilə yen bir dil və dil vahidinin yaranması prosesi baş verir.

Hibridləşmə termini Vaynraxın tədqiqat işində də dil transferinin yeni forması kimi bir - birinə uyğun dil orqanizmlərinin hibridləşməsi kimi təqdim edilir. Məsələn, ingilis dilində mövcud olan "folksong" sözü alman dilindəki "folkshield" sözünə analoq olaraq yaranıb. Bu cür söz yaranma proseslərinin təməlində qeyd olunduğu kimi dillərarası təmas faktoru dayanır. Hibrid dil hər A və B dilllərinin lüğət və qrammatikasının 50% ni təşkil etmir, müəyyən vaxtlarda A dilinin hər hansı bir sahəsinin B dili üzərində təsirini də müşahidə etmək mümkündür. Bu hər bir mənbə dilin hibrid dilə təsirinin nə dərəcədə mühüm olmasını bir daha göstərir. Roberts hesab edir ki, dilin qrammatikasını üçüncü dilə ötürən dil onun dili ilə desək "qalib dil" hesab olunur və hətta geneoloji baxımdan bu dil məhv olan dil tərəfindən daha az və ya daha çox təsirə məruz qalaraq bilinqual vəziyyətdən sağ çıxan dil adlandırılır [10: s. 31]. Hətta düşünsək ki, dilin lüğət tərkibinə digər dilin verdiyi töhfə qrammatik tərkibinə verilən töhfə qədər vacibdir, o zaman belə bir sual yaranır bu dil mənbə dilə eyni dərəcədə təsir etməlidirmi? Məsələn, ingilis leksikonunda çox saylı alman mənşəli sözlər mövcuddur, roman dilinin təsiri daha sonralar alman dilinə nisbətən azalmış və alman dili qrammatik baxımdan da dildə üstün mövqeyə malik olmuşdur. Bu səbəbdən İngilis dilinin özü belə hələ də hibrid dil hesab olunur.

Qeyd edildiyi kimi hibrid dillərin meydana gəlməsinə səbəb olan ən önəmli faktorlardan biri dillərarası əlaqə və təmas faktorudur belə ki, dil təması nəticəsinə iki təmas dilinin eyni anda işlənməsi qarışıq linqvistik sistemin yaranması ilə nəticələ bilər. Dillərarası təmasın intensivliyi dillərin dəyişməsinə təsir edir, lakin dil təması zamanı müəyyən bir dilə məxsus xüsusiyyətin digər dildə təzahürünü müəyyən etmək nisbətən çətin və dərin araşdırma tələb edən məsuliyətli vəzifədir. Buna ən bariz nümunələrdən biri kimi Sanskrit dilindən törəyən Hind – Ariya dili ailəsinə məxsus olan, Banqladeş və Hindistanın Qərbi Benqal ərazisinin ana dili olan Banqla dilini misal göstərmək olar. Bu dilin lüğət tərkibinin böyük bir qismini sanskrit dili təşkil etsə də ingilis, holland, fars, ərəb, portuqal dillərindən keçən alınmaların sayı dildə üstünlük təşkil edir. Lakin kolonizasiya ddövründən sonra İngiltərənin mövqeyi gücləndi və ingilis dili ictimai-siyasi, təhsil kimi bir çox sahələrdə prioritet qazandı. Gündəlik ünsiyyət prosesində çoxsaylı nitq vahidləri dilə ötürüldü və nəticədə ingilis və banqla dillərinin qarışımından yeni dil banqliş dili meydana gəldi. İctimai-siyasi və mədəni mühitdə ingilis və banqla dillərinin qarışımı xüsusən də bilinqual şəhər əhalisinin əsas ünsiyyət vasitəsinə çevrilməklə yanaşı zamanla monoliqualların da rəğbətini qazandı.

Banqla dilinin tarixi keçmişinə nəzər salınsa müəyyən etmək olar ki, 19 - cu əsrin əvvəllərindən başlayaraq Banqladeşdə baş verən sosial – iqtisadi şəraitlə bağlı olaraq baqladeşlilər İngiltərəryə üz tutmağa başladılar və zamanla İngiltərə əhalisinin 0.7 faizini təşkil etdilər. Maraqlıdır ki, İngiltərəyə üz tutan əhalinin demək olar ki, yarısı ana dilini Benqali dili hesab etsələr də, digəör yarısı ingilis dilini ana dili hesab edirdilər. İki fərqli dil mühitini özündə əks etdirən cəmiyyətin formalaşması bu cəmiyyətdə dillərarası keçidlərin intensivliyini artırdı. Proses zamanla yalnız fiziki olaraq deyil, eyni zamanda onlayn ünsiyyət prosesi zəminində də insanlar dillərarası keçidlər edərək yeni hibrid dilin yaranmasına uyğun şərait yaratdılar. Nəticədə İngiltərənin şərqində İngilis və Banqla dillərinin qarışığını özündə əks etdirən yeni _ banqliş dili əhali tərəfindən aktiv şəkildə istifadə olunmağa başladı. Bundan başqa İngiltərədnin Asiyada uzun sürən müstəmləkəçiliyi Cənubi Asiyada da bu dilin geniş yayılmasında müstəsna rola malik oldu. İngilis dilinin assimilyasiyaya məruz qalan dili və Banqla dillərinin hibrid forması olan

Banqliş dili hər iki qeyd olunan ərazilərdə istifadə olunaraq geniş vüsət aldı. Bundan başqa bu dilin geniş kütlə tərəfindən istifadəsi həm də cəmiyyyətlərarası əlaqələrin inkişafına səbəb oldu. Bu dilin meydana gəlməsi eyni zamanda heç bir dildə peşəkar dil bacarıqlarına malik olmayanların belə hər iki dil haqda ilkin anlayışlarının formalaşmasına zəmin yaratdı. Eyni zamanda bu dilin meydana gəlməsi hər iki ölkənin mədəni, siyasi, sosial və iqtisadi həyatına müsbət təsir etdi. Hətta qısa müddət ərzində yerli banqladeşlilər biznes loqolarında, elan lövhələrində, mağaza elanlarında hər iki dilin qarışınından ibarət ifadələr istifadəö olunmağa başladı. Aşağıdakı banqliş dilinə aid nümunələrə nəzər salaq.

"Amader exam routine publish hoyese", "Bizim imtahan rejimimiz dərc olundu".[11]

Bu cümləni təhlil etsək müəyyən etmiş oluruq ki, ***exam routine publish*** sözləri ingilis dilinə **amaner, hoyese** sözləri isə banqla dilinə məxsusdur. Nəticədə söz əlavəli hibrid cümlə yaranmışdır.

"Stop writing. Somoy sesh." (Azərbaycan dili)

"Yazmağı saxla. Vaxt bitib"*[11].*

"I do not know. Ata kivabe korbo.", (Azərbaycan dili)

"Bunu necə edəcəyimi bilmirəm". [11]

Yuxarıda qeyd olunan cümlələr isə cümlə əlavəli hibrid struktura nümunə olaraq verilə bilər. Bu nümunədə hər iki cümlə iki müxtəlif dildə verilmiş, nəticədə hər iki dil daşıyıcısı üçün anlaşılan bir vahid formalaşmışdır.

"Tomar barir interior ta onek sundor decorate and design koreso." (Azərbaycan dili)

"Sən evinin interyerini çox gözəl dizayn və dekorasiya etmisən". [11]

Sonuncu nümunə isə banqla dilinin qrammatik strukturu əsasında yaranan hibrid cümlə nümunəsidir. Belə ki, bu cümlədə üç ingilis mənşəli söz- decorate, interior, design sözləri banqla strukturu ilə tamamlanmış və banqliş hibridinin yaranmasına səbəb olmuşdur. Ümumiyyətlə yuxarıda qeyd olunan ictimai – siyasi v əziyyəti əsas tutaraq qeyd edə biləriki ki, Banqliş dilinin yaranmasından cəmiyyətdə dillərarası keçid faktoru əsas hesab olunmalıdır.

Volgemusun araşdırmalarında ingilis dilindən Banliş dilinə keçən felləri asan fellər adlandırır və birləşmənin ikinci tərəfinə aid olan fel yəni alınma fel əsas, birinci tərəfə aid olan fel isə köməkçi fe'l funksiyasını icra edir. İngilis mənşəli isimlərin banqliş dilində işlənməsinə nəzər salaq [5: s. 102]:

Tumi keno class ta faki dile? **(banqliş dili),** ***niyə dərsə iştirak etmirsən?*** (Azərbaycan dili)

Accha sothik option ti pathate hobe, **(banqliş dili), Yaxşı, mənə düzgün variantı göndərməlisən.**

Qeyd olunan cümlələrdə banqla qrammatikası ismin modifikasiyası ilə işlənmişdir. Bu da ingilis mənşəli sözlərin banqla - ingilis qarışımlı banqliş dilinə morfoloji inteqrasiyasına aid ən bariz nümunədir. [1: s.151]. İngilis dili banqliş dilindən fərqli olaraq əvəzliklərdən başqa heç bir hal kateqoriyası mövcud deyil. *Classer pore amake phone dio* cümləsində *class* yiyəlik halda *after me* yönlük halda işlənmişdir. Bu cümlənin ingiliscəsinə nəzər salsaq *Call*

me after the class is over şəklindədir. Nümnədən də görünür ki, ingilis dilində hal kateqoriyası mövcud deyil. Digər banqliş dilindən olan nümunəyə diqqət yetirsək: *classer pore amake phone dio.* [1. s.153] *call me after the class is over.* Bu cümlədə *after me* yönlük, *classer* yiyəlik hal kateqoriyasına aiddir. *"Dərslər bitdikdən sonra mənə zəng et"* mənasını ifadə edən bu cümlədə *class* və *phone* sözləri ingilis dilindən alınmış cümlənin qrammatik strukturu və digər sözləri isə banqla dilinə məxsusdur. Nəticədə hər iki dilin hybrid forması olan Banqliş dili meydana gəlmişdir.

Digər nümunə olan *"Tomar friend ke dako"* cümləsində *friend* ingilis dilindən olduğu kimi alınmış və yönlük halda işlənmiş, *Tomar* - sənin, *friend* - dostuna- *ke dako* - zəng et mənalarını ifədə edir və hibrid cümlə şəklində işlənir. Yuxarıda qeyd olunan cümlədə "ke" yönlük halı ifadə edən sözdür. Belə ki, Banqla dilində "ke" canlı "ta" isə cansız isimlərdən sonra işlənərək ismin halını müəyyən edir [1: s. 153].

Bəzi məqamlarda isə Banqliş dilinə aid olan cümlələr alınma sözlərin işləkliyi ilə deyil, dil keçidi hadisəsi ilə müşahidəsi ilə nəzərə çarpır. *Ami wish korte chai tinjon ke: amar mom, Farhad's mom and my baby's mom ingilis* - banqla qarışımdan ibarət olan bu cümlənin dilimizə tərcüməsi isə aşağıdakı kimidir.

'Mən üç nəfəri görməyi arzu edirəm- öz anamı, Fərhadın anasını və körpəmin anasını'. [1: s.153] Banqla və ingilis dilində cümlələrin struktur baxımından təhlilinə nəzər salsaq müəyyən etmiş oluruq ki, Banqla dili *mübtəda+tamalıq+xəbər*, ingilis dili isə *mübtəda + xəbər+ tamalıq* strukturu müahidə olunur. Banqliş dilində cümlələrarası dil keçidindən başqa hər bir ingilis mənşəli söz banqla qrammatik strukturuna tabe olur və banqla dilinə məxsus hal kateqoriyasını ifadə edən sözlərlə yanaşı işlənir. Digər cümləyə nəzər salaq: *Tahole uni kon mobile theke amader ke sms korchen?* cümləsi *mübtəda+tamalıq+xəbər* strukturlu cümlədir və ingilis dilinə məxsus sözlərlə hibridləşib. Cümlənin ingilis dilində olan qarşılığına diqqət yetirsək; then, from which mobile did he send us sms? Azərbaycan dilində isə *o zaman o kimin mobil telefonundan bizə sms göndərdi? şəklində dilimizə tərcümə olunan eyni cümlənin* strukturu banqla dilinə *mobile və sms* sözləri isə ingilis dilinə aiddir və *ke* yönlük hal kateqoriyasını ifadə edən şəkilçidir.

İsimlərin cəmlənməsində də hibridləşmə müşahidə olunur. Belə ki, ingilis mənşəli sözlər həm ingilis dilinə məxsus -s,-es, həm də banqla dilinə məxsus -ra, -der şəkilçilərinin köməyi ilə cəmlənirlər. Dil keçidi və alınmalar arasında fərqin müəyyən edilməsi nöqteyi nəzərindən isimlərin cəmlənməsi mühüm kriteriya hesab oluna bilər.

Dildə alınma sözlərin cəmlənməsində üç - oikomorfoloji, ksenomorfoloji, allomorfoloji, strategiya izlənilir. Oikomorfoloji strateqiya zamanı sözün hansı dildən alınmasından asılı olmayaraq sözə işləndiyi dilə məxsus şəkilçi artırılır. Misal üçün: ingilislərin *daruk* dilindən aldqları *koala* sözünün hədəf dilin cəm /+s/ şəkilçisini qəbul edir. Ksenomorfoloji cəmlənmədə isə oikomorfolojinın tam əksi baş verir [2: s.6]. Yəni bu halda alınma ismə mənbə dilin cəm şəkilçisi əlavə olunur ki, bu da yeni morfoloji cəm kateqoriyasının yaranması ilə nəticələnir. Misal üçün, yunan sözü olan *phenomenon* sözü ingilis dilində cəmlənərkən sözün sonuna yunan dilində olduğu kimi /+a/ şəkilçisi əlavə olunur. Allomorfoloji cəmlənmə isə digər iki növdən tamamilə fərqlənir. Belə ki, isimlər cəmlənən zaman nə hədəf, nə də donor dilə məxsus şəkilçi qəbul etmir və hər iki dilə aid xüsusiyyətləri özündə əks etdirən yeni morfoloju strukturlu şəkilçi formalaşır və sözlərin cəmlənməsində iştirak edir. Bu o zaman baş verir ki uzun müddət donor dil ilə mənbə dil

arasında təmas özünün ən yüksək həddinə çatır və donor dil tam səlist şəkildə mənimsənilir. Bir dilə məxsus cəm şəkilçisi digər dilə ötürülür və həm yerli, həm də alınma sözlərin cəmlənməsində iştirak edir. Bu hal balkan, boliviya, yidiş dillərində müşahidə olunur. Oikomorfoloji cəmlənmə zamanı inteqrasiyanın ən yüsək həddi, ksenomorfoloji cəmlənmə zamanı isə ən aşağı həddi müşahidə olunur.

"Ami apnader janabo amar ki ki plans ki ki hopes" cümləsinin ingilis dili formasına nəzər salaq: *'I will let you know how many plans, hopes and dreams I have'. "Mən sənə planlarımın, ümidlərimin, arzularımın sayını deyəcəm"* cümləsində *plans və hopes* sözləri və onların cəmlənmə forması ingilis dilində olduğu kimi saxlanılmışdır [3: s.156]. Nəticə etibarı ilə hibrid banqliş dilində ksenomofoloji cəmlənmə müşahidə olunmuşdur. Digər cümləyə nəzər salaq: *awkward situation e porto her student der. Students are pushed into awkward situation. Tələbələr qəribə bir vəziyyətə sürükləndilər,* cümləsininin ingilis variantına nəzər salaq. Burada *student* və *awkward* sözləri olduğu kimi saxlanılmış, ingilis mənşəli *student* isminin *inglis-banqla* qarışıq kontekstində oikomorfoloji cəmlənmə baş vermişdir.

Banqliş dilində fellərin strukturuna araşdırarkən bir neçə məqam diqqətimizi cəlb etdi. Belə ki, banqla dilində sadə, mürəkkəb və digər nitq hissələrindən ibarət fe'l strukturları mövcuddur və bu fellər iki hissədən ibarətdir- əsas məna ifadə edən kök hissə və digər hissə. Lakin hər iki hissə vahid mənanı ifadəsinə xidmət edir. [4: s. 77]. Benqal dilindəki kora - etmək, hova- olmaq, baş vermək, deva- vermək kimi fellər ingilis dilndən keçən fellərlə birləşərək sabit ifadələr yaradır. Aşağıdakı birləşmələrə diqqət yetirək. */EksiDenT kOra/ (accident-do)-qəza törətmək və ya aksiDenT hOwa (accident-be) 'to have an accident'. /ribhEnj newa/ (revenge-take) 'to take revenge'- qisas almaq. /grup kOra/ (group-do),'to put (things/persons) – insanları qrupa bölmək. /Ofish (or Ofis) kOra/ (office-do) 'ofisdə işləmək', /slow kOra/ (slow-do) 'surəti azaltmaq', /kOmpaTibOl hOwa/ (compatible-be) 'to be compatible' -uyğun olmaq. /in kOra/ (in-do) 'içərisinə qoymaq'. /kOnfuz kOra/ (confuse-do) 'fikri qarışmaq'. /jasTify kOra/ (justify-do) 'bəraət qazandırmaq* [4s.77]. Bu birləşmələrin birinci tərəfi ingilis dilindən alınmış və tələffüz forması ilə dilə ötürülmüşdür, ikinci tərəfi isə benqal dilinin sabit ifadələrindən ibarətdir. Nəticədə iki dilin birləşməsindən banqliş dilinə aid feli söz birləşmələri yaranmışdır. Lakin struktur baxımından Banqliş dili benqal, alman, yapon və digər dillərlə eyni struktura malikdir, yəni əsas üzvlərindən olan mübtəda cümlənin əvvəlində, xəbər isə sonunda gəlir. Misal üçün, *Abdullah EksiDenT kOra. Abdulla qəza törədib* mənasını ifadə edən cümlənin ingiliscəsinə diqqət yetirək. *Abdullah had an accident.* İngilis dilində isə göründüyü kimi *mübtəda+ xəbər+ tamalıq* strukturu izlənilir. Banqliş dilində yuxarıda qeyd olunan sabit ifadələr haqqında daha bir maraqlı məqam ondan ibarətdir ki, heç də bütün banqliş fellərini benqal sabit felləri ilə əvəz etmək mümkün deyil və bir çox hallarda birləşmənin ingilis dilində verilmiş hissəsi eyni məna ifadə edən benqal sözü ilə əvəz oluna bilməz. Misal üçün, */obhijog/ 'complaint'-şikayət ↔ /obhijogkOra/ 'to complain'- şikayət etmək, /kOmplein/ 'complaint' ↔ /kOmpleinkOra/ 'to complain'- şikayət etmək. Obhijog* sözü benqal dilinə aiddir və fellə birləşərək sabit ifadə yaratmışdır və eyni ifadəni *kOmplain kOra* birləşməsini yaradaraq benqliş dilində də işlənənmişdir. Bu iki birləşmə arasındakı yeganə fərq benqali dilinə məxsus *obhijogkOra* feli olmadığı üçün tam məna əlaqəsi yarada bilmir [4 : s.81]. Bu b*axımda*n ismi birləşmələrin işlənməsinin labüd olduğu məqamlarda *complain* sözü istifadəçilərin köməyinə çatır. Çünki qeyd olunan bu söz cümlədə həm isim, həm də fel kimi işlənə bilir. Banqliş dilində göründüyü kimi iki fərqli dillərə məxsus söz birləşərək heç bir ara məsafəsi olmadan vahid leksik birləşmə yaradır. Lakin banqliş fellərinin heç də hər biri benqal dilinə məxsus

bağlayıcı fellərlə (ingilis + benqal) əvəzlənə bilmir. Yəni birləşmənin ingilis dilinə məxsus feli benqal feli ilə əvəz oluna bilmir. Məsələn qəza yəni accident sözü əksər hallarda durghOTona sözünə sinonim kimi işlənsə də /durghOTona kOra/ birləşməsini /EksiDenT kOra ilə əvəz etmək mümkün deyil. [4: s.76].

Fahim Riker kOmpleinTa kOnsiDar korbe (Fahim-Rik-Gen-complaint-Cl-consider-will do) 'Fahim will consider Rik's complaint.' [4: s.78]. *Fahim Rikin şikayətinə baxacaq* şəklində dilimizə tərcümə olunan Banqliş dilinə aid cümlə ilə onun ingilis dilində olan qarşılığına nəzər salsaq görərəik ki, *kOmpleinTa kOnsiDar* sözləri ingilis dilindən alınmış və ingilis dilindəki *complaint* – şikayət ismi banqliş dilində *kOmplein Ta*, conside feli isə *kOnsiDar* formasında saxlanılmışdır.

Nəticə etibarı ilə məqalənin gəldiyi qənaətə əsasən dillərin bir – birinə təsiri və təması nəticəsində hər iki dilin kontaktı yeni linqvistik forma və qrammatik struktura malik hibrid dilin yaranmasında əhəmiyyətli təsirə malikdir. Məqalədən göstərilən nümunələrin təhlili nəticəsində müəyyən olunmuşdur ki, birinci tərəfi ingilis dilindən alınmış və tələffüz forması ilə dilə ötürülmüş, ikinci tərəfi isə benqal dilinin sabit ifadələrindən ibarət yeni formalar öz işləkliyi ilə gündəmini qorumaqdadır ki, bu fakt da iki dilin birləşməsini özündə əks etdirən yeni hibrid dil – Banqliş dilinin yaranmasında mühüm rola malikdir

ƏDƏBİYYAT SİYAHISI

1. Tanzina Tahereen, Banglish: contact induce changed in a spoken variety of Bangla" author Tanzina Tahereen. Spectrum, say 12, 2016. S. 143-165. Naturdhara Printing Press. Journal of Department of English. University of Dhaka.
2. Paolo Roseano, can morphological borrowing be an efect of codeswitching? Evidence from the inflectional morphology of borrowed nouns in Friulian. DOI 10.1515/probus-2013-0007 Probus 2013; aop. De Gruyter Mouton. S. 1-59
3. file:///C:/Users/user/Downloads/roseano_morphological_borrowing.pdf
4. Shishir Bhattacharj, Benglish Verbs: a Case of Code-Mixing in Bengali* Shishir Bhattacharja. PACLIC 24 Proceedings. P. 75-85 Benglish_verbs_A_case_of_code_mixing_in.pdf
5. Jan Wohlgemuth , Trends in Liguistics, A Typology of Verbal Borrowings , Volume 211 in the series Trends in Linguistics. Studies and Monographs [TiLSM] https://doi.org/10.1515/9783110219340
6. https://www.degruyter.com/document/doi/10.1515/9783110219340/html?lang=en
7. https://literariness.org/2016/04/08/homi-bhabhas-concept-of-hybridity/
8. https://altexploit.wordpress.com/tag/third-space-of-enunciation/
9. Edgard W. Schneider, 2007, Postcolonial Englishes, Varieties around the World, Cambridge University Press.
10. Roberts, Murat H. 1939. "The problem of the hybrid language." Journal of English and Germanic Philology 38: 23–41.
11. https://termcoord.eu/2019/03/banglish-a-new-hybrid-language/
12. Editor, Philipp Wolfgang Stockhammer, Conceptualizing Cultural Hybridization A Transdisciplinary ApproachTranscultural Research – Heidelberg Studies on Asia and Europe in a Global Context Series Editors: Madeleine Herren-Oesch Axel Michaels Rudolf G. Wagner, Springer-Verlag Berlin Heidelberg 2012.pages 225

UOT: 82-31

"BİRMA GÜNLƏRİ" ROMANINDA İMPERİALİZMƏ BƏDİİ BAXIŞ VƏ PSİXOLOGİZM

Xanım CƏFƏRLİ
Bakı Mühəndislik Universiteti
xafetullayeva@beu.edu.az

XÜLASƏ

Corc Oruellin əsərlərində imperializm, müharibə, totalitarizm kimi mövzular aparıcıdır. Müəllifin intellektual təcrübələrinə söykənən müşahidələri müvafiq mövzuların struktural özəyini təşkil etmişdir. Yazıçının əksər bədii və publisistik yazılarında toxunduğu bu məsələlər "Birma günləri" romanında da davam etdirilir. "Birma günləri" romanını müəllif Birmada polis kimi fəaliyyət göstərdiyi illərdə ərsəyə gətirmişdir. Romanda Britaniya imperializmi və onun fərdlər və mədəniyyətlər üzərindəki təsiri tənqid edilir. Yazıçının ilk romanı olan bu əsərdə Britaniya-Birma əlaqələri, Britaniyanın Birmadakı müstəmləkə siyasətindən söz açılır. Məqalədə Britaniyanın müstəmləkə siyasətinin necəliyi, hansı məqsədlərə xidmət etməsi analiz edilmişdir. "Birma günləri" tarixi-siyasi nöqteyi-nəzərdən xüsusi əhəmiyyətli sənəd xarakteri daşıyan avtobioqrafik bir əsərdir. Məqalədə həmçinin imperializmin fəsadlarının cəmiyyətdə yaratdığı problemlər incələnmiş, müəllifin təklif etdiyi həll yolları ətrafında ümumiləşdirmələr aparılmışdır.

Açar sözlər: Oruell, imperializm, müharibə, Birma

ARTİSTİC VİEW OF IMPERİALİSM AND PSYCHOLOGİSM İN THE NOVEL "BURMESE DAYS"

ABSTRACT

Imperialism, war, and totalitarianism are leading themes in George Orwell's works. The author's observations based on his intellectual experiences formed the structural core of the relevant topics. These issues, touched upon by the writer in most of his literary and journalistic writings, are continued in the novel "Burmese Days". The novel "Burmese Days" was written by the author during his years as a policeman in Burma. The novel criticizes British imperialism and its effects on individuals and cultures. This work, which is the writer's first novel, talks about British-Burmese relations and British colonial policy in Burma. The article analyzes the nature of British colonial policy and what goals it serves. "Burmese Days" is an autobiographical work that has the character of a particularly important document from a historical and political point of view. In the article, the problems caused by the consequences of imperialism in the society were elaborated, and generalizations were made about the solutions proposed by the author.

Key words: Orwell, imperialism, war, Burma

ХУДОЖЕСТВЕННЫЙ ВЗГЛЯД НА ИМПЕРИАЛИЗМ И ПСИХОЛОГИЗМ В РОМАНЕ «БИРМАНСКИЕ ДНИ»

РЕЗЮМЕ

Империализм, война и тоталитаризм являются ведущими темами произведений Джорджа Оруэлла. Наблюдения автора, основанные на его интеллектуальном опыте, составили структурное ядро соответствующих тем. Эти вопросы, затронутые писателем в большинстве своих литературно-публицистических произведений, получили продолжение в романе «Бирманские дни». Роман «Бирманские дни» был написан автором в годы работы полицейским в Бирме. Роман критикует британский империализм и его влияние на людей и культуры. Это произведение, являющееся первым романом писателя, рассказывает о британо-бирманских отношениях и британской колониальной политике в Бирме. В статье анализируется сущность британской колониальной политики и каким целям она служит. «Бирманские дни» — автобиографическое произведение, имеющее характер особо важного документа с исторической и политической точки зрения. В статье разработаны проблемы, вызванные последствиями империализма в обществе, и сделаны обобщения по предлагаемым автором решениям.

Ключевые слова: Оруэлл, империализм, война, Бирма.

"Birma günləri" romanı avtobioqrafik səciyyəli bədii mətndir. Romanda Corc Oruell Birmadakı xatirələrini realist formada qələmə almışdır. Ümumiyyətlə, qeyd etmək vacibdir ki, müharibə, antiinsan, cinayət və s. kimi mövzuların bir çoxu realist üslubda yazılmalıdır. Çünki bu kimi problemlər cəmiyyətin böyük qismini narahat edən mövzulardır. İnsanların hər şeyi olduğu kimi oxuması, qavraması və tətbiq etmələri bu baxımdan çox önəmlidir. "Birma günləri" romanı da sadalanan xüsusiyyətləri özündə detektiv, müəyyən qədər də intellektual səciyyədə ehtiva edir. Romanın əsas mövzusu imperializmdir. İmperializm XIX əsrin sonu və XX əsrin əvvəllərində kapitalizmin daxil olduğu ən yüksək və sonuncu mərhələ kimi qəbul olunur [9]. Corc Oruellin yaşadığı dövr nəzərə alındığı zaman, demək mümkündür ki, müəllif özü də həmin dövrü əyani müşahidə etmişdir. Hindistanda doğulması, sonradan Birmadakı fəaliyyəti onun təcrübələrini intellektual səviyyəyə qaldırmışdır. Oruellin intellekti təkcə onun yazı üslubu ilə məhdudlaşmır. Müəllifin intellektual, müəyyən qədər də detektiv təhkiyəsi həm də intellktual müşahidələrin yekunu kimi diqqət çəkir. İctimai haqsızlığa qarşı barışmaz mövqeyi onu dövrünün bir çox yazıçılarından fərqləndirmişdir. Dünyanı hamının ortaq vətəni hesab edən yazıçı utopik səslənsə də, qalıcı barışa ümumdünya statusu əlavə etməyə çalışırdı. Ədalətsizliyi daha çox sosial təbəqələşmədə görən müəllif səbəb-nəticə-həll ardıcılığını öz prozasının əsas bədii komponentinə çevirir. İngilis ədəbiyyatının məşhur nümayəndəsi Oruellin *"yaradıcılığı özünün yüksək intellektual səviyyəsi, ictimai haqsızlıq və ədalətsizliklərə qarşı barışmaz ruhu, totalitar təfəkkür və idarəçilik üsuluna qarşı mübarizliyi ilə seçilir"* [1, səh.5]. "Birma günləri" romanı 1922-1927-ci illər arasında Birmada (indiki Myanmarda) Hindistan İmperial Polis Qüvvələrində polis məmuru kimi fəaliyyət göstərən Corc Oruellin şəxsi hesabatı xarakteri daşıyır. Roman yazıçının imperiya rejimi barədə bütün fikirlərini aşkar ortaya qoyur. Əsər Birmada sözügedən tarixi dövrdə baş vermiş reallıqları, siyasi və sosial problemləri, anqlo-birmalı münasibətlərindəki çaxnaşmaları bütün detalları ilə əks etdirir. Oruell polis nəfəri kimi hadisələrin içində olduğundan onun təcrübələri daha təbii idi. Bir çox həmkarından fərqli olaraq, o, təkcə verilən əmrləri yerinə yetirməklə vəzifəsinin bitdiyini iddia etmirdi. Həm də xidmət etdiyi cəmiyyətin problemlərini analiz etmək üçün mövcud imkanlardan istifadə etməyə çalışırdı. Beləcə vaxt keçdikcə onun sosial müşahidələri siyasi görüş səviyyəsinə qalxaraq təkmilləşirdi. *"Oruellin siyasi görüşlərinin formalaşması Birmada polis kimi fəaliyyət göstərdiyi beş ilə (1922-27) təsadüf edir"* [2, səh.2]. Oruellin qələmə aldığı şəxsi təcrübə və müşahidələri olsa da, o, tam obyektiv şəkildə yazıçı etikasına sadiq qalaraq hər şeyi şəffaf və qərəzsiz göstərmişdir. Onu da deməliyik ki, Oruellin əsərlərində onun müşahidə və təcrübələri sadəcə təsvir edilməmiş, həm də siyasi kolorit və tarixi-siyasi həqiqətlər öz əksini tapmışdır. Britaniya Birmanı mərhələli şəkildə özünə birləşdirmişdir. Müəllif imperiyanı tənqid edərkən şəxsən müşahidə etdiyi, tərkib hissəsi olduğu tarixi faktlara əsaslanır. Oruellin Birmadakı təcrübəsi onun püxtələşməsinə, yazmaq istədiyi mövzuları konkretləşdirməsinə səbəb oldu və o, İngiltərəyə qayıdaraq yazıçı olmaq fikrini qətiləşdirdi. Birmadakı dövr onun üçün dönüş nöqtəsi oldu, çünki onu sosialist yazıçı kimi formalaşdırdı. Sosialist düşüncədə olması müəllifin sonrakı müşahidələri üçün də baza rolunu oynadı. XX əsr cəmiyyətinin qarşılaşdığı sosial-siyasi mənzərənin çirkinliyində imperializmin bilavasitə iştirakı müəllifi düşündürməyə bilməzdi. Ona görə də, o, qələmə aldığı əsərlərin süjet xəttində sosial bərabərlik yanaşmasını qorumuş, onu cəmiyyətin ali dəyərləri vasitəsilə təkmilləşdirmişdir. Ali dəyər dedikdə, hər hansı bir mərasim və ya ayindən daha çox insanların müharibə sevməzliyi və sabitlikdə yaşamaq istəməsi başa düşülməlidir. Oruell bir həqiqəti də gözəl anlayırdı ki, hər bir insan sosial statusundan və ya başqa bir şeydən asılı

olmayaraq bu prosesin içindədir. Bəziləri bu prosesdə öz şəxsi xarakterlərinin deformasiyasına məruz qalsa da, bəziləri bilərəkdən bu xaosu bəsləyirdilər. Oruell də bu prosesin tərkib hissəsi olduğunu yaxşı başa düşürdü. Lakin o, digərlərindən fərqli olaraq bunu sükut içində qarşılamaq əvəzinə həll yolları axtarırdı. Sosial yazıçı kimi o, cəmiyyətin bütün təbəqələrini, daha çox da əzilən təbəqəni qorumağa, onların haqqını ictimailəşdirməyə çalışırdı. Həyata biganə qalmayan yazıçı buna görə həyatının müəyyən hissəsini savaşın, eləcə də cəmiyyətin müxtəlif sferalarında keçirmişdi. Oruell sonradan yazırdı ki, *"o, böyük despotik imperiya maşınında rolu olduğuna görə özünü günahkar hiss eləyirdi və deyirdi ki, məhkum hücrələrində gözləyən insanların, məhbusların, təhqir etdiyi aşağı təbəqə nümayəndələrinin, adam yerinə qoymadığı yaşlı kəndlilərin, əsəbiləşəndə çubuqla vurduğu xidmətçi və hambalların üzləri onu həmişə izləyir"* [3]. İngiltərəyə qayıtdıqdan sonra birmalı ruhlar tərəfindən əzab görən Oruell öz ölkəsini daha dərindən analiz elədi və gördü ki, İngiltərə özü də işçi sinfini təzyiq altına almış kütlələrə sahibdir. İşçi sinfi Birmada Oruellin şahid olduğu ədalətsizliyin rəmzi qurbanına çevrildi. Roman boyunca imperializmin və müstəmləkə rejimin tənqidi, eləcə də irqçiliyin xalqda yaratdığı və ya formalaşdırdığı ümidsizlik, özünə nifrət, bacarıqsızlıq hissinin aşılanması kimi məsələlər əsas mövzu xəttinə paralel inkişaf edir. Yazıçı Birmadakı vəzifəsində işləyərkən fəaliyyəti boyu özünün qeyd etdiyi çox haqsızlıqlar etmişdi. Rejimi və imperiyanı tənqid edən bir yazıçının etdiyi haqsızlıqları etiraf edə bilməsi, imicini bəlkə də aşağı salmış olması yenə də onun oxucularına etdiyi xidmətdir. Oruell sübut etmiş oldu ki, rejimin içində olan, imperiyanın bütün mənfilərini çılpaqlığı ilə görən bir məmur belə bu "maşının" tərkib hissəsi olmağa, axınla getməyə məcburdur. Demək ki, bu rejimdə təmiz qalmaq, haq yeməmək mümkün deyilsə, problem rejimin özündədir. Və ona qarşı mübarizə aparmaq, onu devirənə kimi etiraz səsini ucaltmaq lazımdır.

Bundan əlavə, Oruellin əsas məqsədi insanı, insanlığı gəlmiş olduğu mərhələ barədə xəbərdar etmək, insanlığı özünə kənardan baxmağa və özünü görməyə məcbur etmək, nəticədə onu müsbət mənada yenidən inşa edib, özünə qaytarmaqdır. Yazıçının siyasi rejimləri tənqid etməkdə və əsərlərində buna geniş yer verməkdə başlıca məqsədi onların insan üzərindəki təsiridir. İmperialist rejimin yaratdığı özündən uzaqlaşmış, özünə və ətrafındakılara biganə, cəmiyyətdən bixəbər antiinsanlar elə insanlığın özü üçün ciddi təhlükə deməkdir. Öz yaradılışına, öz mövcudiyyətinə, özünə qarşı sonunu gətirə biləcək strukturlar, rejimlər qurmaq, müharibələr etmək canlılar içində sadəcə insanlara xas bir davranışdır.

Özü ingilis olmasına rəğmən Birmadakı ingilis hakimiyyətini və müstəmləkə imperializmini tənqid edəcək qədər ədalət hissinə sahib olan Oruell müasirlərinə yazıçılıq etikası üzrə bir növ dərs verir. Bu əslində həm də onun öz xalqına olan hörmətini də ehtiva edir. Öz xalqına nöqsanlarını göstərməklə onları müalicə etməyə çalışır. Mənsub olduğu xalqı sübutlar təqdim etməklə səmimi formada tənqid etmək hər bir yazıçıya nəsib olmur. Britaniya hökumətinin apardığı imperialist siyasətin inkarolunmaz mövcudluğu həm də bu romanın uzun müddət nəşrinin yasaqlanması ilə sübut oluna bilər. Müəllif romanda əyalət şəhəri olan Kathanı və onun insanlarını realistcəsinə elə təsvir edir ki, oxucu bir anlıq özünü həmin cəmiyyətin sakininə çevirir, vizual olaraq onların ağrı-acısını duyur.*"Romanda Katha əyalət şəhəri həddindən artıq realistik təsvir olunub, bəzi bədii obrazlar oxuduqca asanlıqla təyin oluna bilən və tanınılan adamlardır. Ona görə də nəşrinə uzun müddət icazə verilməmiş, bəzi adlar dəyişdirildikdən sonra çap olunmuşdur"* [4]. Əslində isə, dövrdən, məkandan və millətindən asılı olmayaraq insanın ağrısını duymağı bacaranlar üçün oradakı məkanın, insanların hara

və kim olmasının heç bir fərqi yoxdur. Bu ağrı hər kəsin universal ağrısıdır və hadisələr gec və ya tez hər yerdə təkrarlana bilər. Mühüm olan xəbərdar olmaq, ehtiyat etməkdir. Təsvir olunan vəziyyət tanışdırsa, mübarizəyə başlamaqdır.

Oruell romanda imperializmə birmalılar üzərindən qiymət versə də, əslində bu problemin mərkəzində sadə ingilislər də var. Britaniya imperializmi təkcə Hindistan, Birma kimi ölkələrə deyil, elə Britaniyanın özünə də təsirsiz ötüşmür. Çünki hər hansı hadisə təbiət etibarilə iki tərəfə də təsir edir. Birmalılar əzilərək, təhqir edilərək, zülm görərək xislətlərindən uzaq düşürlərsə, mənəvi olaraq biganələşirlərsə, əksəriyyəti ingilisləri üstün görməyə başlayırlarsa, ingilislər də üstün görüldükləri üçün mənən zədələnir, onlar da başqa tərəfdən insan xislətindən ayrı düşmüş olurlar. Bunlar imperialist cəmiyyətlərdəki insanların antiiansa çevrilməsini sürətləndirən faktorlardır. Demək ki, antiinsanlar sadəcə zülm görənlər deyil, həm də zülm edənlərdir. İnsanı yaradılışından uzaqlaşdıran istənilən akt lənətlənməyə və əleyhinə mübarizə aparılmağa layiqdir.

Romanın mərkəzindəki məkan konsepti klubdur. Ekspatların hər gecə görüşdüyü bu klub əsl Birmadan sığınacaq kimi və ümumi müstəmləkə ayrı-seçkiliyi çərçivəsində təcridxana tipli kiçik dünya formasında fəaliyyət göstərir. Romanda obrazların hər biri müstəmləkə əleyhinə müxtəlif görüşə sahibdir. Bu onların keçmişləri, böyüdükləri ailələr və cəmiyyətdəki statusları ilə əlaqədardır. Əsərin mərkəzi surəti Con Floridir. Flori doktor Verasvami ilə dostluq edir və Birma mədəniyyətini təqdir edir. Doktor Verasvami hind həkimdir. O, Birmada yaşayan britonlara hörmətlə yanaşır, hər fürsətdə Britaniya müstəmləkə idarəsinə dəstəyini ifadə edir. Lakin Avropa cəmiyyətinin çox üzvləri ona hörmət etmirlər. Kəskin rasist olan Ellis də doktor Verasvaminin əleyhinə çıxışlar edir, birmalıların öz ölkələrini idarə edəcək potensialda olmadıqlarını iddia edir. Verasvami və Flori tez-tez müxtəlif mövzuları müzakirə edirlər, Verasvami Britaniyalıların mövqeyini dəstəkləyir, Flori isə Birmalıların tərəfini tutur. Flori Birmada müstəmləkə dövründə Avropa cəmiyyətinin yaratdığı təcridçiliyin simvolik təsviri xarakterini daşıyır. Flori həm birmalıları, həm ingilisləri qane etmək istəyir, lakin heç birini məmnun edə bilmir, nəticədə isə öz sosial izolyasiyasını təsdiqləmiş olur. Doktorun dəri rəngi klub üzvlüyünə baryer kimi göstərilir. O, Britaniya mədəniyyətinə heyran olmasına və ingilisləri təqdir etməsinə baxmayaraq ağ dərililərin əhatəsinə buraxılmır. O nə ingilis, nə də Birma mədəniyyətinə aid olmadan *sosial-limbo* kimi ərafda yaşamağa başlayır, öz ölkəsində özünü yad hiss edir. O, britaniyalıların Birmadakı varlığını sorğulamır, ingilislərin üstünlüyünə kor-koranə inanır, onların orda olmasını dəstəkləyir. Digər tərəfdən, Florinin fikirləri iki qütb arasında dəyişir. Müəllifin bu daxili konflikti bütün çılpaqlığı ilə təsvir etməsi romandakı psixologizmin mahiyyətini müyyən edən əsas komponentlərdən biri kimi önə çıxır. O, bəzən ingilisləri Birmadakı isti hava və xəstəliklərə dözdükləri üçün qəhrəman kimi görür. Bəzən də deyir ki,*"şərqlilər arasında yaşamaq və işləmək üçün övliya səbri lazımdır"* [5, səh.27]. Hərdən isə deyir ki, ingilislər despotdur və birmalılar ingilislərdən daha çox insandırlar. O, humanist və antiimperialistdir.

Əsərdə imperiyanın və müstəmləkə rejimin işğalçı və işğal edilən üzərindəki alçaldan təsirinin analizini peşəkarlıqla aparan Oruellin göstərdiyi faktlarla Britaniyalıların açıq və çılpaq irqi nifrətinə təəccüblənməmək mümkün deyil. Onlar yerliləri döyməklə, öldürməklə onlara zülm edir və onların ölümünə biganə münasibət göstərməklə iç üzlərini bir daha göstərirdilər. Ən aydın monarxiya və ya müstəmləkə belə yenə də insanların məhv olduğu propoqanda maşınından başqa bir şey deyil. Demokratik rejimlərin insanları

tərbiyələndirməsi, cəmiyyəti sağaltması nə qədər realdırsa, monarxik rejimlərin, kolonial sistemlərin insanı mənən zəhərləməsi, öz növlərinə özgələşdirməsi də bir o qədər labüddür. Anarxik rejimdən fərqli olaraq monarxiyada hökm sürən xaoslar da sistemlidir, nizamlıdır. Hakimiyyət kütləyə verəcəyi zərəri ən incə detallarına qədər planlaşdırıb sistemə salır. İnsan öz yaradılışından olan varlığa zülm edən, onun ölmünə bais olub biganə qala bilən varlıqdır. İnsanın bu vəhşi təbiəti Oruelli həmişə düşündürmüş və narahatlığına səbəb olmuşdur. Oruell bütün bu rejimlərin, müharibə, imperiya və zülmlərin qaynağında insan faktorunun dayandığını çox gözəl bilirdi. İnsan təbiəti bunu necə edir? *"Alim Lorenzin insan təbiəti ilə bağlı əhəmiyyətli yanaşması budur ki, insanların digər heyvanlar kimi öz növlərinə qarşı aqressiv davranışlar sərgiləmək üçün anadangəlmə meylləri vardır. O düşünür ki, məntiqli varlıq hesab edilən insanların davamlı məntiqsiz davranaraq tarix boyu etdikləri müharibə və münaqişələrin yeganə mümkün izahı bu ola bilər"* [6, səh.125]. Amma nəzərə almaq lazımdır ki, heyvanlar bunu öz növlərinə-heyvanlara etsələr də, öz qruplarından olanlara etmirlər. İnsanlar isə bunu həm öz qruplarına, həm digər qruplara edərək insan nəslini qırdıqca qırırlar. Oruellin antiqəhrəmanı Con Florinin heç vaxt öz fanatik, dar düşüncəli həmkarları əleyhinə qalxmağa cəsarəti olmasa da, o daha sivil əhatə üçün həsrət çəkən tərbiyəli bir adamdır. Flori Birma mədəniyyətini təqdir etdiyinə görə və birmalılar barədə müsbət fikirləri üçün həmişə Avropa icmasının (xüsusilə Ellisin) tənqidlərinə məruz qalır. Mübahisələri sevməməsi və utancaq xarakteri onu mübahisələrdə həmişə açıq hədəfə çevirir. Mübahisədən uzaq olmaq istədikcə, nəzakətlə mübahisədən boyun qaçırdıqca mübahisənin mərkəzinə düşmək də ayrı bir psixoloji ironiyadır.

Oruellin Birmada işləməsi onu həmişəlik imperiyaya düşmən etdi. *"1927-ci ildə Birmada kolonial polisdə xidmətindən ruhdan düşmüş qayıtmasından sonra Corc Oruell tam qətiyyətlə təcrübə dairəsini genişləndirdi. Birmada vicdan əzabı çəkən Oruell sadəcə imperializmdən deyil, insanın insan üzərindəki hakimiyyətinin hər bir formasından qaçmaq ehtiyacı hiss edirdi"* [7, səh. 43]. Çünki *Oruell günah yükü çəkirdi.* Müstəmləkənin başlanğıcında birmalılar ingilislərin Birmadakı mövcudiyyətindən xoşbəxt idilər və ingilislərdən razı idilər. Lakin sonradan mədəniyyət və dinlərinin ingilislər tərəfindən silinmə təhlükəsi onları qiyama sövq etdi. Onların qiyama başlaması millət olaraq xilaslarına bir ümid olduğuna işarə edirdi. Çünki *"Bir xalq, hansı bəhanə ilə olur-olsun, tiranlığa bir dəfə boyun əydiyi zaman üsyan alışqanlığını, hətta üsyana təşviq edən instinkti də itirir, bununla birgə, azadlıq duyğusunu da artıq itirir; və bir xalq bütün bunları itirən zaman artıq sadəcə kənar şərtlərin məcburetməsi ilə yox, öz içində, varlığının özündə də kölələrdən ibarət bir xalqa çevrilir"* [10, səh. 112]. Britaniyalılar hindlilərə uşaq beyinli insanlar kimi baxırdılar, onların daha ali bir irqin - Britaniyanın bələdçiliyinə ehtiyacları olduqlarını iddia edirdilər. Britaniyalıların üstünlük kompleksi özgələşdirmə prosesi, rasizm və hindlilərin ağ dairələrdən xaric edilməsi ilə nəticələndi. Əsərdə Maksuell adlı bir ingilisin öldürülməsi böyük sensasiyaya səbəb olur. *"Maksuellin ölümü Kyauktada ciddi mənada şok effekti yaratdı. Lakin həqiqi mənada heç kim onun üçün dərin stres keçirmədi. Maksuell demək olar ki, heç kim idi, o sadəcə — yaxşı oğlan idi. Avropalılardan heç biri səmimi olaraq ona yas saxlamadı. Lakin bu o demək deyil ki, onlar əsəbi deyildi. Əksinə, onlar əsəbdən dəli olmuşdular. Çünki bağışlanmaz şey baş vermişdi – ağ adam öldürülmüşdü. Birmada hər il səkkiz yüz insan öldürülür; onlar heç bir əhəmiyyət kəsb etmir, lakin ağ adamın ölümü nəhəng hadisədir, müqəddəs bir şeyə edilən hörmətsizlikdir, küfrdür"* [5, səh.210-211]. Bu kimi hadisələr qiyam və etirazlara zəmin yaradırdı. İronik cəhəti budur ki, hindlilər öz ölkələrində ingilis qanunları ilə mühakimə olunurdular, nəticədə insan hüquqları və ədalətdən məhrum olurdular. Hindlilər beyin

yuyulmasına məruz qalırdılar və inandırılırdılar ki, ağ dərili biri qara dərili birindən üstündür. Buna təsir edən səbəblərdən biri də, şübhəsiz ki, hind cəmiyyətində hökm sürən cəhalət idi. İmperialist Britaniya da bundan bacarıqla istifadə edərək onları öz problemləri ilə idarə edə bilirdi. Müəllif birbaşa olmasa da, dolayısı ilə cəhalətə də eyham vurur.*"Rəng barədə qərəz var idi. Onlar hindlilərə qara adamlar deyirdilər"* [8, səh.81]. İmperializmin ancaq cahil bir toplumda boy göstərəcəyi reallığını Oruell olduğu kimi romanda tətbiq edərək psixologizmə fərqli rakursdan baxmağı və onu tətbiq etməyi bacarır. İngilislərin orada yerli xalqın sərvətlərini və resurslarını istismar etmək üçün olması danılmaz faktdır. İngilis müstəmləkəsində olan ən zəngin ölkələrdən sayılan Birma durğun dövr keçirirdi. Zaman keçdikcə birmalılar özləri də inanmağa başlayırlar ki, onlar avropalılardan əskikdirlər. Onların özlərində bu əskikliyi hiss etmələri yaşadıqları faciənin əsas səbəblərindən biri kimi qarşıya çıxır. Məsələn, doktor inanır ki,*"bir avropalı bir şərqliyə min həmvətənindən daha çox xeyir verə bilər"* [5, səh. 231]. Başqa sözlə, birmalılar inanırlar ki, onlar ingilislərin köməyi olmadan heç nə edə bilməzlər. Onlar ingilislərlə eyni sırada, eyni masada oturmağa layiq hesab edilmirlər. Nadir olsa da, ingilislərin birmalılar haqda müsbət fikirləri də göstərilir. İngilislər ağ paltarlar geyinirlər, bu onların fiziki iş görmədiklərini və sosial statuslarını göstərir. Həmçinin onlar kökdürlər, bu onların zəngin və sağlam olduqlarını göstərir. Onlar əhəmiyyətli vəzifələri yerlilərə vermirlər, çünki onların güclənib gələcəkdə ingilislərə təhlükə yaratmalarını istəmirlər. Oruell ingilislərin Birmadan mənfəət güddükləri üçün və əslində iddia etdikləri kimi Birmaya sivilizasiya gətirmək üçün deyil, Birma mədəniyyətini məhv etmək və tamamilə yox etmək üçün orada olduqlarını deyəcək qədər cəsarətlidir. İmperialistlər Birmaya səadət gətridiklərini iddia etsələr də, reallıqda məqsədləri tamamilə fərqli idi. Belə ki, onlar xalqı sivilləşdirməyə çalışmaqdan daha çox öz imperialist maraqlarını həyata keçirməyə çalışırdılar. Təbii ki, özləri həqiqətin nədən ibarət olduğunu bilirdilər. Sadəcə olaraq öz maraqları naminə insanların hüquq və azadlıqlarını asanlıqla qurban verirdilər.*"O, imperialistin sivilləşdirmə fəaliyyəti pərdəsi altında sadəcə özünü aldatdığını iddia edirdi"* [2, səh.2]. Roman boyunca Oruellin kolonializmə qarşı nifrətini açıq görmək olur. Həm birmalılar, həm ingilislər içində olduqları bu rejimdən donuqlaşırlar, ləkələnib-solurlar.

Müəllifin romanda həqiqəti olduğu kimi təsvir etməsi təqdirəlayidir. Oruell həqiqəti bütün çılpaqlığı ilə verməklə kolonializmin, imperializmin mənfi tərəflərini göstərir. Müəllif göstərir ki, imperiya hər kəsin içindəki ən pisi ortaya çıxarır. Belə olduqda, cəmiyyət uduzan tərəfə çevrilir. Həm despot, həm məzlum tərəf zərər görür, kimliklərindən uzaqlaşır, özdəyər səviyyəsi balansı pozulur (artmaq və ya azalmaq eyni destruktiv effekti verir). Müəllif despotizmin təkcə ən ali idarəçilikdə deyil, cəmiyyətin müxtəlif sahələrində də mövcud olduğunu göstərməyə çalışır. Çünki cəmiyyətin bir çox nümayəndəsi olduğu problemldən çıxış yolu tapmaq əvəzinə, öz mənafelərini qorumaq üçün fürsət axtarırdı. Belə olduqca mövcud xaos daha da böyüyərək ictimai bir bəla səviyyəsinə qalxırdı.

Oruell əsl ziyalı mövqeyini ortaya qoyaraq hər bir əsərində elmin önəmini vurğulayır, xalqların, kütlələrin içində olduqları çıxılmaz vəziyyətlərin həm də cahillikdən qaynaqlandığına diqqət çəkir. Məhz bu əsərdə də yazıçı birmalıların cəhalətlərinin qurbanı olduqları və ingilislərin manipuliyasiyalarına asanlıqla inanaraq özlərini ən aşağı və nalayiq insanlar kimi gördüklərini göstərir. Kütlə cahil olduqda onları idarə edən ziyali təbəqə despotdursa, bu bilikdən sui-istifadə edəcəkdir. Eyni zamanda bu bilikdən sui-istifadənin xalqa gətirdiyi zülm onları daha da cəhalət girdabına atır. Sadəcə elm və bilik kütləni ayılda

bilməz, burada mənsub olduqları xalqın tarixi-genetik kodları da önəmlidir. Amma müqayisədə bilik onların yoluna işıq tutacaqdır. Oruell romanda başqa bir önəmli sosial problemə diqqət çəkir. Daha konkret ifadə ilə o, yaşamın özünü bütün sosial problemlərin əsas səbələrindən biri kimi təqdim edir. Elm sadəcə yaşamı təkmilləşdrimək üçün vasitədir. Təbii ki, ondan da düzgün şəkildə istifadə etmək lazımdır. Məsələn, nüvə, atom silahları hazırlamaq elmdən sui-istifadə kimi qavranılmalıdır. Cəmiyyətin sosial inkişafına rəvac verən elmi yeniliklər isə təqdirəlayiqdir. Bu mənada Oruell yaşamın yaradıcısı kimi elmi yox, həyatı səbəb göstərir. Çünki həqiqi elm yaşamın yaradıcısı olsa, o zaman bütün problemlər təkcə elmin üzərinə yüklənmiş olacaq. Halbuki yaşamın yaradıcısı kimi yaşamın təqdimatı həm tarixi deformasiyanın qarşısını alır, həm də problemin daha sadə və konkret müddəalar vasitəsilə həllini sürətləndirir. İnsan öz problemlərinin yaradıcısı olduğu kimi, yaşam da özünü yaradır. Bu konsepsiya romanda qaldırılan problemi həll etmək baxımından dolğun bir təklif statusundadır. İnsan azadlığını pozan elə insanların özləridir. Ona görə də yenidən bu azadlığı bərpa etməli olan yenə də insandır. Müəllif xalqı əsas həll obyekti kimi təqdim edərək elmin də bu proesesdə köməkçi olmasını arzu edir. Əslində isə müəllif Birmanın timsalında azadlığı yaradan insanı səbəb kimi göstərməklə əslində demək istəyir ki, azad insan elmdən daha düzgün şəkildə istifadə edə biləcək potensiala malik olacaq.*"Yenidən vurğulayaq ki, yaşamı yaradan elm deyil, bilavasitə yaşamın özüdür; azadlığı yaradacaq yeganə güc də, xalqın özü-özlüyündə fəaliyyətidir. Heç şübhəsiz ki, əgər elm bundan sonra xalqın özünüxilasına istiqamətlənən yoluna mayak ola bilsəydi, bu, çox böyük bir şans olardı"* [10, səh.77].

Üç etnik qrup – avropalılar, hindlilər və birmalılar arasında qarşılıqlı əlaqələr romanda irqçilik mövzusu fonunda işlənir. Bu nüanslar müasir tarixin, müasir dünyanın rasizm məsələlərini işıqlandırmaq və analiz etmək üçün də münbit qaynaq hesab edilə bilər. Qloballaşan dünyanın hər bir dünya vətəndaşına aid olan ümumi problemlərini həll edə bilmək üçün beynəlxalq əməkdaşlıqlara və dostluqlara daha çox ehtiyacın olduğu bir dövrdə yazıçının təsvir etdiyi irqçiliyin hələ də hökm sürməsi bir insanlıq faciəsidir. Bu mənada tarixin yaratdığı qeyri-müəyyən miraslar bu gün dünya insanını geniş statuslu sosial problemlərinin mərkəzinə gətirir. İnsanlığın düşdüyü vəziyyət, şübhəsiz ki, hər hansı bir mifik varlıq və ya təbiət tərəfindən deyil, birlavasitə insanın özü tərəfindən yaradılmışdır. Mücərrədləşmə də reallıq kimi məhz insanın əsəridir. Bu mənada mövcud olan bütün siyasi-sosial problemlər birbaşa insanla əlaqədardır. Oruell bu nöqteyi-nəzərdən çıxış edərək, romanda ümumi problemlərin fərdi həll vasitəsilə həll ola biləcəyinə inam hissi aşılayır. Oruell üçün müharibə anlayış olaraq mücərrəd, problem olaraq isə konkretdir. Ona görə də yazıçı özü birbaşa bu tipli hadisələrin içində iştirak edərək təfəkküründə təcrübə və müşahidə komponentlərini təkmilləşdirir. Oruellin təqdim etdiyi həll düsturu konkretdir. Hər bir fərd öz-özlüyündə ümumi sosial problemlərin mövcudluğundakı iştirakı müəyyənləşdirib həll etməlidir. *"Lakin tarix, mücərrəd fərdlər tərəfindən yox, fəaliyyət vəziyyətində olan yaşayan və fani şəxslər tərəfindən yaradılır. Mücərrədləşdirmələrin özləri də, ancaq həqiqi insanlar tərəfindən yaradıla bilərlər"* [10, səh. 70].

Demək olar ki, uşaq tərbiyəsində ən yaxşı şəkildə istifadə edilə bilən sənət qolu teatrdır. Çünki tamaşaya baxan uşaq düz-yanlış, yaxşı-pis, düz-yanlış və s. müxtəlif personajların bütün hisslərini bölüşür. (bax: 10; s.73).

Estetik tərbiyədə ana dili və ədəbiyyat dərsləri də böyük imkanlara malikdir. Bədii nümunələr (şer, hekayə və nağıllar), bədii ədəbiyyat şagirdlərdə estetik hissləri, estetik zövq və mühakiməni inkişaf etdirir. Belə ki, ülvi-bəşəri hissləri, nəcib duyğuları obrazlı şəkildə tərənnüm

və təbliğ edən ədəbiyyat nümunələrinin tədrisi gənc nəsli ləyaqətli vətəndaş kimi tərbiyə etmək üçün daha geniş imkanlar yaradır. M.Ə.Rəsulzadə ədəbiyyatı "bir millətin ruhunu əks etdirən ən gözəl ayna"sı adlandırırdı (bax: 4; s.55). Ədəbiyyat xalqın millimənəvi zənginliyi, iftixarı və qüdrətidir. Vətənə məhəbbət hissi olmayan insan əxlaqi kamillikdən də uzaqdır. Bunun nə qədər yüksək hiss olduğunu xalq şairi S.Vurğun belə ifadə edir: "Xalq eşqi, vətən məhəbbəti insanın həyat nəfəsidir... Madam ki, insan ömrünün ən böyük zinəti, onu yaşadan ən qadir qüvvə vətənpərvərlik hissidir, bu hiss bugünkü körpələrin, nəslimizin təlim-tərbiyəsinin əsas ruhu, çarpan ürəyi, düşünən beyni olmalıdır" (bax: 5; s.145). Deməli, vətənpərvərlik hissinin böyüməkdə olan gənc nəslə lazımi şəkildə aşılanması, təlim-tərbiyə işinin qarşısında duran mühüm vəzifədir və bunun üçün bütün imkanlardan istifadə edilməlidir. Bədii əsərlərdəki müsbət surətlər vasitəsilə şagirdlərdə vətənə sədaqət, vətəndaşlıq dəyanəti, milli birlik duyğusu kimi nəcib əxlaqi keyfiyyətlər aşılanır. Belə əsərlərin tədrisi zamanı müəllim qəhrəmanların səciyyələndirilməsinə xüsusi fikir verməlidir. Çalışmalıdır ki, şagird özü əsərin tərbiyəvi əhəmiyyətini dərk etsin, obrazları fərqləndirməyi, ən əsası, bu obrazlarda özünü görməyi bacarsın. "Şagirdlərdə milli mənlik şüurunu, milli qürur və ləyaqət hissini formalaşdırmaq ədəbiyyat fənninin başlanğıc nöqtəsi və son nəticəsi hesab olunmalıdır" (bax: 1; s.61). Şagird bilməlidir ki, onun mənsub olduğu millətin, xalqın keçmişi hansı tarixi mübarizələrdən keçmiş, dərk etməlidir ki, Vətən sevgisi, yurd məhəbbəti insan qəlbini saflaşdıran mənəvi keyfiyyətdir. Hər bir vətəndaşın Vətənə xidməti məhz xalqa xidmətidir. Əgər xalq bir insanı qəlbində əbədi yaşadırsa, deməli, həmin şəxs həqiqi vətəndaş kimi özünün layiq olduğu qiyməti qazanmışdır. (bax: 2; s.89).

Uşaqlarda estetik dəyər mühakiməsi yaratmaq və onun inkişafını təmin etmək üçün onların daim ünsiyyətdə olduqları və oxumaqdan həzz aldıqları romanlarla təmin etmək olar. Bu məqamda uşaq romanı yazıçılarının üzərinə mühüm vəzifələr düşür. Yazıçı ilk növbədə uşaq dünyası ilə uşaq reallığı ilə məşğul olmağı, bu dünyanın sərhədlərini çəkməyi və onlarda gözəllik duyğusu inkişaf etdirməyi bacarmalıdır.

İnkişaf etmiş gözəllik duyğusu olan fərd, həyatın bütün sahələrində işindən həzz alan, pozitiv, çox yönlü, ictimai hadisələrə həssas, sosial münasibətləri inkişaf etmiş fərd kimi müəyyən edilə bilər. Sənət əsərini bir obyekt kimi görməkdənsə, onun yaradıcılıq dəyəri olduğunun fərqində olmaq daha faydalıdır. Bununla da, uşaqlıq yaşlarından təqdir edilən hər cür sənət əsərini qorumaq və inkişaf etdirmək kimi davranışlar sərgiləməsi xüsusiyyəti fərddə formalaşır.

Ədəbi əsərin uşaqda bədii qavrayış yaratması ilk növbədə həmin əsərin daxili və xarici struktur elementləri ilə bağlıdır. Əsər bütövlükdə uşağa gözəllik mühakiməsini hər mənada çatdırmalı, onu bu barədə düşünməyə vadar etməli, gözəlin qədrini bilməyi öyrətməlidir. Şimşəkə görə, gözəllik hissi uşaqda anadangəlmədirsə, uşağa xitab edən ədəbi əsərlərdə estetik hiss, zövq və obrazın yer almasından daha təbii bir şey yoxdur. Yalnız bu şəkildə şəxsiyyət və şəxsiyyət quruculuğundan, məmnunluqdan, gözəllik haqqında maarifləndirmədən danışmaq olar. Dilə estetik bir vasitə kimi baxmaq lazımdır. Yəni, uşağın oxşar mətnləri oxumağa, yazmağa həvəsləndirəcək dili və üslub gözəlliyi olmalıdır.

Uşaqlar üçün yaradılan ədəbi əsərlər estetik üsullarla yaradıldığı halda, uşaq ruhunun dərinlik və məsumluğundakı "uşaq gerçəkliyinə" diqqət yetirmək, "uşaqlığın saf mənzərəsini" ələ keçirmək səriştəli uşaq ədəbiyyatı yaratmağa imkan verir. Uşaq ədəbiyyatında onları tərbiyə etmək, onlara mənəvi həssaslıq vermək yanaşması var. Bununla belə, etika ilə estetika arasında

sıx əlaqənin olduğunu söyləmək olar. Yalnız didaktik üslubla və ya pedaqoji diskursla qurulan əsərlərin estetikadan xəbərsizliyi uşaq ədəbiyyatında üslub problemi yaradır. Uşaq ədəbiyyatının estetik qavrayış yaratmağa təsiri təkcə ədəbi məmnunluq baxımından deyil, həm də vizuallığa estetik münasibətin yaradılması baxımından vacibdir (Kanter, 2014). Uşaq ədəbiyyatının ən mühüm funksiyası uşağın psixoloji (mənəvi) inkişafına töhfə verməkdir. Uşaq estetik qiymətini ən yaxşı şəkildə ədəbiyyatdan alır. Başqa sözlə desək, uşağın istək və ehtiyaclarını emosional mənada nəzərə alaraq yazılan hər mətn uşaqların estetik duyumunun inkişafına kömək edir. (bax: 8; s.55).

Estetik tərbiyə məqsədi ilə digər fənlərin də imkanlarından istifadə edilməlidir. Tədris etdiyi fəndən asılı olmayaraq müəllim öz gözəl nitqi, davranışı, münasibəti, geyimi ilə şagirdlərin zövqünü tərbiyə edir: "Hər bir fənn müəllimi estetik tərbiyə müəllimi olmalıdır" (M.Cəfər). Dərsdə istifadə olunan əyani vəsaitlər, sinfin estetik tərtibi, dərsdə yaradılan mənəvi-emosional mühit də estetik zövqün mühüm mənbəyini təşkil edir.

Dərslərdə aparılan estetik tərbiyə sinifdənxaric və məktəbdənkənar işlərdə daha da dərinləşdirilir və genişləndirilir. Bu işlər şagirdlərin maraqlarının və fərdi yaradıcılıq qabiliyyətlərinin inkişafına kömək göstərir. Estetik tərbiyə üzrə sinifdənxaric işlərin məzmunu, forması müxtəlif və rəngarəngdir. Bunları üç qrupa ayırmaq olar: dərnək işləri, kütləvi işlər və fərdi işlər.

Bədii yaradıcılıq və incəsənət dərnəkləri estetik tərbiyə üzrə sinifdənxaric işlərin geniş yayılmış formalarındandır. Belə dərnəklərə musiqi, xor, rəsm, rəqs, ədəbiyyat, dram, bədii oxu, bədii tikiş və b. dərnəklər daxildir.

Sinifdənxaric tədbirlərlə yanaşı, şagirdlər məktəbdənkənar müəssisələrdə uşaq və məktəblilər sarayları və evlərində, estetik tərbiyə mərkəzlərində, təsviri sənət studiyalarında müxtəlif növ yaradıcılıq fəaliyyətinə cəlb edilirlər. Bir çoxları bu yolla öz gələcək həyat yolunu müəyyən edir, böyük sənətə vəsiqə alırlar.

Nəticə olaraq belə bir qənaətə gəlmək olar ki, məktəbdə dərslər yaradıcı olmalı, istənilən əsərin tədrisində müəllim pedoqoji ustalıq sərgiləyərək, öz sənət əsərini yaratmalıdır. Doğrudan da, hər bir dərsə yaradıcı yanaşdıqda, dərs böyük bir sənət əsərinə çevrilir. Xüsusilə də, ədəbiyyat dərslərində mənəvi-estetik tərbiyə, vətəndaşlıq keyfiyyətlərinin formalaşdırılması müəllimin ən ümdə məqsədi olmalı və bunun üçün müəyyən tədbirlər planı həyata keçirməlidir. Nümunə kimi inşa müsabiqəsinin keçirilməsi, Azərbaycanın Milli Qəhrəmanlarına aid guşə, fotostend və albomların hazırlanması, "Qarabağ döyüşçüləri" ilə görüşün təşkili, əsərin mövzusu ilə bağlı siniflərarası rəsm müsabiqələrinin keçirilməsi, "Dünyanı gözəllik xilas edəcək" mövzusunda ədəbi-musiqili gecənin təşkili, estetik həzz yaradan musiqi və şeir haqqında söhbətlərin aparılması, "Soykökə qayıdışda bədii əsərin rolu" mövzusunda debat aparılması və s. məsələlərin təşkili xüsusilə əhəmiyyətli ola bilər.

Biz pedaqoqlar unutmamalıyıq ki, məktəb ikinci ailədir, bir fərdin cəmiyyət üçün fay-dalı şəxsiyyət kimi yetişdirilməsində müəllimlərin rolu böyükdür. Bunun üçün şagirdlərin mənəvi-estetik inkişafında estetik zövqün məktəb illərindən formalaşması və bu istiqamətdə problemlərin həlli çox vacibdir. Doğrudur, bir çox məktəblərdə şagirdlərin estetik tərbiyəsi ilə məşğul olan müxtəlif dərnəklər fəaliyyət göstərir. Bunlar öz yerində, ancaq, fikrimizcə, hər bir müəllim tədrisdə estetik zövqün formalaşmasına diqqətlə yanaşmalı, gələcəyimizin mükəmməl gəncliyə əmanət edilməsinin təminatçısına çevrilməlidir.

ƏDƏBİYYAT

1. Əliyev A. (2005) Vətəndaşlıq ləyaqəti tərbiyəsi üzrə işin təşkili. Bakı, 135 s.
2. Quliyeva K. (2021)"Ədəbiyyat dərslərində estetik tərbiyə və vətəndaşlıq keyfiyyətinin inkişaf etdirilməsi", Azərbaycan dili və ədəbiyyat tədrisi 2021, № 4 (270), səh.83-92.
3. Həsənli B.Ş (2016) Ədəbiyyatın tədrisi metodikası. Bakı, Müəllim , səh. 452-457.
4. Həsənov A., Ağayev Ə., Pedaqogika (Dərslik). Bakı, Nasir nəşriyyatı., 2007, səh. 496-497 .
5. Nizami Gəncəvinin həyat və yaradıcılığının ümumtəhsil məktəblərində tədrisi məsələləri, (1987) Bakı, Maarif, səh.167-169.
6. Mustafa H., "Eğitim fakülteleri resim bölümü öğrencilerinin anasanat atölye derslerine karşı tutumlarının, sanat etkinliklerini izleme edimleri ile beğeni düzeyleri arasındaki ilişkilerin incelenmesi" (2010). səh. 337-339.
7. Nurcan Ö., İsmail A., "Eğitimde Estetiğin Gerekliliği ve Oluşumu Üzerine Bir İnceleme", (2017). / Cilt: 7, Sayı: 2, səh. 260-265.
8. Özlem B., "Çocuk edebiyatı eserlerinin estetik ölçütler bakımından incelenmesi", (2020). səh.375-376.
9. Tahr Ç.,"Uluslararası sanat ve estetik dergisi",Yıl: 4, Sayı: 6, (2021) , s.112, səh. 219-221.
10. İşcan A., Efendioğlu S., Ada Ş., "Türkçe Ders Kitaplarında Yer Alan Edebi Metinlerin Öğrencilere Estetik Zevk Kazandırmadaki Rolü" /Sosyal Bilimler (2007). səh. 59-76.
11. https://azertag.az/xeber/Resad_Ahmedzade_Usaqlarin_menevi_estetik_zovqunun_formalasmasi_ve_vetenperver_nesil_kimi_yetismesinde_Kukla_Teatrinin_boyuk_rolu_var-1715875
12. https://kukli.ru/tr/formirovanie-esteticheskoi-kultury-vospitanie-esteticheskoi-kultury/
13. https://www.muallim.edu.az/news.php?id=20490
14. https://kayzen.az/blog/pedaqoq/2338/estetik,-fiziki,-h%C3%BCquq-v%C9%99-ekoloji-t%C9%99rbiy%C9%99.html

JOURNAL OF BAKU ENGINEERING UNIVERSITY- PHILOLOGY AND PEDAGOGY
2023. Volume 7, Number 1 *Pages 110-116*

UOT: 82(100)(091)

ŞƏRQ ƏDƏBİYYATININ "SULTANUL-AŞİQİN"İ İBNÜL-FARİZ VƏ BƏRDƏLİ İBRAHİM GÜLŞƏNİNİN "TAİYYƏ" QƏSİDƏLƏRİNİN MÜQAYİSƏSİ

Fəridə SEYİDOVA
Bakı Mühəndislik Universiteti
feliyeva@beu.edu.az

XÜLASƏ

Ərəbdilli Şərq ədəbiyyatının ən görkəmli şairlərindən olan Ömər İbnül-Fariz (1181-1235) ərəbcə yaranmış sufi şeirin ən gözəl örnəklərini yaratdığı üçün "sultanül-aşiqin" ləqəbinə layiq görülmüşdür. Zamanında ilahi eşqi tərənnüm edən şeirlərinə görə dövrün ədibləri, filosofları, din adamları tərəfindən tənqidlərə məruz qalsa da, onun şeiriyyətini hər kəs yüksək qiymətləndirmişdir və divanı dünyada ən çox şərh olunan əsərlərdəndir. İbnül-Fariz yaradıcılığının davamçısı saya biləcəyimiz, Bakıda yaranaraq üç qitəyə yayılmış təsəvvüf məktəbi Xəlvətiyyənin Gülşəniyyə qolunun qurucusu olmuş Bərdəli İbrahim Gülşəni (1423-1534) də ərəb dilində təsəvvüfi məzmunda divan yazmış, sufi simvolikasını bu dildə oxuculara çatdırmışdır. Hər iki müəllifin yaradıcılığı başdan-başa ilahi eşq və təsəvvüfi təcrübələrinin tərənnümündən ibarətdir. Hər iki divanda taiyyə janrında qəsidələr yer almaqdadır, məqaləmizdə iki şairin divanındakı "taiyyə"lər müqayisəyə cəlb edilmişdir.

Açar sözlər: İbrahim Gülşəni, İbnül-Fariz, sufi, taiyyə

THE COMPARİSON OF QASAİD "TAİYYAH" OF "SULTANUL-ASHİGİN" İBNUL-FARİD – REPRESENTATIVE OF EASTERN LİTERATURE AND IBRAHIM GULSHANI BARDAI

ABSTRACT

Omar Ibnul-Fariz (1181-1235), one of the greatest poets of Arabic-language eastern literature, was awarded the nickname "Sultanul-Ashikin" for creating the most beautiful examples of Sufi poetry in Arabic. Although he was criticized by writers, philosophers and religious people of the time for his poems glorifying divine love, his poetry was highly appreciated by all and his divan is one of the most commented works in the world. Ibrahim Gulshani (1423-1534) from Bardali, who was the founder of the Gulshani branch of Khalwatiya, a school of Sufism that originated in Baku and spread to three continents, who can be considered a follower of the work of Ibnul-Fariz, wrote diwans in Arabic with Sufi content and conveyed Sufi symbolism to readers in this language. The work of both authors consists entirely of the glorification of divine love and mystical experiences. Both divans contain odes in the taiyah genre; our article compares the "taiyah" on the divans of two poets.

Keywords: Ibrahim Gulshani, Ibnul-Fariz, Sufi, taiyah

СРАВНЕНИЕ КАСАИД "ТАИЯ" У "СУЛТАНУЛ-АШЫГИН" ИБНУЛ-ФАРИЗА, ПРЕДСТАВИТЕЛЯ ВОСТОЧНОЙ ЛИТЕРАТУРЫ И ИБРАГИМА ГУЛЬШАНИ БАРДАИ

РЕЗЮМЕ

Омар Ибнуль-Фариз (1181-1235), один из крупнейших поэтов арабоязычной восточной литературы, был удостоен прозвища "Султанул-Ашикин" за то, что создал прекраснейшие образцы суфийской поэзии на арабском языке. Хотя его критиковали писатели, философы и религиозные люди того времени за его стихи, прославляющие божественную любовь, его поэзия была высоко оценена всеми, а его диван - одно из самых комментируемых произведений в мире. Ибрагим Гюльшани (1423-1534) из Бардали, который был основателем гюльшанийской ветви Халватии, школы суфизма, зародившейся в Баку и распространившейся на три континента, которого можно считать последователем творчества Ибнуль-Фариза, писал диваны в арабский с суфийским содержанием и передал читателям суфийскую символику на этом языке. Творчество обоих авторов целиком состоит из прославления божественной любви и мистических переживаний. Оба дивана содержат оды в жанре таийя, в нашей статье сравниваются "таийя" на диванах двух поэтов.

Ключевые слова: Ибрагим Гульшани, Ибнуль-Фариз, суфий, таийя

Giriş

Ərəbdilli Şərq ədəbiyyatının ən görkəmli şairlərindən olan Ömər İbnül-Fariz 1181-1235-ci illərdə yaşamışdır. Qahirədə dünyaya göz açan və ömrünü orada başa vurmuş şair ərəbcə yaranmış sufi şeirin ən gözəl örnəklərini yaratdığı üçün "sultanül-aşiqin" ləqəbinə layiq görülmüşdür. [7, səh.23] Zamanında ilahi eşqi tərənnüm edən şeirlərinə görə dövrün ədibləri, filosofları, din adamları tərəfindən tənqidlərə məruz qalsa da, onun şeiriyyətini hər kəs yüksək qiymətləndirmişdir və divanı dünyada ən çox şərh olunan əsərlərdəndir. [14, səh.42]

İbnül-Fariz yaradıcılığının davamçısı saya biləcəyimiz, Bakıda yaranaraq üç qitəyə yayılmış təsəvvüf məktəbi Xəlvətiyyənin Gülşəniyyə qolunun qurucusu olmuş Bərdəli İbrahim Gülşəni (1423-1534) də ərəb dilində təsəvvüfi məzmunda divan yazmış, sufi simvolikasını bu dildə oxuculara çatdırmışdır. [Bax: 11] İbrahim Gülşəni qaynaqlarda Amidi (Diyarbəkir) və Bərdəi nisbələrilə qeyd edilir. Türbəsinin Diyarbəkirdə olması və atasının əslən Amiddən olmasına istinadən Diyarbəkirli qəbul edilsə də, Bərdəi nisbəsi ilə anılması əbəs yerə deyildir:

1) Orta əsrlərdə elm əhli getdikləri, yaxud yaşadıqları bir çox şəhərin adını özlərinə nisbə götürmüşlər, bundan çıxış edərək İbrahim Gülşəninin Diyarbəkirdə doğulsa belə Qarabağda Dədə Ömər Rövşəni ilə görüşməsi nəticəsində əl-Azərbaycani, yaxud əl-Bərdəi nisbəsi ilə anılmış ola biləcəyi mümkündür;

2) Nisbəsindən asılı olmadan İbrahim Gülşənini azərbaycanlı hesab etmək haqqımız var, çünki dövlətçilik tariximizdə Ağqoyunluları Azərbaycan dövləti olaraq qəbul edirik, Gülşəni də ömrünün çox hissəsini Uzun Həsənin himayəsində Təbrizdə keçirmiş, onun sarayında "tərxan" rütbəsinə qədər yüksəlmişdir. [12, səh.96]

Üç dildə yaranmış təsəvvüf ədəbiyyatında ədəbi əsərlər, divanlar əsasən türkcə və farsca yazılırdı. Yüksək nəqli imkanları, əsasən, elmi-fəlsəfi risalələr üçün uyğun olduğundan ərəb dilində təsəvvüfi məzmunlu divan yazılması çox nadir hadisə idi. İbnül-Fariz bu nadir müəlliflərdən olaraq öz simvolikası sayəsində yalnız Şərqdə deyil, Qərbdə də marağa səbəb olmuş, şeirləri bir çox Avropa dillərinə tərcümə olunaraq Həllac Mənsur, Ömər Xəyyam kimi "Qərbdə sevilən" Şərq klassikləri sırasına daxil olmuşdur. Buna baxmayaraq Orta əsrlərdə divanına dair türkcə və farsca onlarla şərhi olduğu halda ərəbcə yazılmış şərhləri olduqca azdır. Eləcə də müasir ədəbi qaynaqlarda samballı bir əsərə rastlamadıq. Çünki hazırda islam aləminə hakim olan düşüncə sistemi akademik həyatda da öz əksini tapmış, akademik çalışmalar, tədqiqatlarda da bu yanaşma hiss olunmaqdadır. İbn Farizi ədəbi yöndən güclü bir şair kimi qəbul edib tərifləsələr də, yazdıqlarını açıq şəkildə müzakirəyə təqdim edirlər. Çünki şeirlərinin zahiri izahı müasir dini ehkamlarla uzlaşmır. Tarixən də ona qarşı təkziblər yazılmış, xürafat olduğu sübuta çalışılmış, bidətçilikdə günahlandırılmışdır. [14, s.42] Maraqlıdır ki, günümüzdə də bu tendensiya davam etməkdədir.

Səudiyyəli tədqiqatçı Fəzl bin Əmmar əl-Əmmari "İbn Fariz Taiyyəsinin poetikası" adlı geniş məqaləsində bunu belə əsaslandırır ki, islam dünyasında təsəvvüf öncə zühdün şəkil dəyişmiş forması olaraq üzə çıxsa da sonradan bidətə sürüklənmişdir. Son əsrlərdə isə tamamən cildindən çıxaraq həşişçilər, yurdsuz yuvasızların istinadgahı olmuşdur. Xalq inanclarında var olan münbit şərait də kəramətlərin, fövqəladə halların qabardılaraq geniş

xürafata yol açmasına gətirib çıxarmışdır. Xüsusi ilə, XVI əsrdən sonra təkkələr, xanəgahların hər kəsin üzünə açıq olması, insanların toplaşdığı ocaqlar halına gəlməsi bunlara şərait yaratmışdır. [20, s.79] Buna şəxsən şahid olduğumuz Misir, Mərakeş, Əlcəzair və Tunis örnəyini misal göstərə bilərik. Misirdə hazırda xalq arasında sufilər dilənçilər, yolsuzlar, yoxsullardan ibarət bir qrupa çevrilmiş, təkkələr sadəcə insanların toplaşaraq kəramət dolu hekayələrin dinlənildiyi, ilahilərin oxunduğu, sədəqələr paylanan, ziyarətçilərin mahiyyətini dərk etmədən xalq inancının təlqini ilə gəlib-getdiyi məkanlara çevrilmişdir. Bütün bunları nəzərə aldıqda ərəb dünyasında təsəvvüfün incəliklərinə deyil, təkzibinə yönəlik araşdırmaların çoxluq təşkil etməsini anlamaq mümkündür. Buna baxmayaraq, İbn Farizin şeiriyyətini, təsəvvüfünü layiq olduğu şəkildə qiymətləndirən çalışmalar az da olsa mövcuddur. Bunlara divanının ərəbcə klassik şərhləri (Bədrəddin əl-Burini (1690), Əbdülqəni b.İsmayıl əl-Nablusi (1730), Əmin əl-Huri və (1916)) [3, s.128-130] və Məhəmməd Mustafa Hilminin "İbnül-Fariz və ilahi sevgi" adlı əsəri (1971), Mahmud Əbdülxaliqin "İbnül-Fariz poetikası müasir ədəbi tənqid işığında" (1984) kimi əsasən Misir ədəbi-elmi mühitində yaranmış qiymətli tədqiq əsərləri vardır.

İbrahim Gülşəni divanının indiyə qədər diqqətdən kənar qalması da eyni dəlillərlə əsaslandırıla bilər. Müəllifin ömrünün son 30 ilini Qahirədə yaşaması, irşad fəaliyyətilə məşğul olması, türbəsinin orada olması faktlarını nəzərə aldıqda Misir kitabxanalarında əsərlərinin, xüsusən də ərəbcə divanının nüsxəsinin tapılmaması yuxarıda bəhs etdiyimiz laqeydliyin bir göstəricisidir. Qaynaqlarda İbrahim Gülşəninin ərəbcə divanı haqqında ötəri məlumatların olmasını [15, səh.495] mənaqibnaməsinə istinadən, zamanında bu divana görə tənqidə və təkfirə məruz qalmasının bir nəticəsi olaraq qiymətləndirə bilərik.

Əlavə olaraq nəzərə almaq gərəkdir ki, ərəb dilinin mürəkkəbliyi bu dildə yazılmış poetik əsərlərin tədqiqini olduqca çətinləşdirir. Eyni müəllifin farsca şeirini çox asanlıqla anlayıb şərh etmək, simvolikasına enmək mümkün olduğu halda ərəbcə bir qəzəli haqqında bunları demək mümkün deyildir.

İbnül-Fariz və İbrahim Gülşəni yaradıcılığının ortaq və fərqli yönləri

Bildirmək lazımdır ki, ərəbdilli təsəvvüf ədəbiyyatını ədəbiyyatçılar 3 mərhələdə tədqiq edirlər. Erkən dövrdə təsəvvüfi yaradıcılıq daha çox hikmətli öyüdlər, əxlaqi nəsihətlər, zöhdə, ibadətə, itaətə təşviq edən örnəklər şəklində üzə çıxmışdır. İkinci mərhələdə lahuti məzmun üstünlük təşkil etməyə, şathiyyat və təsəvvüfi istilahlar formalaşmağa başlamışdır və bu dövrdə əsasən nəsr əsərlər yaranmışdır. Üçüncü, qızıl dövr adlandırılan mərhələ hicri VIII əsrin ortalarına qədər davam etmiş və üstünlük nəzmdən yana olmuşdur. Bu dövrdə sufi ədəbiyyatının ən parlaq örnəkləri yaradılmışdır. Təsəvvüfi şeirin ilk örnəkləri İbrahim Ədhəm (v: 778), Süfyan Sevri (v: 778), Davud Tai (v: 781), Rəbiyə Ədəviyyə (v: 801), Şəqiq Bəlxi (v: 780), Mərux Kərxi (v: 815) tərəfindən yaradılmışdır. Daha sonra Zünnun Misri (v:859), Şibli (v:945), Həllac Mənsur (v:921), Muhyiddin ibn Ərəbi (v:1240) və İbnül-Farizin timsalında intibah edərək parlamışdır. Onlardan sonrakı dövrlərdə sufi şeir öz təbiiliyini itirərək, müəyyən təriqətlər daxilində öz varlığını qoruyub saxlamaqdadır. [3, səh.41-43]

İbnül-Farizin yeganə əsəri olan divanında həmzə, tə, cim, ha, dəl, zəl, ra, sin, ayn, fə, kəf, ləm, mim, hə və yə hərfləri ilə qafiyələndirdiyi 24 qəsidə və dübeyt və lüğəz janrlarında yazılmış 53 şeiri vardır. [3, səh.122] Şairin divanındakı "Xəmriyyə" və "Taiyyətül-kübra" qəsidələri həm Şərqdə həm də Qərbdə məşhurlaşmışdır. 761 beytlik "Taiyyə"si şairin

təsəvvüfi məna yolunun təsviri olub, Peyğəmbərin yuxuda ona işarəti ilə "Nəzmüs-süluk" adlandırılmışdır. [3, səh.104]

İbrahim Gülşəninin yeganə ərəbcə əsəri olan "Divan"ının mənbələrdə İbnül-Farizin "Taiyyə"sinə nəzirə olaraq yazıldığı qeyd olunur. [15, səh.495] Bütünlüklə "Taiyyə" ilə oxşar "abu-hava"da olan –bəhr, qafiyə sistemi, məzmun, üslub bənzərliyi bu qənaəti əsaslandırmaqdadır. Eyni zamanda, bir çox bənzərliklərlə yanaşı, özünəməxsusluqlar da mövcuddur. İbnül-Farizin divanında sadəcə qəsidələr yer aldığı halda İbrahim Gülşəni klassik divanların qəsidə, qəzəl, rübai ardıcıllığını qorumuşdur. Divan 2 qəsidə (taiyyə janrında), 56 qəzəl, 171 rübaidən mütəşəkkildir. [12, səh.98-102]

Hər iki müəllifin yaradıcılığı başdan-başa ilahi eşq və təsəvvüfi təcrübələrinin tərənnümündən ibarətdir. Türkiyəli tədqiqatçı Yaşar Baytar İbnül-Farizin divanını incələdiyi əsərində onun divanda klassik qəsidə tərzini izləmədiyini, o mənhəcdən çıxaraq daha çox təsəvvüfi yolculuğuna müvafiq bir xətt izlədiyini yazır. Belə ki, klassik ərəb qəsidələrinin şablon strukturu belə olurdu: Şeirin ilk hissəsi bir yurd yerinin təsviri ilə (təlal) başlayır, ayrılıq və eşq acısı çəkən aşiqin duyğularının tərənnümü ilə davam edərdi. İkinci hissə nəsib adlandırılmış və burada səfərdən bəhs edilər, şairin səhrada keçdiyi uzun, məşəqqətli yol, mindiyi dəvə təsvir edilir. Üçüncü hissə qəsidənin əsas məzmununu ehtiva edir, həcv, mədhiyyə və ya hansı növ olduğunu buradan anlayırıq. [12, səh.98-102] Məqaləmizə mövzu olan qəsidələr daha çox müəlliflərinin şəxsi təkamül təcrübələrini, təsəvvüfi yolçuluqda yaşanan hal və məqamların simvolik dillə izahından ibarətdir. Bu iki qəsidə arasındakı oxşarlıqlar bundan ibarətdir:

1) Hər iki qəsidə taiyyə janrındadır – rədif "tə" hərfi ilə bitir;

2) Hər iki qəsidə bütünlüklə ilahi eşqin tərənnümünə həsr olunub;

3) Hər iki qəsidə müəllifi sadəcə nəzəri təcrübələrini deyil, əyani təcrübələrini, təkamül prosesində bilavasitə yaşadığı hal və məqamları şərh edib;

4) Mövzu və motivlər üst-üstə düşür;

5) Hər iki qəsidə vəhdəti-vücud düşüncə sisteminə əsasən təlif olunub;

6) İbrahim Gülşəni İbnül-Fariz simvolikasından bəhrələnmişdir;

7) Hər iki qəsidədə şathiyyə örnəkləri mövcuddur.

Fərqləndirə bildiyimiz özəlliklər isə aşağıdakılardan ibarətdir:

1) İbnül-Farizdən fərqli olaraq, İbrahim Gülşənidə irşad təmayülü də sezilməkdədir, belə ki, mürşidlik fəaliyyəti ilə əlaqədar bu divanı müridlərinə öyüd-nəsihət tribunası kimi də istifadə etmiş, "ey talib" və bənzəri nidalarla müəyyən mövzuları diqqətə çatdırmışdır.

2) İbrahim Gülşəninin ilk qəsidəsində müəyyən qədər süjet xətti, mövzu ardıcıllığı izlənilir, belə ki şair qəsidəsinə öz şəxsində zahir və batindən ibarət insanın necə qəribə varlıq olduğunu zikr etməklə başlayır. Ucu qeybə dirənən bir sirr ilə yaradılmış, nəfxeyi-müqəddəsə üfürülmüş insanın təcəlli anında səkr-səhv, cəm-fərq, fəna-bəqa, məhv-isbat hallarına toxunur. Daha sonra yenə öz şəxsində əhli-həvanın xüsusiyyətlərindən danışır. Əhli-həva, əhli-kəşf, əhli-vüdd yəni sufinin hallarından danışır. Daha sonra ibadətlər haqqında hissə başlayır. Dəstəmaz, namaz, oruc, həcc mənasiki, zikr barədə yazır. Əhli-beyt mövzusuna toxunur.

Hər iki qəsidə səkr halından bəhslə başlayır. Səkr sufinin mənəvi təkamül prosesində yaşadığı hallardan biridir. Təsəvvüfün ilk dövrlərindən bir istilah olaraq qəbul edilmiş və bütün təsəvvüfi risalələrdə yer almışdır. Türkcə zəngin sözlük yazmış Mustafa Rasim Əfəndi səkr sözünə belə tərif verir:

"Səkr elə bir haldır ki, ağıl üzərinə ariz (sonradan peyda) olur. Şərabdan, mənamdan və eşqdən vücud tapır. Şərabdan və mənamdan olan zahirdir. Eşqdən olan isə aşiqin qəlbinə qəfil gələn qüvvətli varidatdır ki, özündən gedir. Səkr digər bənzər təsəvvüfi hal olan qeybətdən daha güclü olur. Qeybət (özündən keçmə) halından fərqli olaraq səkrdə ləzzət vardır. Məhbubənin camalı ilə cəzb olunduqda əqlin şüası nəfsdən arınır və insanın içinə bir fərəh, sevinc, şadlıq gəlir. Bununla eyni vaxtda dəhşət və qorxu gəlir. Bu hala səkr deyilir. Səkrdən öncə və sonra olan ayıqlıq halına isə səhv deyilir." [13, s.621-622] Təcəlliyyatı-zövqiyyə dörd mərtəbədir. Birincisi zövqdür, yəni dadmaq. İkincisi şurbdur (içmək), üçüncüsü rəyydir (doymaq), dördüncüsü isə səkrdir (sərxoşluq). [Eyni yer s.623] Səkr halında olan aşiq bütün hissiyatını, əqlini itirər, Fuzuli demiş dünya və mafihanı idrak etməyəcək səviyyədə sərməst olur. Ondan meydana çıxan sözlərə və feillərə cavabdeh sayılmaz. Səkr halında duyduğu yaxınlıq zövqünə aldanıb özünü itirən aşiqlər o halda ikən bir qisim sözlər, daha dəqiq desək sirrlər açığa vurduqları üçün şathda günahlandırılmış, bu halda yazıldığı güman olunan əsərlərə isə şathiyyat adı verilərək təsəvvüf ədəbiyyatında xüsusi bir janr əmələ gətirilmişdir. [bax: 10] Rəvayətə görə, İbn Fariz 12 gün səkr halında olduqda iyirmi-otuz beyt yazıb, təkrar səhv halında ara verir və səkr halında davam edərmiş. [13, səh.621] Mistik yüksəlişə yetənlərin cəm məqamında (zat tövhidi) məqamında səkr (mənəvi sərxoşluq) halında söylədikləri rəmzi və anlaşılması çətin sözlərilə bu məqamı yaşayıb fərqə gəldikdən sonra söylənən örtülü sözlər ədəbiyyat tariximizdə "şathiyyatı-sufiyanə" terminilə adlandırılmışdır. Mistik bilgi nəzəri-əqli deyil, təcrübəyə əsaslanır. Yaşanmadan bilinməz. Bu baxımdan ən həqiqi bilik olan təcrübi biliyin nəqli mm kün deyildir. Lakin mistik hallar yaşayan bəzi sufilər yaşadıqlarını həzm edə bilməyib gizli sirlərini açıqlaya bilirlər. Bu nöqtədə dilə gətirilən sözlər insanlar tərəfindən anlaşılmadığı üçün ona "quş dili", "cəfəngiyyat" kimi baxaraq şath demişlər.

"Taiyyə"nin dillər əzbəri olan ilk beytinə nəzər salaq:

سَقَتني حُمَيَّا الحُبَّ راحَةُ مُقلَتي

وَكَأسي مُحَيَّا مَن عَنِ الحُسنِ جَلَّتِ

Gözümün nuru olan sevgili məhəbbət şərabını içirdi

Halbuki mənim qədəhim o həzrətin hər cür gözəllikdən üstün olan camalı-bakamalıdır.

Gülşəni də bənzər məzmunda və üslubda ilk qəsidəsinə giriş edir:

ساقي شراب وصلٍ ناول بهجر ذات

في الصّحو سكرى انظر من ذاك في الصّفات

Saqi, vüsal şərabını zatın hicri ilə dəyişdir

Səkr içində səhv var, Zatın sifətlərinə də burdan nəzər et.

Əxlaqi-mənəvi saflığa dəvət edən təsəvvüfün şərabla, saqi, qədəh ilə nə əlaqəsi ola bilər?! Taiyyənin şarihi Ankaravi bunu belə açıqlayır:

Şərabdan murad şəkil gözəlliyidir. Hər məzhər Haqqın təcəlli şərabıyla dolu bir qədəh kimidir. Odur ki, zahiri qədəhlərdən imtina edirəm, çünki təcəlli şərabından dadıram. [1, səh.53-55]

Hər iki şair bu uzun və məşəqqətli mənəvi yolçuluğunu, varlıq içərisində öz mövqeyini bilmək və həqiqəti dərk etmək həsrəti ilə yaşamışdır. Həm Gülşənidə, həm İbnül-Farizdə izlənilən bir nüans odur ki, bu iki sufinin həqiqətə çatma yolu filosofda olduğu kimi ancaq ideya və düşüncə istiqamətli deyildir, həm də mənəvi təcrübələrə əsaslanır.

Nəticə

Bu mövzu geniş bir tədqiqat mövzusu olaraq olduqca maraqlı və əhəmiyyətlidir. Onlar arasında üç əsr olsa da, eyni hissləri və təcrübələri demək olar ki, eyni üslubda çatdırmaları, ifadə etmələri bu iki şairi bir-birinə bağlayan ədədbi və mənəvi bağın gücünü göstərir.

QAYNAQLAR VƏ ƏDƏBİYYAT SİYAHISI

1. Ankaravi İ. R. *Osmanlı tasavvuf düşüncesi*, Haz: Mehmet Demirci, İstanbul, Vefa, 2008, 482 s.
2. Arslan A. *İbnü'l-Fârız'ın Huve'l-hubbu Kasidesi Üzerine Şârihlerin Getirdiği Yorumlara Dair Bir İnceleme*, Yıl: 2023 Cilt: Sayı: 49 Sayfa Aralığı: 19 -33.
3. Baytar Y. S. *Sûfî Şair İbnu'l-Fârid, Hayatı ve Divânı,* İksad, 2020.
4. *Divanu-Həzrəti Şeyx İbrahim Gülşəni*. Ankara Universiteti Dil, Tarix, Coğrafiya fakültəsi kitabxanası, A421 şifrli yazma.
5. Gülşeni M. *Menakıb-ı İbrahim Gülşeni*, Haz: Mustafa Koç, Eyyüp Tanrıverdi, İstanbul, Türkiye Yazma eserler Kurumu Başkanlığı yayınları, 2014, 414 s.
6. Gülşəni İ. *Divan*, AMEA Əlyazmalar İnstitutu, B-778/I şifrli əlyazma.
7. İzmirli B. *Şair bir sufi ya da aşıkların sultanı İbnül-Fariz*, Sufi araştırmaları, 2013, sayı 7, s.20-34.
8. Kızılcık A. *Divanu-İbrahim Gülşəni*, Dəməşq, 2006, 400 s.
9. Konur H. *İbrahim Gülşeni, Hayatı, eserleri, tarikatı*. İstanbul, İnsan yay., 2000, 272 s.
10. Kurnaz C., Tatcı M. *Türk edebiyatında şathiyye*, Ankara, Akçağ, 2001, 346 s.
11. Musabəyli A. *Şeyx İbrahim Gülşəni Bərdəi və türkcə "Divan"ı*, Bakı, Elm və təhsil, 2012, 2 cild, 1215 s.
12. Seyidova F. *XVI əsr Azərbaycan divan ədəbiyyatının nümayəndəsi İbrahim Gülşəni Bərdəi və onun ərəbcə yaradıcılığı*. Journal of Baku Engineering University, Philology and Pedagogy 2021, Volume 5, Number 2, s.95-103 (file:///C:/Users/tq/Downloads/Filologiya_2021_2.pdf)
13. Seyyid M. R. *Istılahat-ı insan-ı kamil*, Haz: İhsan Kara, İstanbul, İnsan, 2008, 1286 s.
14. Uludağ S. *"İbnü'l-Fârız"*, TDV İslâm Ansiklopedisi, https://islamansiklopedisi.org.tr/ibnul-fariz (12.11.2023).)
15. http://www.al-mostafa.com/ الشعراني. الطبقات الكبرى. (كتاب اليكبروني).
16. الإمام أبو القاسم القشيري النيسابوري الشافعي. الرسالة القسيرية. القاهرة: دار الشعب، القاهرة، 1989، 633 ص.
17. محمد مصطفى حلمي، ابن الفارض والحب الإلهي، دار المعارف، القاهرة، ط2، 1971م
18. محمود عبد الخالق، شعر ابن الفارض في ضوء النقد الأدبي الحديث. القاهرة، دار المعارف، ط 3، 1984م.
19. الرمز الشعري عند الصوفية -عاطف جودة نصر، بيروت، دار الاندلس، ط 3، 1983م.
20. العماري، فضل بن عمار، مجلة الآداب، المجلد 29، العدد 3 (31 ديسمبر/كانون الأول 2017)، ص ص. 75-105، 31ص.

INSTRUCTIONS FOR AUTHORS

1. "The Baku Engineering University Journal- Philology and Pedagogy" accepts original unpublished articles and reviews in the research field of the author.
2. Articles are accepted in English.
3. File format should be compatible with **Microsoft Word** and must be sent to the electronic mail (**journal@beu.edu.az**) of the Journal. The submitted article should follow the following format:

- Article title, author's name and surname
- The name of workplace
- Mail address
- Abstract and key words

4. The title of the article should be in each of the three languages of the abstract and should be centred on the page and in bold capitals before each summary.
5. **The abstract** should be written in **9 point** type size, between **100** and **150** words. The abstract should be written in the language of the text and in two more languages given above. The abstracts of the article written in each of the three languages should correspond to one another. The keywords should be written in two more languages besides the language of the article and should be at least three words.
6. . **UDC** and **PACS** index should be used in the article.
7. The article must consist of the followings:

- Introduction
- Research method and research
- Discussion of research method and its results
- In case the reference is in Russian it must be given in the Latin alphabet with the original language shown in brackets.

8. **Figures, pictures, graphics and tables** must be of publishing quality and inside the text. Figures, pictures and graphics should be captioned underneath, tables should be captioned above.
9. **References** should be given in square brackets in the text and listed according to the order inside the text at the end of the article. In order to cite the same reference twice or more, the appropriate pages should be given while keeping the numerical order. For example: [7, p.15].

Information about each of the given references should be full, clear and accurate. The bibliographic description of the reference should be cited according to its type (monograph, textbook, scientific research paper and etc.) While citing to scientific research articles, materials of symposiums, conferences and other popular scientific events, the name of the article, lecture or paper should be given.

Samples:

a) ***Article:*** Demukhamedova S.D., Aliyeva İ.N., Godjayev N.M.. *Spatial and electronic structure af monomerrik and dimeric conapeetes of carnosine üith zinc,* Journal of structural Chemistry, Vol.51, No.5, p.824-832, 2010

b) ***Book:*** Christie ohn Geankoplis. *Transport Processes and Separation Process Principles*. Fourth Edition, Prentice Hall, p.386-398, 2002

c) ***Conference paper:*** Sadychov F.S., Aydın C., Ahmedov A.İ.. Appligation of Information – Commu-nication Technologies in Science and education. II International Conference.”*Higher Twist Effects In Photon- Proton Collisions”, Bakı, 01-03 Noyabr, 2007, ss 384-391*

References should be in 9-point type size.

10. The margins sizes of the page: - Top 2.8 cm. bottom 2.8 cm. left 2.5 cm, right 2.5 cm. The article main text should be written in Palatino Linotype 11 point type size single-spaced. Paragraph spacing should be 6 point.
11. The maximum number of pages for an article should not exceed 15 pages
12. The decision to publish a given article is made through the following procedures:

- The article is sent to at least to experts.
- The article is sent back to the author to make amendments upon the recommendations of referees.
- After author makes amendments upon the recommendations of referees the article can be sent for the publication by the Editorial Board of the journal.

YAZI VƏ NƏŞR QAYDALARI

1. "Journal of Baku Engineering University" Filologiya və pedaqogika - əvvəllər nəşr olunmamış orijinal əsərləri və müəllifin tədqiqat sahəsi üzrə yazılmış icmal məqalələri qəbul edir.
2. Məqalələr İngilis dilində qəbul edilir.
3. Yazılar **Microsoft Word** yazı proqramında, (**journal@beu.edu.az**) ünvanına göndərilməlidir. Göndərilən məqalələrdə aşağıdakılara nəzərə alınmalıdır:

- Məqalənin başlığı, müəllifin adı, soyadı,
- İş yeri,
- Elektron ünvanı,
- Xülasə və açar sözlər.

4. **Məqalədə başlıq hər xülasədən əvvəl** ortada, qara və böyük hərflə xülasələrin yazıldığı hər üç dildə olmalıdır.
5. **Xülasə** 100-150 söz aralığında olmaqla, 9 punto yazı tipi böyüklüyündə, məqalənin yazıldığı dildə və bundan əlavə yuxarıda göstərilən iki dildə olmalıdır. Məqalənin hər üç dildə yazılmış xülasəsi bir-birinin eyni olmalıdır. Açar sözlər uyğun xülasələrin sonunda onun yazıldığı dildə verilməklə ən azı üç sözdən ibarət olmalıdır.
6. Məqalədə UOT və PACS kodları göstərilməlidir.
7. Məqalə aşağıdakılardan ibarət olmalıdır:

- Giriş,
- Tədqiqat metodu
- Tədqiqat işinin müzakirəsi və onun nəticələri,
- İstinad ədəbiyyatı rus dilində olduğu halda orjinal dili mötərzə içərisində göstərməklə yalnız Latın əlifbası ilə verilməlidir.

8. **Şəkil**, **rəsm**, **grafik** və **cədvəllər** çapda düzgün, aydın çıxacaq vəziyyətdə və mətn içərisində olmalıdır. Şəkil, rəsm və grafiklərin yazıları onların altında yazılmalıdır. Cədvəllərdə başlıq cədvəlin üstündə yazılmalıdır.
9. **Mənbələr** mətn içərisində kvadrat mötərizə daxilində göstərilməklə məqalənin sonunda mətn daxilindəki sıra ilə düzülməlidir. Eyni mənbəyə iki və daha cox istinad edildikdə əvvəlki sıra sayı saxlanmaqla müvafiq səhifələr göstərilməlidir. Məsələn: [7,səh.15].

Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Elmi məqalələrə, simpozium, konfrans, və digər nüfuzlu elmi tədbirlərin materiallarına və ya tezislərinə istinad edərkən məqalənin, məruzənin və ya tezisin adı göstərilməlidir.

Nümunələr:

a) ***Məqalə:*** Demukhamedova S.D., Aliyeva İ.N., Godjayev N.M.. *Spatial and electronic structure af monomeric and dimeric complexes of carnosine with zinc,* Journal of structural Chemistry, Vol.51, No.5, p.824-832, 2010

b) ***Kitab:*** Christie ohn Geankoplis. *Transport Processes and Separation Process Principles*. Fourth Edition, Prentice Hall, 2002

c) ***Konfrans:*** Sadychov F.S., Aydın C., Ahmedov A.İ.. Appligation of Information-Communication Technologies in Science and education. II International Conference. "*Higher Twist Effects In Photon- Proton Collisions", Bakı, 01-03 Noyabr, 2007, ss 384-391*

Mənbələr 9 punto yazı tipi böyüklüyündə olmalıdır.

10. **Səhifə ölçüləri:** üstdən 2.8 sm, altdan 2.8 sm, soldan 2.5 sm və sağdan 2.5 sm olmalıdır. Mətn 11 punto yazı tipi böyüklüyündə, **Palatino Linotype** yazı tipi ilə və tək simvol aralığında yazılmalıdır. Paraqraflar arasında 6 punto yazı tipi aralığında məsafə olmalıdır.
11. Orijinal tədqiqat əsərlərinin tam mətni bir qayda olaraq 15 səhifədən artıq olmamalıdır.
12. Məqalənin nəşrə təqdimi aşağıdakı qaydada aparılır:

- Hər məqallə ən azı iki ekspertə göndərilir.
- Ekspertlərin tövsiyələrini nəzərə almaq üçün məqalə müəllifə göndərilir.
- Məqalə, ekspertlərin tənqidi qeydləri müəllif tərəfindən nəzərə alındıqdan sonra Jurnalın Redaksiya Heyəti tərəfindən çapa təqdim oluna bilər.

YAZIM KURALLARI

1. "Journal of Baku Engineering University- Filoloji ve Pedagoji" önceler yayımlanmamış orijinal çalışmaları ve yazarın kendi araştırma alanın-da yazılmış derleme makaleleri kabul etmektedir.
2. Makaleler İngilizce kabul edilir.
3. Makaleler Microsoft Word yazı programında, (**journal@beu.edu.az**) adresine gönderilmelidir. Gönderilen makalelerde şunlar dikkate alınmalıdır:

- Makalenin başlığı, yazarın adı, soyadı,
- İş yeri,
- E-posta adresi,
- Özet ve anahtar kelimeler.

4. **Özet** 100-150 kelime arasında olup 9 font büyüklüğünde, makalenin yazıldığı dilde ve yukarıda belirtilen iki dilde olmalıdır. Makalenin her üç dilde yazılmış özeti birbirinin aynı olmalıdır. Anahtar kelimeler uygun özetin sonunda onun yazıldığı dilde verilmekle en az üç sözcükten oluşmalıdır.
5. Makalede UOT ve PACS tipli kodlar gösterilmelidir.
6. Makale şunlardan oluşmalıdır:

- Giriş,
- Araştırma yöntemi
- Araştırma
- Tartışma ve sonuçlar,
- İstinat Edebiyatı Rusça olduğu halde orjinal dili parantez içerisinde göstermekle yalnız Latin alfabesi ile verilmelidir.

7. **Şekil, Resim, Grafik** ve **Tablolar** baskıda düzgün çıkacak nitelikte ve metin içerisinde olmalıdır. Şekil, Re-sim ve grafiklerin yazıları onların alt kısımda yer almalıdır. Tablolarda ise başlık, tablonun üst kısmında bulunmalıdır.
8. **Kullanılan kaynaklar**, metin dâhilinde köşeli parantez içerisinde numaralandırılmalı, aynı sırayla metin sonunda gösterilmelidir. Aynı kaynaklara tekrar başvurulduğunda sıra muhafaza edilmelidir. Örneğin: [7,seh.15].

Referans verilen her bir kaynağın künyesi tam ve kesin olmalıdır. Referans gösterilen kaynağın türü de eserin türüne (monografi, derslik, ilmî makale vs.) uygun olarak verilmelidir. İlmi makalelere, sempozyum, ve konferanslara müracaat ederken makalenin, bildirinin veya bildiri özetlerinin adı da gösterilmelidir.

Örnekler:

a) ***Makale:*** Demukhamedova S.D., Aliyeva İ.N., Godjayev N.M.. *Spatial and Electronic Structure of Monomerik and Dimeric Conapeetes of Carnosine Üith Zinc,* Journal of Structural Chemistry, Vol.51, No.5, p.824-832, 2010

b) ***Kitap:*** Christie ohn Geankoplis. *Transport Processes and Separation Process Principles.* Fourth Edition, Prentice Hall, p.386-398, 2002

c) ***Kongre:*** Sadychov F.S., Aydın C., Ahmedov A.İ. Appligation of Information-Communication Technologies in Science and education. II International Conference. "*Higher Twist Effects In Photon- Proton Collisions", Bakı, 01-03 Noyabr, 2007, ss 384-391*

Kaynakların büyüklüğü 9 punto olmalıdır.

9. **Sayfa ölçüleri**; üst: 2.8 cm, alt: 2.8 cm, sol: 2.5 cm, sağ: 2.5 cm şeklinde olmalıdır. Metin 11 punto büyük-lükte **Palatino Linotype** fontu ile ve tek aralıkta yazılmalıdır. Paragraflar arasında 6 puntoluk yazı mesa-fesinde olmalıdır.
10. Orijinal araştırma eserlerinin tam metni 15 sayfadan fazla olmamalıdır.
11. Makaleler dergi editör kurulunun kararı ile yayımlanır. Editörler makaleyi düzeltme için yazara geri gönderilebilir.
12. Makalenin yayına sunuşu aşağıdaki şekilde yapılır:

- Her makale en az iki uzmana gönderilir.
- Uzmanların tavsiyelerini dikkate almak için makale yazara gönderilir.
- Makale, uzmanların eleştirel notları yazar tarafından dikkate alındıktan sonra Derginin Yayın Kurulu tarafından yayına sunulabilir.

13. Azerbaycan dışından gönderilen ve yayımlanacak olan makaleler için,(derginin kendilerine gonderilmesi zamani posta karşılığı) 30 ABD Doları veya karşılığı TL, T.C. Ziraat Bankası/Üsküdar-İstanbul 0403 0050 5917 No'lu hesaba yatırılmalı ve makbuzu üniversitemize fakslanmalıdır.

ПРАВИЛА ДЛЯ АВТОРОВ

1. «Journal of Baku Engineering University» - Филология и педагогика публикует оригинальные, научные статьи из области исследования автора и ранее не опубликованные.
2. Статьи принимаются на английском языке.
3. Рукописи должны быть набраны согласно программы **Microsoft Word** и отправлены на электронный адрес **(journal@beu.edu.az)**. Отправляемые статьи должны учитывать следующие правила:

- Название статьи, имя и фамилия авторов
- Место работы
- Электронный адрес
- Аннотация и ключевые слова

4. **Заглавие статьи** пишется для каждой аннотации заглавными буквами, жирными буквами и располагается по центру. Заглавие и аннотации должны быть представлены на трех языках.
5. **Аннотация**, написанная на языке представленной статьи, должна содержать 100-150 слов, набранных шрифтом 9 punto. Кроме того, представляются аннотации на двух других выше указанных языках, перевод которых соответствует содержанию оригинала. Ключевые слова должны быть представлены после каждой аннотации на его языке и содержать не менее 3-х слов.
6. В статье должны быть указаны коды UOT и PACS.
7. Представленные статьи должны содержать:

- Введение
- Метод исследования
- Обсуждение результатов исследования и выводов.
- Если ссылаются на работу на русском языке, тогда оригинальный язык указывается в скобках, а ссылка дается только на латинском алфавите.

8. **Рисунки, картинки, графики и таблицы** должны быть четко выполнены и размещены внутри статьи. Подписи к рисункам размещаются под рисунком, картинкой или графиком. Название таблицы пишется над таблицей.
9. **Ссылки** на источники даются в тексте цифрой в квадратных скобках и располагаются в конце статьи в порядке цитирования в тексте. Если на один и тот же источник ссылаются два и более раз, необхо-димо указать соответствующую страницу, сохраняя порядковый номер цитирования. Например: [7, стр.15]. Библиографическое описание ссылаемой литературы должно быть проведено с учетом типа источника (монография, учебник, научная статья и др.). При ссылке на научную статью, материалы сим-позиума, конференции или других значимых научных мероприятий должны быть указаны название статьи, доклада или тезиса.

Например:

a) ***Статья:*** Demukhamedova S.D., Aliyeva I.N., Godjayev N.M. *Spatial and electronic structure of monomeric and dimeric complexes of carnosine with zinc,* Journal of Structural Chemistry, Vol.51, No.5, p.824-832, 2010

b) ***Книга:*** Christie on Geankoplis. *Transport Processes and Separation Process Principles.* Fourth Edition, Prentice Hall, 2002

c) ***Конференция:*** Sadychov F.S, Fydin C,Ahmedov A.I. Appligation of Information-Communication Nechnologies in Science and education. II International Conference. *"Higher Twist Effects In Photon-Proton Collision",* Bakı,01-03 Noyabr, 2007, ss.384-391

Список цитированной литературы набирается шрифтом 9 punto.

10. **Размеры страницы:** сверху 2.8 см, снизу 2.8 см, слева 2.5 и справа 2.5. Текст печатается шрифтом **Pala-tino Linotype**, размер шрифта 11 punto, интервал-одинарный. Параграфы должны быть разделены расстоянием, соответствующим интервалу 6 punto.
11. Полный объем оригинальной статьи, как правило, не должен превышать 15 страниц.
12. Представление статьи к печати производится в ниже указанном порядке:

- Каждая статья посылается не менее двум экспертам.
- Статья посылается автору для учета замечаний экспертов.
- Статья, после того, как автор учел замечания экспертов, редакционной коллегией журнала может быть рекомендована к печати.